# 26 İyun Silahlı Qüvvələr Günüdür!

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 135 (30251) 26 iyun 2023-cü il, bazar ertəsi

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Bu gün Azərbaycan Ordusu artıq özünü təsdiqləyib, cəmi 44 gün ərzində düşməni tarixi torpaqlarımızdan qovub, tarixi ədaləti bərpa edib, xalqımızın qürurunu bərpa edib və bu gün Azərbaycan dövlətinin təhlükəsizliyinin qarantıdır.**

## Biz regionda ədaləti, tarixi həqiqəti bərpa etmişik



**Beynəlxalq aləmdəki ədalətsizlik sindromu sağalmaz xəstəlik kimi gündən-günə daha ağır fəsadlar verməkdədir. Sanki heç bir güclü dövlət öz ölkəsinin daxili işləri ilə məşğul olmaq istəmir, mütləq hansısa inkişaf etməkdə olan ölkədə problemlər yaratmaq ssenarisi üzərində baş sındırır.**

Çox təəssüf ki, həmin sindromun – ədalətsizliyin və məkrli niyyətlərin əziyyətini daha çox müsəlman ölkələri və türkdilli xalqlar çəkirlər. Bu arqumentimizin təsdiqini son iki il yarımda Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər edən dünya siyasətçiləri, parlamentarilər, mətbuat təmsilçiləri və tanınmış səyyahlar məhz orada –Ağdam, Füzuli, Zəngilan və digər rayonlarımızda görürlər.

*(ardı 3-cü səhifədə)*

## Prezident İlham Əliyev Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında 26 İyun - Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edib.**

## Erməni illüzionizminə Zaxarovadan dəstək

Səhifə ⇨ 4

## "Vaqner" qiyamı": 1917-ci ilin fevralı, yoxsa oktyabrı?



**"Vaqner" Özəl Hərbi Şirkətinin qiyamı kimi qiymətləndirilmiş hadisə ilə bağlı xalqa müraciət edərkən Rusiya Prezidenti Vladimir Putinin 1917-ci ilin Fevral burjua inqilabından söz açması təəccüb doğurdu.**

O inqilab hara, hazırkı olay hara, – deyə düşünənlər də tapıldı. Axı 1917-ci ildə baş verənlər güclənmiş bir sinfin hakimiyyəti yenmək iddiası idi. Yəni, prinsip etibarilə, o zamankı mübarizənin motivini Rusiyanın ayrı-ayrı təbəqələri arasındakı gərginlik təşkil etmişdi. Ancaq bir oxşarlıq var ki, onu da Putin dilə gətirdi. Söhbət Birinci dünya müharibəsindən gedir. Rusiya yenə də faktiki olaraq, dünya müharibəsindədir. Amma bu dəfə tam təklənmiş durumdadır. Üstəlik, ölkənin müharibədən çıxmasını, məğlubiyyətə uğramasını istəyənlər daha çoxdur.

*(ardı 14-cü səhifədə)*

## "Azərkosmos" 42 ölkəyə peyk xidmətləri göstərir



Səhifə ⇨ 7

## Vaxt Bakının xeyrinə işləyir

**Vətən müharibəsinin başa çatmasından ötən iki il yeddi ay ərzində Ermənistanla sülh sazişinin imzalanması istiqamətində danışıqlar aparılsa da, hələlik bir nəticə əldə etmək mümkün olmur. Bunun da təqsirkarı, birmənalı olaraq, rəsmi İrəvandır. Haylar iki ölkənin şərti sərhədində vaxtaşırı təxribatlar törədir, danışıqlar prosesində yeni-yeni əsassız tələblər irəli sürür, prosesi hər vəchlə pozmağa çalışırlar. İki ölkə arasında sərhədlərin delimitasiya prosesində hələ də ciddi irəliləyiş əldə olunmayıb, Zəngəzur dəhlizinin açılması ləngiyir, Qarabağdan erməni yaraqlıları çıxarılmayıb, Ermənistan faktiki işğal altında saxladığı Azərbaycan anklavlarını qaytarmaqdan imtina edir.**



Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olduqdan sonra etdiyi çıxış zamanı Ermənistanla aparılan danışıqlar prosesinə də toxundu. Qeyd etdi ki, bu gün bizə qarşı aparılan çirkin kampaniyanın heç bir əhəmiyyəti yoxdur və olmayacaq: "Bizim iradəmizə heç kim təsir edə bilməz. Əgər Vətən müharibəsi dövründə bizim iradəmizə heç kim təsir edə bilmədisə, bu gün, təbii ki, heç kim təsir edə bilməz. Yenə də deyirəm, biz haqq-ədaləti tələb edirik. Bu gün Ermənistanla aparılan sülh danışıqlarının yekunlaşması həm bizə lazımdır, həm də daha çox Ermənistana lazımdır. Bu sülh anlaşması beynəlxalq hüququn norma və prinsipləri əsasında imzalanmalıdır. Bu sülh anlaşmasında postmüharibə reallıqları nəzərə alınmalıdır. Bu, təbiidir. Biz qalib gəlmişik, biz qan tökmüşük, şəhidlər vermişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz öz torpağımızda müharibə aparmışıq və bu gün öz torpağımızda yaşayırıq və yaşayacağıq".

*(ardı 4-cü səhifədə)*

## Laçın sərhəd-buraxılış məntəqəsi xarici diplomatların gözü ilə



**Azərbaycanda akkreditə olunmuş diplomatik korpus təmsilçilərinin üzvlərinin Laçına səfəri dağlar qoynundakı şəhərin füsunkar təbiətini və burada həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işlərini kətan üzərinə köçürən peşəkar gənc rəssamların əlüstü yaratdıqları rəsm əsərlərinin sərgisi ilə tanışlıqla başladı. Diplomatlara sərgi haqqında ətraflı məlumat verildi.**

Bildirildi ki, əsrarəngiz təbiəti, qədim tarixi abidələri, həmçinin bu şəhərdə qısa müddətdə aparılan nəhəng bərpa-quruculuq işləri Vətənini sevən hər bir rəssam üçün də ilham mənbəyinə çevrilib. Odur ki, ölkəmizi bir sıra beynəlxalq rəsm müsabiqələrində təmsil edən, dünyanın nüfuzlu rəssamlıq akademiyasını bitirmiş 50-dən çox rəssam qısa müddətdə Laçının gözoxşayan mənzərələrini kətan üzərinə köçürüb.

Diplomatlar rəssamların əsasən impressionizm janrında, yağlı boya ilə müxtəlif üslublarda çəkilmiş şəkillərinə maraqla baxdılar.

*(ardı 8-ci səhifədə)*

## Laçında 15 ailəyə evlər verilib



Səhifə ⇨ 4

## Ölkəmizdə yüksək gəlirli ev təsərrüfatlarının sayı artır

Səhifə ⇨ 7

# Sloveniya Respublikasının Prezidenti Zati-aliləri xanım Nataşa Pirts Musara

**Hörmətli xanım Prezident,**

Sloveniya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Sloveniya əlaqələrinin inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı faydalı əməkdaşlığımızın genişlənməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Sloveniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 iyun 2023-cü il**

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına “general-mayor” ali hərbi rütbəsinin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına “general-mayor” ali hərbi rütbəsi verilsin:

polkovnik Elmir Zülfüqar oğlu İbrahimova
polkovnik Arif Həsən oğlu Həsənova
polkovnik İslam Şixzadə oğlu Əmirağayevə
polkovnik Bilal İsmayıl oğlu Çompuzova
polkovnik İlqar Saab oğlu Qafarova.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2023-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı”nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899; 2021, № 5, maddə 443, № 6 (I kitab), maddə 584, № 9, maddə 984; 2022, № 1, maddə 21, № 3, maddə 224, № 5, maddə 468, № 8, maddə 882; 2023, № 3, maddə 353) ilə təsdiq edilmiş “Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 21-7-ci, 35-1-ci və 35-2-ci hissələr əlavə edilsin:

“21-7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində “Azərbaycan Standartlaşdırma İnstitutu”;

“35-1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində “Geoloji Kəşfiyyat Agentliyi”

35-2. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində “Geodeziya və Kartoqrafiya Agentliyi”;

1.2. 39-cu hissənin sonundan nöqtə işarəsi çıxarılsın və aşağıdakı məzmunda 40 – 47-ci hissələr əlavə edilsin:

“40. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində “Azərbaycan Respublikasının Kino Agentliyi”

41. Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi

42. Azərbaycan Elm Fondu

43. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində “Mərkəzi Nəbatat Bağı”

44. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində “Dendrologiya Bağı”

45. Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti

46. Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti

47. Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti.”.

**2.** Bu Fərman 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2023-cü il**

# “Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 30 aprel tarixli 560 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 30 aprel tarixli 560 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 512; 2007, № 9, maddə 871; 2008, № 9, maddə 797; 2010, № 6, maddə 501; 2020, № 3, maddə 305; 2022, № 5, maddə 539; 2023, № 3, maddə 389) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1** “Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini” abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

“Azərbaycan Respublikası energetika nazirinin müavini

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini”.

**2** “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri” abzası ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2023-cü il**

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

### “Azərbaycan Bayrağı” ordeni ilə

Hüseynov Münasib Asif oğlu – baş leytenant
Qocayev Aqil Bərşad oğlu – baş leytenant
Vəliyev Fərid Azər oğlu – baş leytenant
Usublu İslam Ələddin oğlu – baş gizir

### 3-cü dərəcəli “Rəşadət” ordeni ilə

Məmmədov Vüqar Zahid oğlu – mayor
Rzayev Orxan Ənvər oğlu – baş leytenant
Hüseynəliyev Elvin Fazil oğlu – leytenant

### 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə

Babaşov Nəsimi Məhərrəm oğlu – polkovnik
İsmayılov Füzuli Qəzənfər oğlu – polkovnik
Fərmanov Eldar Akif oğlu – mayor
Əhmədov Gülağa Əli oğlu – kapitan
Səlimov Fərhad Mehman oğlu – kapitan
Səmədli Səməd Bəxtiyar oğlu – leytenant
Süleymanov Cavid Fəhrad oğlu – gizir
Mollayev Elçin Zaur oğlu – kiçik çavuş
Doşanov Nurlan Arif oğlu – əsgər

### “Vətən uğrunda” medalı ilə

Əliyev Elçin Nəriman oğlu – ədliyyə polkovniki
Əmirov Mahmud Səməd oğlu – polkovnik
Abdullayev Azər Üzeir oğlu – polkovnik-leytenant
Ayvazov Sahib Sabir oğlu – polkovnik-leytenant
Babayev Saqi Elxan oğlu – polkovnik-leytenant
Hüseynov Bayram Habil oğlu – mayor
Abdullayev Ramazan Səfəralı oğlu – kapitan
Ağayev Gülməmməd Elşən oğlu – kapitan
Cavadlı Kamal Xaləddin oğlu – baş leytenant
Əkbərov Ceyhun İman oğlu – baş leytenant
Əlibəyli Şəhriyar Ramiz oğlu – baş leytenant (ölümündən sonra)
Əzimli Calal Səlim oğlu – baş leytenant
Hüseyinov Elvin Laçın oğlu – baş leytenant
Hüseynov Kamran Namiz oğlu – baş leytenant (ölümündən sonra)
Novruzov Musa Cəmşid oğlu – baş leytenant
Əliyev Babək Əsgər oğlu – leytenant (ölümündən sonra)
Məmmədov Əyyub Vəliəddin oğlu – leytenant
Vəlizadə İbrahim Səməd oğlu – leytenant (ölümündən sonra)
Cahangirov Tural Qələmhüseyn oğlu – kiçik leytenant
Həsənov Elşad Qabil oğlu – gizir (ölümündən sonra)
Məhərrəmov Vasif Üzeyir oğlu – gizir (ölümündən sonra)
Zalov Vidadi Nizami oğlu – gizir (ölümündən sonra)
Tağıyev Səbuhi Gündüz oğlu – çavuş (ölümündən sonra)
Cabbarov Marlen Zeynulla oğlu – kiçik çavuş
İsmayılov Nicat Bəhruz oğlu – kiçik çavuş
Ramazanov Elxan Elmaroviç – kiçik çavuş
Bayramov İlkin Bayram oğlu – əsgər (ölümündən sonra)
Cavadov Rəşad Fərzəli oğlu – əsgər (ölümündən sonra)
Həmzəyev Əfqan Bəhman oğlu – əsgər (ölümündən sonra)
Hüseynov Eşqin Cəmil oğlu – əsgər (ölümündən sonra)
Qədirli Elnur Rəcəb oğlu – əsgər (ölümündən sonra)
Mehdiyev Asim Yaqub oğlu – əsgər (ölümündən sonra)
Nəzərov Ayaz Azər oğlu – əsgər (ölümündən sonra)
Salamov Qorxmaz Bayram oğlu – əsgər (ölümündən sonra)

### “İgidliyə görə” medalı ilə

Cavadov Fəxrəddin Nizam oğlu – polkovnik
Hacıbalayev Rahib Süleyman oğlu – mayor
Həsənov Hüseyn Həsən oğlu – kapitan
İsgəndərov Səxavət Qazıbəy oğlu – kapitan
Allahverdiyev Əhliman Kamran oğlu – baş leytenant
Məmmədov Araz Şəmsəddin oğlu – baş leytenant
Məmmədzadə Taleh Səxavət oğlu – baş leytenant
Muradov Əbubəkir Məhərrəm oğlu – baş leytenant
Mirzəyev Davud Mehti oğlu – leytenant
Bəkirov Rafiq Səlim oğlu – kiçik leytenant
Ağayev Fərid Səid oğlu – baş gizir
Mustafayev Taryel Vəli oğlu – baş gizir
Abdullayev Elfaq Vəzir oğlu – gizir
Abıyev Hacağa Əli oğlu – gizir
Axundov Əbülfəz Nüsrət oğlu – gizir
Ədilov Əhsən Ağasimayıl oğlu – gizir
Novruzlu Mustafa Namiq oğlu – gizir
Əhmədov Xəzri Vaqif oğlu – kiçik çavuş
Hüseynov Rahib Rabil oğlu – kiçik çavuş
Abakarov Murad Rəşid oğlu – əsgər
Abdullayev Rövşən Fariz oğlu – əsgər
Hüseynov Xəyal Həsənağa oğlu – əsgər

### “Cəsur döyüşçü” medalı ilə

Əkbərov Aqil Fayəddin oğlu – mayor
Bünyatov İsmayıl Qəhraman oğlu – leytenant
Ağayev Elvin Bəylər oğlu – gizir
Bəşirli Sənan Nazim oğlu – gizir
Əhmədli Cavid Bağış oğlu – gizir
Əliyev Ceyhun Fazil oğlu – gizir
Gülmalıyev Loğman Bəxtiyar oğlu – gizir
Qəhrəmanov Rəşad Yaşar oğlu – gizir
Fərhadov İmran Həbib oğlu – çavuş
Həsənov Tural Qabil oğlu – çavuş
Alıyev Vüsal Yusif oğlu – kiçik çavuş
Əliyev Səbuhi Vahid oğlu – kiçik çavuş
Əlizadə Əli Rahib oğlu – kiçik çavuş
Nuri Nemət Şahbaz oğlu – kiçik çavuş
Rzayev Oruc Ənvər oğlu – kiçik çavuş
Zəkəryəyev Səyyad Ülfət oğlu – kiçik çavuş
Baloğlanov Orxan Mehman oğlu – əsgər
Həbibov Kamran Mütəllim oğlu – əsgər
İsayev Murad Mövlüd oğlu – əsgər
Yusifov Yusif Sübhi oğlu – əsgər

### “Döyüşdə fərqlənməyə görə” medalı ilə

Ağayev Babək Bəybala oğlu – mayor
Şükürov Vüqar Fikrət oğlu – mayor
Baxşalıyev Samir Vahid oğlu – kapitan
Qafarov Hilal Malik oğlu – kapitan
Bədəlov Aqşin Şahin oğlu – baş leytenant
Zöhrabov Namiq Əskər oğlu – baş leytenant
Kərimov Fazil Baxış oğlu – baş gizir
Məmmədov Səxavət Tərlan oğlu – baş gizir
Hüseynov Nəriman Məzahir oğlu – gizir
Nagıyev Elsevər Şahvələd oğlu – gizir
Zamanov Ərşad Müslüm oğlu – gizir
Əmənov Cəmşid Cəbrayıl oğlu – kiçik çavuş
Babayev Fəzail Atamoğlan oğlu – əsgər
Əhmədov Qismət Baləhməd oğlu – əsgər
Qasımov Afyəddin Hidayət oğlu – əsgər
Vəliyev Tuqay Nurəddin oğlu – əsgər
Zeynalov Eşqin Ehtibar oğlu – əsgər

### “Suqovuşanın azad olunmasına görə” medalı ilə

Salamov Qorxmaz Bayram oğlu – əsgər (ölümündən sonra)

### “Xocavəndin azad olunmasına görə” medalı ilə

Qədirli Elnur Rəcəb oğlu – əsgər (ölümündən sonra)
Mehdiyev Asim Yaqub oğlu – əsgər (ölümündən sonra)

### “Kəlbəcərin azad olunmasına görə” medalı ilə

Vəlizadə İbrahim Səməd oğlu – leytenant (ölümündən sonra)

### “Hərbi xidmətlərə görə” medalı ilə

Əhmədov Bahadır Allahverdi oğlu – tibb xidməti polkovniki
Həziyev Samir Mətləb oğlu – polkovnik
İsmayılov Arif Aslan oğlu – tibb xidməti polkovnik-leytenantı
Nəsibov İlqar Kamil oğlu – polkovnik-leytenant
Şükürlü Mətin Əliisa oğlu – polkovnik-leytenant
Rəhimov Hüseyn Ağasən oğlu – mayor
Hacıyev Hacı Firidun oğlu – baş leytenant
Müseyibov Rafiq Əzim oğlu – leytenant
Süleymanov Ülvi İldırım oğlu – leytenant
Süleymanov Nurlan Sabir oğlu – gizir
Şahverdiyev Seymur Cəmil oğlu – gizir
Yariyev Məhəddin Abdulla oğlu – gizir
Abdullayev İlyas Seyran oğlu – kiçik çavuş
Dibirov Ramazan Ramiloviç – kiçik çavuş
Səlimov Ramiz Mübariz oğlu – kiçik çavuş
Mustafayev Ramiz Bağman oğlu – əsgər (ölümündən sonra)
Ramazanov Ramazan Ramazan oğlu – əsgər
Şərifli Şərif Seymur oğlu – əsgər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2023-cü il**

# “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə”

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 324, № 10, maddə 849; 2008, № 7, maddə 612, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83, № 10, maddə 851; 2011, № 2, maddə 85; 2012, № 9, maddə 856; 2014, № 4, maddə 362; 2017, № 4, maddə 557, № 5, maddə 813; 2018, № 2, maddə 205; 2020, № 8, maddə 1036; 2021, № 8, maddə 920; 2022, № 8, maddə 869, № 12, maddə 1410; 2023, № 2, maddə 247) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında “aparatının işçilərinin say həddinin” sözləri “işçilərinin ümumi say tərkibinin” sözləri ilə əvəz edilsin;

1.2. 3-cü hissəyə “vahidi” sözündən sonra “, Bakı Şəhər Gənclər və İdman İdarəsi və regional idarələrin işçilərinin say həddi 435 ştat vahidi” sözləri əlavə edilsin;

1.3. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə” üzrə:

1.3.1. 8.23-cü yarımbənddə “kütləvi informasiya vasitələrində” sözləri “mediada” sözü ilə, “açıqlanmasını” sözü “təşviqini” sözü ilə əvəz edilsin;

1.3.2. 11-ci bəndin birinci cümləsində “aparatının işçilərinin say həddinin” sözləri “işçilərinin ümumi say tərkibinin” sözləri ilə əvəz edilsin;

1.4. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin strukturu”nun 2-ci hissəsində “Respublikasının” sözü “Respublikası Gənclər və İdman Nazirliyinin” sözləri ilə əvəz edilsin.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2023-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 540; 2013, № 12, maddə 1552; 2014, № 1, maddə 14; 2015, № 6, maddə 699; 2016, № 9, maddə 1487, № 10, maddə 1626; 2017, № 12 (I kitab), maddə 2333; 2018, № 7 (I kitab), maddə 1487; 2019, № 6, maddə 1031; 2020, № 2, maddə 97, № 6, maddə 702; 2022, № 7, maddə 742, № 8, maddə 871, № 11, maddə 1268; 2023, № 2, maddə 245, № 3, maddə 368; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 may tarixli 2132 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”nin 5.5-ci bəndinin birinci cümləsində “iki” sözü “bir” sözü ilə və “dörd” sözü “üç” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2023-cü il**




# Ordu Xalqa, Xalq Orduya dayaqdır

## Bu birlik müstəqilliyimizin qarantıdır

**Tarixi varislik ənənəsinə uyğun olaraq ümummilli lider Heydər Əliyevin Fərmanı ilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordunun yarandığı 26 iyun Azərbaycan Silahlı Qüvvələri Günü kimi bayram edilir. 105 il bundan əvvəl, o kəşməkəşli dönəmdə Milli Ordumuzun yaradılması prosesi həm də bir dövlət kimi müstəqilliyimizin tarixidir. Bu gün xalqın güvənc yerinə çevrilmiş Azərbaycan Ordusu həmişə və hər zaman millətin xidmətindədir. Ən çətin günündə mənsub olduğu xalqının yanında duran əsgərimiz başımızın tacıdır. Bunu əminliklə deyə bilərik ki, xalqın içindən çıxmış və onun yolunda hər an canını verməyə hazır olan Azərbaycan Ordusunun mənsubları ilə hamı qürur duyur.**

### Güc də bizim tərəfimizdədir, zaman da

Azərbaycanın XXI əsrdə ilk Zəfər paradını keçirən ölkədir. Həmin parad dövlətimizin gücünü, müzəffər ordumuzun qüdrətini təkcə işğalçı Ermənistana deyil, bütün dünyaya nümayiş etdirdi. Zəferimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonrakı iki il yeddi ay ərzində ordumuzu daha da gücləndirmişik. Əgər həmin müddət ərzində baş vermiş hadisələr ardıcıllıqla və hərtərəfli incələnərsə, onda Azərbaycan hakimiyyətinin atdığı hər bir addımın arxasında güclü siyasi iradənin və diplomatik məntiqin dayandığına əmin olarlar. Bəli, İrəvandan fərqli olaraq, Bakı zamanı fövtə vermədi.

"İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi daha geniş vüsət almışdır. Təbii ki, işğal dövründə ordu quruculuğu bizim üçün bir nömrəli vəzifə idi və ordumuzun, bütün Silahlı Qüvvələrimizin torpaqlarımızın azad olunması üçün hazırlıq işlərinə xüsusi önəm verilirdi və biz buna nail olduq. Vətən müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə yekunlaşmışdır". Bu sözləri Prezident, Ali Baş Komandan İlham Əliyev iyunun 23-də Müdafiə Nazirliyi komando qüvvələrin yeni hərbi hissəsinə döyüş bayrağının təqdim olunması tədbirindəki çıxışında söyləyib. Biz torpaqlarımızı yağıdan təmizləmək üçün qurtuluş savaşına çoxdan hazırlaşırdıq. Müharibəyə qədərki on yeddi il ərzində "görünmədən görmək, ölmədən dönmək" –şüarı altında aparılan təlimlərin məqsədi düşmən üzərində qələbənin mənəvi təməlini hazırlamaq olub. Müasir hərb sənətinin incəliklərini öyrədən, döyüş ruhunu yüksəldən həmin təlimlər mütləq öz bəhrəsini verməli idi. Döyüş meydanında düşməni diz çökdürən məhz həmin müasir və Müzəffər Azərbaycan Ordusu oldu. Amma unutmamalıyıq ki, düşmən məkrli və hiyləgərdir. Ona görə də dövlətimizin başçısının dediyi kimi, biz ehtiyatı əldən verməməli, ordu quruculuğunu daim inkişaf etdirməli və hər an döyüşə hazır olmalıyıq.

### Silahlı Qüvvələr yüksək dəyərlərlə tərbiyələnir

Prezident İlham Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji durumunun yüksək səviyyədə olmasıdır. Bu yöndə aparılan məqsədyönlü siyasətin nəticəsidir ki, hazırda Azərbaycan xalqı möhkəm nizam-intizamı, yüksək döyüş ruhu ilə seçilən, hər an düşmənə sarsıdıcı zərbələr vurmağa qadir ordusu ilə qürur duyur.

"Mən bunu artıq demişəm, bir daha demək istəyirəm, bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür". Cənab Prezidentin bu açıqlamasının arxasında konkret statistika, real mənzərə dayanır. Vətən müharibəsi başa çatdıqdan sonra Ali Baş Komandan ordunun Türkiyə (NATO) ordu modelinə keçməsi barədə bəyanat verdi və qısa müddətdə müxtəlif bölgələrdə yeni komando hissələri yaradılmağa başlandı. Türkiyədə tətbiq olunan komando briqada və birliklərin təcrübəsi Azərbaycanda tətbiq edildi. Bütün bunları Azərbaycanın düşmənləri də bilir və görür. Fəqət bunları hamıdan yaxşı bilən Ermənistan yenə ordumuza, sərhədimizə qarşı təxribatlar törədir. Silahlı Qüvvələrimiz hər bir təxribata layiqli cavab verir. Bu cavab ona, eyni zamanda, iki cəbhədə verilir. Yəni, həm hərbi, həm də siyasi müstəvidə. Hazırda Azərbaycan özünün müstəqil siyasətini yürüdən, ən mötəbər beynəlxalq tribunalardan sözünü deyən suveren ölkələrdən biridir və heç kimdən asılı deyil. Yəni, ölkəmiz sadəcə kağız üzərində deyil, sözün həqiqi mənasında müstəqil dövlətdir. Bu haqqı və nüfuzu qazandıran, birinci növbədə, Azərbaycanın hərbi qüdrəti və potensialıdır.

Bütün sahələrdə belədir. Əldə etməyə can atılan uğur yeniliyin, islahatların nəticəsində hasil olur. İlham Əliyev Prezident seçiləndən sonra ölkənin hərbi xərcləri 24 dəfə artıb. Dövlətimizin başçısı proqram xarakterli çıxışlarında dəfələrlə bəyan edib ki, Azərbaycanın qarşısında illik hərbi büdcəni artıraraq Ermənistanın ümumi dövlət büdcəsini keçmək vəzifəsi durur. Ölkənin tam hazırlıqlı, müasir silahlar və döyüş vasitələri ilə təchiz olunan ordusunun yaradılması, eləcə də onun saxlanması böyük vəsait tələb edir. Dediyimiz hədəfə Azərbaycan özünün sürətli iqtisadi inkişafı sayəsində çatdı. Dövlət büdcəsindən Silahlı Qüvvələrə ayrılan vəsaiti ildən-ilə artır. Keçən ilin dövlət büdcəsindən hərbi və təhlükəsizlik sahəsinə ayrılan vəsaitin həcmi müstəqillik dövründə rekord həddə – 4 milyard 489 milyon 892 min 429 manata çatdı.

### Müstəqillik dövrünün ən böyük uğuru

44 gün davam edən Vətən müharibəsi bütün dünyaya Azərbaycan dövlətinin qüdrətini, Ordusunun nəyə qadir olduğunu nümayiş etdirdi. Rəsmi İrəvanın öz ordusu barədə yaratdığı "məğlubedilməzlik" təsəvvürü yerlə-yeksan edildi. Zəfərin əldə edilməsində Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin qəhrəmanlığını, əlahiddə rolunu qeyd etməliyik. Təbii olaraq bu amil digər qoşun növlərində də xüsusi təyinatlıların sayının artırılması zərurətini yaradırdı. Bu istiqamətdə məqsədyönlü addımlar atıldı, Müdafiə Nazirliyinin dəniz piyadalarının, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidmətinin xüsusi təyinatlı qüvvələrinin sayı dəfələrlə artırıldı. 23 iyun tədbirindəki çıxışında İkinci Qarabağ müharibəsindən sonra bölgədə gündəliyi müəyyən edən tərəfin məhz Azərbaycan olduğunu xüsusi qeyd edən Prezident İlham Əliyev hazırda qarşımızda duran prioritetləri açıqlayıb: "Biz əlavə vəsait əldə edən kimi büdcənin artırılmasına yeni, böyük məbləğdə vəsait ayırdıq və burada iki əsas istiqamət müəyyən edilmişdir. Birincisi, Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi, ikincisi, hərbi potensialımızın gücləndirilməsi. Yəni, təkcə bu fakt özlüyündə onu göstərir ki, bizim üçün bu gün prioritet məsələlərdən biri ordu quruculuğu, digəri isə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir". Müstəqillik dövrünün ən böyük uğuru Zəfərimizdir, -desək, yanılmarıq. 1918-ci ildə Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bəli, biz tarixi qələbəmizlə reallığı dəyişməyi bacardıq və indi reallıq özü tarixə çevrilməkdədir. Dədə Qorquddan gəlmə zərb-məsəlimizdə deyildiyi kimi, əgər torpağı əkib-becərmədinsə, onu qorumağa dəyməz, qorumadınsa, əkib-becərməyə dəyməz. Otuz illik ayrılıqdan sonra doğma torpaqlarına qayıdan insanlarımız onu sevgi və şövqlə yenidən əkib becərməyə başlayıblar. Həmin əkinçilərimizin keşiyini igid əsgərlərimiz çəkir. Bəli, xalq və ordunun vəhdətindən yaranan güc-qüdrət istənilən düşmənin dizini yerə gətirməyə qadirdir, necə ki iki il yeddi ay bundan əvvəl bu həqiqəti təsdiqlədik".

105 il bundan əvvəl çox böyük çətinliklə ilk Milli Ordumuzu quranların ruhu həm də ona görə şaddır ki, bu gün Türkiyə və Azərbaycanın ulduzlu–ayparalı bayraqları hər yerdə yanaşıdır. Bu gün ən yüksək zirvəyə layiq bir ordunun və xalqın bayramıdır!

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

# Biz regionda ədaləti, tarixi həqiqəti bərpa etmişik

## Bu prosesdə Azərbaycan Ordusunun rolu şəksizdir

**(əvvəli 1-ci səhifədə)**

Elə özümüz də az faktın şahidi deyilik. Yaxın qonşularımızda və uzaq ölkələrdə gedən ictimai-siyasi proseslərdəki qərəzləri, işğalçı, terrorçu, qarətçi, bəşəri dəyərlərin düşməni, bütün qonşularına qarşı ərazi iddialarından əl çəkməyən Ermənistanın himayə edilməsini görəndə və kapitulyant ölkədən gələn revanş təhdidlərini eşidəndə Azərbaycan Prezidentinin 2020-ci il sentyabrın 24-də BMT tribunasından səsləndirdiyi həyəcanlı ifadələr yada düşür: "Ermənistan dünya üçün təhlükədir: İrəvan yeni müharibəyə hazırlaşır".



Doğrudur, Azərbaycan Ordusu 44 günlük İkinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələrinə sözün həqiqi mənasında, sarsıdıcı zərbələr vurmuşdu. Ona görə ekspertlər yazırdılar ki, işğalçılar daha 20-25 il müharibə haqqında danışa bilməzlər. Ancaq islamofobiyadan əziyyət çəkənlər, türk düşmənləri və regionun iqtisadi imkanlarından gözünü çəkə bilməyən siyasi dairələr Ermənistanı sürətlə silahlandırırlar. Həm də "mütərəqqi bəşəriyyət"in gözü qarşısında. Bu səbəbdən cənab Prezidentin İkinci Qarabağ müharibəsindən bir neçə gün əvvəl səsləndirdiyi " Ermənistan dünya üçün təhlükədir" - xəbərdarlığı bu gün daha çox aktualdır. İrəvan, sözün həqiqi mənasında yeni müharibəyə hazırlaşır. Yəni, yuxarıda sadaladığımız ünvanlar – İran, Fransa və Rusiyadakı bəzi siyasi dairələr ilk mərhələdə Cənubi Qafqaza sülhün gəlməsinə mane olmaq, perspektivdə isə haqqın-ədalətin bərqərar edilməsini əngəlləmək məqsədi güdürlər.

Bu zaman biz qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2020-ci il dekabrın 10-da Bakıda keçirilmiş Zəfər paradında səsləndirdiyi çağırışların nə qədər uzaqgörənliklə dilə gətirildiyinin şahidi oluruq. Cənab Ərdoğan həmin nitqində demişdi ki, Qarabağda müharibə bitdi. Ancaq mübarizə hələ qabaqdadır. O zaman şəxsən bu sətirlərin müəllifi də elə bilmişdi ki, söhbət işğaldan azad edilmiş ərazilərin bərpasından gedir. Sonra isə zaman sübut etdi ki, cənab Ərdoğan dünyadakı anti–Türk, anti–Azərbaycan qüvvələrin Ermənistanı sakit oturmağa qoymayacağını nəzərdə tuturmuş. İndi Ermənistan, həqiqətən, öz yerində sakit otura bilmir. Bu ölkənin siyasətçiləri gah Kremldən gələn təlimatlar əsasında işləyir, gah Parisin tapşırıqlarını yerinə yetirir, gah da Tehranın dedikləri ilə oturub-dururlar. Bir tərəfdən də Hindistan 20-30 il anbarlarda qalmış silahlarını sırımaq üçün İrəvanın timsalında münasib "tərəfdaş" tapmışdır.

Bütün bunları nəzərə alan Prezident İlham Əliyev bu il yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibədə demişdi ki, bizim xarici siyasətimizin əsas istiqaməti və məqsədi beynəlxalq müstəvidə ölkəmiz üçün daha münbit şərait yaratmaqdır ki, ölkə daxilindəki proseslər müsbət məcrada davam etsin: "Uzun illər Azərbaycanda, ölkə daxilində hər hansı bir risklər, təhdidlər yoxdur. Mümkün olan bütün risklər, təhdidlər hüdudlarımızın kənarında formalaşır. Özümüzü bu təhdidlərdən qorumaq üçün əlbəttə ki, xarici siyasət, o cümlədən hərbi siyasət öz rolunu oynamalıdır... Çünki erməni təbliğatı uzun illər bizə qarşı çalışırdı, işləyirdi və münaqişə ilə bağlı təhrifedilmiş fərziyə artıq oturuşmuşdu. Bunu sındırmaq, dağıtmaq o qədər də asan məsələ deyildi. İllər keçdikcə biz gördük ki, öz siyasətimizlə daha böyük rəğbət qazanırıq. Həm Qarabağ məsələsində haqlı olmağımız artıq dünyanın aparıcı qüvvələri tərəfindən qəbul edildi, eyni zamanda, tərəfdaşlıqda - həm ikitərəfli, həm çoxtərəfli tərəfdaşlıqda gördülər ki, biz özümüzü ləyaqətlə aparırıq, verdiyimiz sözə əməl edirik və bizə qarşı hörmət də artdı, rəğbət də artdı".

Yeri gəlmişkən, bir məqamı xüsusilə xatırlatmaq zərurəti var. Belə ki, dövlət başçımız bu il mayın 19-da Hindistanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhananın etimadnaməsini qəbul edərkən hind diplomata xatırlatmışdır ki, bu gün Ermənistanda revanşist qüvvələr baş qaldırmaqdadır, ölkəmizə qarşı ərazi iddiaları davam edir. Ermənistanın sürətlə silahlanmasının yeni təhlükələr yaratdığını deyən dövlətimizin başçısı qeyd etmişdir ki, əgər doğrudan da Ermənistan Azərbaycan ilə sülh istəyirsə, onda nə üçün 100 milyonlarla dollar dəyərində silah alır. Azərbaycan Prezidenti vurğuladı ki, bu siyasət bölgə üçün yeni təhdidlərə gətirib çıxara bilər.

Amma kimin nə etməsindən, hansı məkrli planları hazırlamasından və ya sönməkdə olan münaqişələri körükləməsindən asılı olmayaraq, Azərbaycan öz məqsədlərinə doğru inamla gedir və bundan sonra da gedəcəkdir. İnanırıq ki, dövlət başçımızın "Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi açılacaq" və ya, "Biz yeni silahlar almaq üçün növbəti kontraktlar imzalamışıq. Nə qədər lazımdırsa, o qədər də alacağıq" – kimi ifadələrini Ermənistanda eşitməyən qalmayıb. Əgər onlar bu açıq və birmənalı xəbərdarlıqlardan sonra da haqq-ədalətə doğru addım atmasalar... onda Azərbaycanın özünəməxsus təcrübəsi var.

Hər halda, biz öz regionumzda öz gücümüzlə ədalətin bərpasına – otuz il düşmən əsarətində qalan, qarət və talan edilən ərazilərimizin işğaldan azad edilməsinə nail olmuşuq. Halbuki beynəlxaq təşkilatlar on illər idi ki, bu məsələni həll edə bilmirdilər. Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi BMT tribunasından səsləndirdiyi fikirlər sübut edir ki, rəsmi Bakı dünya miqyasında da ədalətin bərpasına özünəməxsus töhfələr verməkdədir.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Büdcəyə əlavələrdə Silahlı Qüvvələrin artan xərcləri önəmli yer tutur



**Hərbi sahədə potensialın inkişaf etdirilməsi, elmi və praktiki biliklərə nail olunması, təcrübə mübadiləsinin genişləndirilməsi istiqamətində görülən işlər daim Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət mərkəzindədir: "İlk növbədə, ona görə ki, müharibə zamanı biz bir çox silah-sursatdan istifadə etdik, onları bərpa etmək lazımdır. Eyni zamanda, müasir texnikanın bundan sonra da alınması nəzərdə tutulur. Biz Qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma heç kim təminat verə bilməz ki, bir neçə ildən sonra erməni faşizmi yenə baş qaldırmayacaq. Ona görə Azərbaycan dövləti həmişə güclü olmalıdır. Azərbaycan dövlətinin həmişə güclü ordusu olmalıdır".**

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov büdcədən hərbi xərclərin artırılması və yeni hərbi hissələrin yaradılması ilə bağlı dedi:**

– "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanununda dəyişiklik edilməklə ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da artırılması üçün dövlət büdcəsindən əlavə vəsait ayrılıb. Konkret olaraq, qanuna əlavələrdə nəzərdə tutulub ki, ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da artırılması üçün 1 milyard 105 milyon manat, o cümlədən xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər üçün 1 milyard manat əlavə vəsait ayrılıb. Artımdan sonra xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər 2 milyard 70 milyon manat təşkil edəcəkdir.

Hərbi xərclərin artırılması Azərbaycan üçün yeni hadisə deyil. Son illər orduya vəsait davamlı olaraq artırılıb. Bunun əsas səbəbi Ermənistanın işğalçılıq siyasətini həmin illər ərzində davam etdirməsi idi. Ümumiyyətlə, hər bir ölkənin müdafiəsinin gücləndirilməsi, Silahlı Qüvvələrin ən müasir silah-sursatla təmin olunması, hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi prioritet vəzifədir. Azərbaycan hər an düşmənin gözlənilən təxribatlarına hazır olmalıdır. Bu baxımdan hərbi xərclərin artırılması əsas vəzifələrdən biri olmalıdır.

**Cənubi Qafqaz ölkələri arasında dövlət büdcəsində hərbi xərclərin həcminə görə, Azərbaycanın birinci yerdə olduğuna diqqət şəkən Milli Məclisin komitə sədri Ordumuzun bu gün nəinki bölgədə, dünya miqyasında on güclü ordu sırasında yer aldığını bildirdi:**

– Prezident, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqəti sayəsində son illərdə ordu quruculuğunda əsaslı islahatlar həyata keçirilib. Dövlətimizin başçısının göstərişinə əsasən, ölkə ərazisində yerləşən hərbi hissələrdə tikinti və yenidənqurma işləri son illər sürətlə davam etdirilir. İşğaldan azad edilən digər ərazilərdə əlavə təhlükəsizlik və müdafiə qüvvələri yerləşdirilir. Bundan ötrü dövlət büdcəsində əvvəlki illə müqayisədə daha çox vəsait tələb olunur. Cəbhəboyu zonalarda yaradılan hərbi şəhərciklərə də xüsusi diqqət ayrılır, hərbi obyektlərdə ən müasir qurğular quraşdırılır. Hazırda istər ordunun peşəkarlığı, istərsə də hərbi qulluqçuların vətənpərvərlik ruhu yüksək səviyyədədir. Eyni zamanda, ordunun texniki təchizatında da genişmiqyaslı dəyişikliklər baş verir - ən müasir silah sistemləri alınır.

Bu gün Silahlı Qüvvələr Günüdür. Hər bir soydaşımız yenilməz ordumuzla qürur duyur. Ulu öndər Heydər Əliyevin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanılır. Məhz Prezident İlham Əliyevin bu ali diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrilib.

**Z.Əsgərov, həmçinin dövlət-xalq-ordu birliyinin düşmən üzərində qazanılmış qələbənin təməlində dayandığını xüsusi olaraq vurğuladı:** Qeyd etdi ki, "Ordumuzun müasirləşdirilməsi, döyüş potensialı və peşəkarlığı daim diqqət mərkəzindədir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrimizin fədakarlığını yüksək qiymətləndirərək deyib: "Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi".

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

# Vaxt Bakının xeyrinə işləyir

## İrəvan sülh danışıqlarını uzatmaqla özünü çox şeydən məhrum edir

(əvvəli 1-ci səhifədə)

Həqiqətən də, bu gün sülh danışıqlarının başa çatması və müqavilənin imzalanması daha çox Ermənistana lazımdır. Bu ölkənin əvvəlki hakim zümrələri – Robert Koçaryan, Serj Sarkisyan rejimləri



Azərbaycanla münaqişənin qızışdırılması üzərindən iqtidara gəliblər. Onlar erməni xalqını 20 ildən artıq qorxu mühitində, faktiki olaraq əsarətdə saxlayıblar. Qarabağ məsələsindən istifadə edərək var-dövlət toplayıb, sərvətlərini artırıblar. Erməni xalqı isə bu illər ərzində əzab-əziyyət içində yaşayıb. Nikol Paşinyan 2018-ci ilin mayında hakimiyyətə gəldikdən sonra sülh yolu ilə nizamlanmaya ümidlər yaranmışdı. Həmin ilin mayında ordumuzun keçirdiyi uğurlu Günnüt əməliyyatı Paşinyana Azərbaycanın öz torpaqlarını işğaldan azad edə biləcəyinin siqnalı olmalı idi. Ancaq Nikol Vovayeviç başqa yol tutdu. 2019-cu ilin avqustunda işğal altındakı Xankəndi şəhərinə qanunsuz səfəri zamanı “Qarabağ Ermənistandır və nöqtə” sözlərini işlətdi. Bu sözü həmin ilin sentyabrında Qarakilsə (ermənilər Vanadzor deyir-S.H.) şəhərində keçirdiyi mətbuat konfransında da təkrarladı. Bütün bunların nəticəsi göz önündədir: Ermənistanın təhriki ilə başlayan İkinci Qarabağ müharibəsi onun biabırçı məğlubiyyəti ilə yekunlaşdı. “Qarabağ Ermənistandır və nöqtə” deyənlər bu gün cənab İlham Əliyevin “Qarabağ Azərbaycandır!” sözünü təkrarlayırlar. Ancaq nədənsə bunu kağız üzərində imzalamaqdan yayınırlar. Dövlətimizin başçısı iyunun 23-də bu barədə dedi: “Bizim şərtlərimiz bundan ibarətdir. Ermənistan keçən ilin oktyabr ayında rəsmən Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Mən dedim ki, bu sözlər kifayət deyil, daha dəqiq sözlər deyilməlidir və keçən ay artıq bir daha rəsmən nəinki ərazi bütövlüyümüz Ermənistan tərəfindən tanınıb, hətta Azərbaycan ərazisinin parametrləri də qeyd olunub. Yəni, bu, müsbətə doğru atılan bir addımdır. Ancaq bundan sonra həmin bu ifadələr kağız üzərində də olmalıdır və Ermənistan buna imza atmalıdır. Belə olan halda Cənubi Qafqazda uzunmüddətli sülh yarana bilər. Əks-təqdirdə, sülh olmayacaq”.

*

Sülh müqaviləsinin imzalanması, təxribatlara son qoyulması ona görə daha çox Ermənistana lazımdır ki, bu gün Azərbaycan güclü, qalib tərəfdir. Onun mövqeyi bir çox məsələlərdə əsasdır. Ölkəmiz şanlı Zəfərini siyasi və diplomatik müstəvidə daha da möhkəmləndirərək bu gün bölgədə söz sahibidir. Bütün strateji yüksəkliklər bizdədir. Bu gün Qarabağda erməni azlığın yaşadığı ərazidə bölgədə istənilən əməliyyatı keçirmək üçün hər cür imkanımız var. Hərbçilərimiz Azərbaycan bayrağını istədiyimiz yaşayış məntəqəsində ucalda bilərlər. Odur ki, bu məsələ nə qədər tez həll olunsa, bir o qədər yaxşıdır. Bu məqamda Prezident İlham Əliyevin mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüş zamanı səsləndirdiyi fikirlərdən iqtibas gətirmək yerinə düşər: “İndi isə artıq Ermənistan bizim ərazi bütövlüyümüzü tanıdıqdan sonra faktiki olaraq sülh müqaviləsi üçün hər hansı bir ciddi maneə qalmayıb. Əminəm ki, yaxın gələcəkdə, – əgər yenə də Ermənistan saxtakarlıq etməsə və yenə də öz mövqeyini dəyişməsə – sülh müqaviləsi imzalana bilər. İmzalansa, çox yaxşı, imzalanmasa da, hər halda Azərbaycan dövləti buna görə heç bir problemlə üzləşə bilməz. Çünki güclü tərəf bizik, danışıqlar masasında güclü mövqeyə sahib olan bizik, sərhəddə güclü mövqelərə sahib olan bizik. Sülh müqaviləsi imzalanmasa da, biz rahat və təhlükəsizlik şəraitində yaşayacağıq”.

Bundan əlavə, İrəvan Azərbaycanla, eləcə də Türkiyə ilə münasibətlərin qurulmasının yaradacağı üstünlüklərdən faydalanacaq. Bu isə Zəngəzur dəhlizinin açılması ilə mümkün olacaq. Ancaq İrəvan bundan da yayınır. Bizim irəli sürdüyümüz şərtlərdən biri Zəngəzur dəhlizinin açılmasıdır. Bu da bizim haqlı tələbimizdir. Nəzərə almaq lazımdır ki, Ermənistan 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktında bu öhdəliyi öz üzərinə götürüb. Ancaq bu günə qədər bu öhdəlik yerinə yetirilməyib. Digər şərtimiz odur ki, Ermənistan ordusunun silahlı birləşmələri Qarabağ bölgəsindən çıxarılmalıdır. Bu da Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən biridir. Ancaq o da icra edilmir.

*

Biz rəsmi İrəvandan məsələlərə konstruktiv yanaşma gözlədiyimiz halda, onlar yeni-yeni iddialar qaldırır, hansısa qüvvələrə arxalanmaqla prosesi pozmağa çalışırlar. Ermənistan xarici işlər nazirliyinin iyunun 24-də yaydığı geniş bəyanat da bunun göstəricisidir. Bəyanatda qeyd olunur ki, yaranmış vəziyyətdən ən yaxşı çıxış yolu Bakı ilə Xankəndi arasında beynəlxalq vasitəçilərinin iştirakı ilə birbaşa və substantiv danışıqlar aparılmasıdır. Bundan əlavə, qarşı tərəf ölkəmizi düşmənçiliyi və nifrət ritorikasını davam etdirməkdə suçlayır. Qeyd olunur ki, Azərbaycanın həm Ermənistanın suveren ərazisinə, həm də Qarabağ ermənilərinə güc tətbiq etmə hədəsi və təxribatları (?) Cənubi Qafqazda sülhə nail olmağa imkan vermir. Üstəlik, bəyan edilir ki, Azərbaycanın hərəkətləri nəinki Xankəndi ilə konstruktiv dialoq vasitəsilə bir sıra mövcud problemlərin həllinə yönəlməyib, əksinə, ardıcıl olaraq Qarabağda etnik təmizləməyə (?) gətirib çıxarır. Belə yerdə adamın əli üzündə qalır və “adımı sənə qoyum, səni yana-yana qoyum” el məsəli yada düşür. XX əsrdə azərbaycanlıları bir neçə dəfə etnik təmizləməyə, soyqırımlarına məruz qoyan hayların yaydığı bu bəyanata heyrətlənməmək olmur.

Hayların xarici siyasət idarəsinin yaydığı bəyanata Azərbaycan Xarici İşlər Nazirliyinin cavabı özünü çox gözlətməyib. XİN bildirib ki, ərazilərimizi 30 ilə yaxın işğal altında saxlayan, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirən, öhdəliklərinə zidd olaraq erməni silahlı qüvvələrini Azərbaycan ərazilərindən hələ də tam olaraq çıxarmayan, sülh təkliflərinə uzun müddət laqeyd yanaşan və bir sıra əsassız iddiaları ilə hazırda prosesə maneçilik törədən Ermənistanın Azərbaycanı nifrət və düşmənçilikdə təqsirləndirməsini qətiyyətlə pisləyir. O da qeyd olunur ki, Ermənistan tərəfinin təxribatından sonra Azərbaycanın həyata keçirdiyi təhlükəsizlik və istintaq tədbirləri ilə əlaqədar Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin fəaliyyətinin müvəqqəti olaraq məhdudlaşdırılmasının “blokada və etnik təmizləmə” kimi təqdim edilməsi Ermənistanın saxta təbliğatının tərkib hissəsidir.

Bəli, rəsmi İrəvan danışıqlar prosesini pozur. Bölgəmizdə sülhün əldə olunmasını istəməyən müxtəlif kənar qüvvələrin təhriki ilə danışıqlarda qeyri-sağlam mövqe tutur. Ancaq atalarımız “ilan ulduz görməsə, ölməz” deyiblər. İndiki halda bu ifadəni bir qədər dəyişməyə ehtiyac duyulur. Necə deyərlər, haylar “dəmir yumruq” görməsə, düzəlməz.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

### *Ekspert rəyi*



**Zaur MƏMMƏDOV, politoloq**

– Ermənistan üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir. O cümlədən sərhəddə yeni qarşıdurmanın baş verməsindən çəkinirsə, o zaman sülh sazişini imzalamalıdır. Çünki yalnız bu saziş əsasında tərəflər bir-birinin ərazi bütövlüyünü tanıyacaq. Onların sülhə etinasız yanaşması deməyə əsas verir ki, İrəvan sərhəddə yeni qarşıdurma istəyir. Bu gün Azərbaycanla Ermənistan arasında danışıqlar prosesi ləng gedir. Çünki Ermənistan sülh müqaviləsinin mətni ilə bağlı qeyri-məqbul ifadələr işlədir, vaxtı uzatmağa çalışır. Halbuki Azərbaycan tərəfi həm sülh müqaviləsi, həm də Zəngəzur dəhlizi ilə bağlı qəti mövqeyini ortaya qoyub. Yaxşı olar ki, İrəvan danışıqlar prosesində əsassız məsələlər qaldırmaqdansa, ortaya siyasi iradə qoyub bölgədə sülhün əldə olunmasına çalışsın. Çünki bundan yararlanan, ilk növbədə, İrəvan özü olacaq.

# Erməni illüzionizminə Zaxarovadan dəstək

## Üçtərəfli bəyanatı pozan kimdir: Azərbaycan, yoxsa Ermənistan?

**Dəfələrlə bildirmişik ki, dünyanın müxtəlif qüvvələri ermənipərəst mövqe tutanda, Ermənistan hakimiyyəti reallıqlardan uzaqlaşır və illüziyalara qapılır. Nəticədə destruktiv mövqe tutur ki, bu da elə sülh təşəbbüslərinə ziyan vurur.**

Nəzərə alsaq ki, Fransa Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi prosesindən kənardır, Parisin erməni avantürizminə impuls verməsini, müəyyən mənada başa düşmək mümkündür. Bəs, Rusiya? Axı ölkə mövcud nizamlamada yer alır və çalışır ki, aktivlik göstərsin. Buna nə dərəcədə nail olur, onu deyə bilmərik. Fakt budur ki, Kremlin cəhdləri var.

Ancaq onu da görürük ki, hazırda Moskva, necə deyərlər, öz oturduğu budağı kəsməklə məşğuldur. Yəni, o da Fransa kimi, Ermənistan hakimiyyətinin ocağına odun qoymaq yolunu tutur. O Ermənistanın ki, Rusiyanın tənzimləməşı, həm də rus sülhməramlı kontingentinin hərbçilərinin atəşə tutulmasına görə qapadılıb. Bakının mövqeyi qətidir: “Baş vermiş insident üzrə təqsirkar müəyyənləşdirilməyənədək, sərhəd bağlı qalacaqdır.” Burada haqsız heç nə yoxdur. Ancaq biz gördük ki, İrəvan insident səbəbindən Moskvanı haqsız çıxartmaq istədi. Rusiyanın Ermənistandakı səfiri XİN-ə çağırıldı və ona rəsmi etiraz bildirildi.

Bəli, indiki durumda Zaxarova tam haqsızdır. Birincisi, Rusiyanın məlum sərhəd hadisəsini araşdırmaq niyyətindən bəhs etmir, birtəfəli mövqe tutur. İkincisi isə həmin üçtərəfli bəyanata məhəl qoymayanın, böyük hesabla Ermənistan



missiyasını heçə endirmək üçün dəridən-qabıqdan çıxdığı aşkardır. Konkret olaraq desək, erməni ocağına odun qoyan isə Rusiyanın Xarici İşlər Nazirliyidir, XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarovadır. Xanım sözçü bir neçə gün əvvəl bildirib ki, bəs, Azərbaycan tərəfinin Laçın dəhlizinə girişi bağlaması, guya Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatının müddəalarının pozulmasıdır.

Əlbəttə, Zaxarovanın qeyri-obyektiv fikirlərlə gündəmə və qınağa tuş gəlməsi ilk dəfə deyil ki, baş verir. Belə ermənipərəst düşüncələrdən sonra təşəkkür əvəzi Ermənistanın Rusiyanı qınamaq üçün təzə nələrisə tapması da çox olub. Yəni, son dövrlər İrəvanda heç kəs Moskvanın rəsmi təmsilçilərinə ermənipərəstliyə görə medal verməyib. Deməli, xanım Zaxarovanın, belə demək mümkünsə, siyasi şirinliyinə ehtiyac yoxdur.

Ancaq onun vəziyyəti düzgün qiymətləndirməsi şərtdir. Yuxarıda vurğuladığımız məqama görə. Həm də o səbəbdən ki, erməni dəyirmanına su tökən açıqlamalar, sonradan Rusiyanın da maraqlı olduğu Cənubi Qafqaz regionunda yeni reallıqlar formalaşdırmaq cəhdlərini doğurur ki, bir qayda olaraq, bu siyasi düzən düşüncəsində Rusiya üçün yerin nəzərdə tutulmadığı faktdır. Ermənistan hakimiyyəti Rusiya rəsmilərinin onlara ötürdükləri pası dəyərləndirmək yerinə, bunun yaratdığı üstünlüyü Qərb platformasına daşımaqla məşğuldur.

Daha bir məqam isə Zaxarovanın Laçın yolundakı şərti sərhəddə nəzarət-buraxılış məntəqəsinin bağlanmasını zəruriləşdirən cəhətləri saya salmamasıdır. Axı məntəqə Azərbaycan əsgəri ilə yanaolduğuna diqqət yetirmir. Hər halda atəş qarşı tərəfdən açılmışdı...

Digər tərəfdən, Rusiya XİN-in rəsmisi deyə bilərdi ki, Qarabağdakı qanunsuz erməni hərbi birləşmələrinin mövcudluğu Kremlin üstündə əsdiyi üçtərəfli bəyanata ziddir. Necə də desin? Axı Rusiya sülhməramlıları həmin dəstələrə silah-sursat daşınması prosesini müşayiət ediblər. Yəqin, indi bunun qarşısı kəsildiyindən, Zaxarova Bakını pozuculuqda ittiham edir. Başqa nə düşünək?

Hərçənd, onu da düşünə bilərik ki, Rusiya əlindən çıxardığı Ermənistana yenə də yarınmaq istəyir və buna görə də Zaxarovanın timsalında İrəvanın illüziyasına qol-qanad vermək yolunu tutur. Axı Moskvanın erməni sevdası bitib-tükənməzdir. Kreml dairələri onlardan uzaqlaşan “Ermənistan qatarı”nın yenidən geri dönəcəyini səbirsizliklə gözləyəcək qədər miskin və aciz duruma düşməkdən zövq alırlar. Çox güman ki, xatirələrdə yaşamağı xoşlayırlar...

Sonda onu da bildirək ki, Laçın yolu boyunca hərəkəti tamamilə açmağa çağıran M.Zaxarova, həmçinin tərəfləri üçtərəfli sazişlərə ən yüksək səviyyədə ciddi əməl etməyə, Laçın yolunda təhlükəsizliyin təminatında təmkini qorumağa və məsuliyyətli olmağa çağırıb. Göründüyü kimi, xanım XİN sözçüsü açıqlamasında Rusiyanın hər iki ölkə arasında, guya, paritet saxlamaq taktikasına sadiq qaldığını da göstərmək istəyir. Onun sözucu da olsa, Azərbaycana və Ermənistana birlikdə səslənməsi bunun göstəricisidir. Əlbəttə, bu, heç bir halda erməni təəssübkeşliyini pərdələyə bilməz.

***Ə.RÜSTƏMOV, “Xalq qəzeti”***

# Laçında 15 ailəyə evlər verilib



**Laçına çatan növbəti 15 ailəyə Azərbaycan dövləti tərəfindən əsaslı təmir olunan evlərinin açarları təqdim edilib.**

Məcburi köçkünlük dövründə Bakı şəhərinin Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksində məskunlaşan Laçın sakinləri indi öz doğma yurd yerlərində yeni, geniş və komfortlu evlərində yaşayacaqlar.

Daha da gözəlləşən və abadlaşan Laçın şəhər sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla xatırlayıblar.

# Müdafiə naziri Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edib

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, təbrikdə deyilir: “Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Sizi 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, Azərbaycan Respublikasının müdafiəsinin güclənməsi naminə müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Müstəqilliyi əbədi, dönməz olan Azərbaycan dövləti regionda möhkəm və davamlı sülhün, sabitliyin bərqərar edilməsində, qorunmasında mühüm rol oynayır.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə əsası qoyulmuş Milli Ordu quruculuğu müstəqilliyini yenidən qazanan ölkəmizdə tarixi varislik prinsipi əsasında müasir mərhələyə qədəm qoydu. 1918-ci il iyunun 26-da yaradılan Əlahiddə Azərbaycan Korpusu Cümhuriyyət Ordusunun hüquqi bazasını təşkil etmişdi.

Hərb tariximizin şanlı səhifəsi sayılan, bu gün 105 illiyini böyük qürur və iftixar hissi ilə qeyd etdiyimiz Azərbaycan Ordusunda vahid komandanlığın yaradılması, ordumuzun nizami ordu kimi formalaşması və hərbi quruculuq məsələlərinin prioritet məsələ kimi irəli sürülməsi xalqımızın Ümummilli lideri Heydər Əliyevin bu istiqamətdə atdığı cəsarətli addımlarının nəticəsidir.

Ulu öndərin siyasi kursunu ordu quruculuğu sahəsində uğurla davam etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sayəsində bu gün ordumuz dünya orduları ilə müqayisə ediləcək səviyyəyə çatdırılıb. Bu hər birimizi sevindirir və qürurlandırır. Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısının nəticəsidir ki, ölkəmizin müdafiə qüdrəti gündən-günə artaraq, xalq, dövlət, ordu birliyi monolit birliyə çevrilib.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ermənistan silahlı birləşmələrinin genişmiqyaslı təxribatlarına qarşı başlayan əks-hücum əməliyyatlarında - 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın müddətdə düşmən işğalında olan tarixi torpaqlarımızı azad etdi. Ali Baş Komandanın müdrik və uzaqgörən siyasəti, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Bu gün üçrəngli bayrağımızın əzəmətlə dalğalandığı işğaldan azad olunmuş torpaqlarımızda rəşadətli Azərbaycan Ordusu öz mövqelərini daha da möhkəmləndirməklə dövlətimizin başçısının rəhbərliyi ilə başlayan bərpa-quruculuq işlərinin ən yüksək səviyyədə həyata keçirilməsinə, böyük qayıdışa layiqli töhfələrini verməkdədir.

Şəhid ailələri, hərbi əməliyyatlar zamanı sağlamlığını itirən döyüşçülərimiz və müharibə veteranları daima dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılır. Onların sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğı və problemlərinin həlli istiqamətində göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığımızı bildiririk.

Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə daim sadiq qalaraq, döyüş və mənəvi-psixoloji hazırlığınızı gücləndirəcək, xidmətinizdə yeni uğurlar əldə etmək üçün səy və bacarıqlarınızı daha da artıracaqsınız.

Hər zaman olduğu kimi, bu bayram günündə də Azərbaycanın suverenliyi, müstəqilliyinin qorunması və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizi ehtiramla yad edir, onların unudulmaz xatirəsini əziz tuturuq. Şəhid ailələrini və torpaqlarımızın müdafiəsində əzmlə dayanaraq hərbi əməliyyatlar zamanı sağlamlığını itirən döyüşçülərimizi də 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Bir daha bütün şəxsi heyəti ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, Vətənə, müstəqil Azərbaycan dövlətinə şərəfli xidmətinizdə uğurlar arzulayıram!”

**Ümummilli lider Heydər Əliyev ömrünün çox hissəsini Azərbaycanın gələcəyinə, dirçəlişinə, tarixinə, mədəniyyətinə, iqtisadi inkişafına sərf edib. Hələ keçmiş SSRİ dövründə ölkəmizə rəhbərlik etməyə başlayan Heydər Əliyevin sayəsində Sovet Azərbaycanı aqrar respublikadan dinamik inkişaf edən sənaye respublikasına çevrildi.**



# Ulu öndər Azərbaycanın etibarlı enerji sisteminin yaradıcısıdır

Malik olduğu liderlik dühası, xalq və dövlət qarşısındakı misilsiz xidmətləri ilə respublikamızı regionun əsas inkişaf mərkəzlərindən birinə çevirdi. Ulu öndər Azərbaycana Avropanın enerji təhlükəsizliyinin etibarlı təminatçısı, qitələri birləşdirən kommunikasiya qovşağı, mədəniyyətlərarası dialoq məkanı statusunu qazandırdı.

Ölkə iqtisadiyyatının, onun sosial həyatının istər ötən əsrin 70-80-ci illərində, istərsə də müstəqillik dövründə dinamik inkişafı bir çox mühüm istiqamətlərlə yanaşı, elektrik enerjisi sistemi ilə də bağlıdır. Hazırda respublikamızın müstəqil elektrik enerji sisteminə malikdir və bunun əsası ötən əsrin 70-ci illərində qoyulmuşdur.

Belə ki, Azərbaycanda elektrik enerjisi istehsalı hələ XIX əsrin sonu, XX əsrin əvvəllərindən başlansa da, uzun illər ərzində bu sahədə inkişaf ləng getmişdir.

1969-cu ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyə gəlişindən sonra respublikanın sosial-iqtisadi həyatının mühüm sahələrindən biri olan elektrik enerjisi sisteminin sürətli inkişafını təmin etmək məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, bir çox irimiqyaslı layihələr reallaşdırılmışdır. Həmin dövrdə bir-birinin ardınca yeni elektrik stansiyalarının, yüksək gərginlikli elektrik verilişi xətlərinin və yarımstansiyaların inşa edilib istifadəyə verilməsi vətənimizin sənaye potensialının artırılmasında mühüm addım oldu.

1971-ci ildə Naxçıvan Muxtar Respublikası ərazisində Araz çayı üzərində İran–Azərbaycan "Araz" SES adı altında gücü 22 MVt olan stansiyanın inşası, 1972-ci ildə 2 saylı Sumqayıt İstilik Enerji Mərkəzinin gücünün 220 MVt-ya çatdırılması, 1976-1977-ci illərdə Sərsəng su anbarı və gücü 50 MVt olan su elektrik stansiyasının istifadəyə verilməsi məhz Heydər Əliyev şəxsiyyətin Azərbaycana rəhbərliyi dövrünə təsadüf edir. Bu illərdə, həmçinin gücü 380 MVt olan Şəmkir Su Elektrik Stansiyası istismara buraxılmışdır.

Mingəçevir respublikanın 4-cü iri sənaye mərkəzidir. Ölkənin elektrik enerjisinin 60 faizindən çoxunu istehsal edən Azərbaycan İstilik Elektrik Stansiyası və SES silsiləsi bu şəhərdə yerləşir. Energetika şəhəri Mingəçevirə ulu öndər Heydər Əliyev həmişə xüsusi qayğı və diqqət göstərib.

İnşasına 1974-cü ildə başlanmış, birinci bloku 1981-ci il oktyabrın 20-də, sonuncu, 8-ci bloku isə 1990-cı ildə istismara verilmiş və bu gün də Cənubi Qafqazın ən böyük istilik-elektrik stansiyası sayılan Azərbaycan İstilik Elektrik Stansiyası Heydər Əliyevin təşəbbüsü ilə tikilib. Ulu öndər Azərbaycana birinci dəfə rəhbərlik etməyə başlayanda, respublikanın enerji potensialını artırmağa ciddi ehtiyac olduğunu görürdü. O, sovet rəhbərliyi qarşısında məsələ qaldıraraq bununla bağlı böyük sərmayə qoyuluşuna nail oldu. Stansiyanın birinci enerji blokunun işə salınması Azərbaycanda fərəh dolu əlamətdar hadisəyə çevrildi. Ulu öndərimizin bu münasibətlə 1981-ci ilin 20 oktyabrında Mingəçevirə şəhərinə gəlişi, stansiyanın vəziyyəti ilə tanış olaraq energetiklərə və inşaatçılara öz dəyərli tövsiyələrini verməsi, bu tarixi təqvimi Azərbaycan energetiklərinin peşə bayramı günü kimi müəyyənləşdirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 oktyabr 2004-cü il tarixli Sərəncamına əsasən, həmin gün "Energetik Günü" kimi qeyd edilir.

Ölkə elektrik enerjisi sisteminin sütununu təşkil edən bu stansiya indi də müstəqil dövlətimizin enerji təhlükəsizliyinin təminatında müstəsna rola malikdir. Bu stansiyanın istismara verilməsi ilə elektrik enerjisi sistemində başlanmış inkişaf və tərəqqi prosesi nəticəsində respublikamız sonralar özünün müstəqil, dayanıqlı enerji sistemi formalaşdıra bilmişdir. Ümumilikdə, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə respublikamızın elektrik enerjisi ilə təminatı problemi öz həllini tapmışdır. Bu illərdə bütün yaşayış məntəqələrimizə, o cümlədən hər bir evə elektrik xətti çəkilmişdir. Əgər 1969-cu ildə Azərbaycan elektrik enerjisi idxal edirdisə, 1982-ci ildə artıq elektrik enerjisi ixracatçısına çevrilmişdir.

Həmin dövrdə elektrik stansiyalarının inşası ilə yanaşı, elektrik şəbəkələri də sistematik inkişaf etdirilmiş və respublikamızın dayanıqlı enerji sistemi yaradılmışdır. O illərdə 330 kV-luq Əli Bayramlı (indiki Şirvan) İES - Ağdam - Gəncə - Ağstafa, Əli Bayramlı - Yaşma-Dərbənd, 5-ci Mingəçevir, 500 kV-luq 1-ci və 2-ci Abşeron, Muxranis - Vəli və digər elektrik verilişi xətləri, 330/110/20 kV-luq Yaşma, Gəncə, Ağstafa, 330/110/10 kV-luq İmişli, 500/330/220 kV-luq Abşeron, 220/110/10 kV-luq Hövsan, Nizami, Müşfiq, Səngəçal, Masallı, Ağsu, Babək və başqa qovşaq yarımstansiyaları istismara verildi. Bununla da elektrik enerjisi sahəsində yeni inkişaf mərhələsinin başlanğıcı qoyulmuşdu.

Sonralar həmin şərəfli günləri xatırlayan müdrik rəhbər deyirdi: "Biz o illər bütün bu imkanlardan istifadə edərək eyni zamanda, düşünürdük ki, hər respublikanın özünü təmin edə bilən iqtisadi potensialı olmalıdır. Bu iqtisadi potensialın tərkibində ən mühüm yer tutan elektrik enerjisi istehsal edən müəssisələr yaradılmalıdır. Ona görə də o illər Moskvanın etirazına, bu işimizə maneçilik törədən qüvvələrin çox güclü olmasına baxmayaraq, biz Azərbaycanın elektrik enerjisi müstəqilliyini, elektrik enerjisi sarıdan asılılıqdan qurtarmasını təmin etmək üçün respublikamızda güclü potensiala malik olan elektrik stansiyaları yaratmağa başladıq, buna da nail olduq".

Rəhbərliyinin birinci dövründə olduğu kimi,1993-cü ildə hakimiyyətə qayıdan Heydər Əliyev iqtisadiyyatın bütün sahələrinə, o cümlədən elektrik enerjisi sisteminə də xüsusi diqqət yetirdi. Həmin vaxt energetika sistemində də dərin böhran vəziyyəti yaranmış və sistemin ahəngdar işi pozulmuşdu. Ümummilli lider elektrik enerjisi sisteminin vəziyyətdən çıxarılması, onun maddi-texniki bazasının yenilənməsi və möhkəmləndirilməsi üçün məqsədyönlü, genişmiqyaslı tədbirlər həyata keçirdi. Dünyanın aparıcı dövlətləri ilə qarşılıqlı faydalı əlaqələrin qurulmasına yönəldilmiş strateji xətt elektrik enerjisi sisteminə də xarici investorların cəlb olunmasına imkan yaratdı və bu imkanlardan Azərbaycanın enerji sisteminin mövcud potensialının səmərəliyinin artırılmasında, elektroenergetika təsərrüfatının yenidən qurulmasında da istifadə olundu.

Tikintisi hələ 1984-cü ildən yarımçıq qalmış Şəmkir SES-in davamı olan Yenikənd su hövzəsinin və su elektrik stansiyasının inşasının başa çatdırılması ilə enerji sistemində yeni inkişaf mərhələsinin başlanğıcı qoyuldu. Xatırladaq ki, maliyyə çatışmazlığı ilə əlaqədar tikintisi uzun illər mümkün olmayan Yenikənd su hövzəsində işlərin başa çatdırılması üçün lazımi vəsaitin əldə edilməsi problemini Ulu öndər 1995-ci ilin dekabrında Böyük Britaniyaya işgüzar səfəri zamanı gündəmə gətirərək həllinə nail olmuşdu.

"Şimal" ES-in yenidən qurulması da dahi şəxsiyyətin adı ilə bağlıdır. Ümummilli lider 1998-ci ilin fevral ayında Yaponiyaya rəsmi səfəri zamanı bu stansiyada 400 MVt gücündə buxar-qaz qurğusunun inşası layihəsinin maliyyələşdirilməsi üçün həmin ölkənin rəhbərliyinə müraciət etmiş və rəsmi Tokionun 210 milyon ABŞ dolları məbləğində uzunmüddətli, güzəştli kredit ayırmasına nail olmuşdur. 2000-ci ilin 19 dekabrında isə Ümummilli lider tərəfindən qurğunun təməli qoyulmuş və obyekt 24 aydan sonra istismara verilmişdir.

1999-cu ilin iyun ayında 1 nömrəli Bakı İstilik-Elektrik Mərkəzində yenidənqurma işlərinin başlanması, ümummilli lider Heydər Əliyevin bu mərasimdə iştirakı, qaz-turbin qurğusunun təməl daşını qoyması da Azərbaycan energetika tarixinin ən əlamətdar hadisələrindəndir.

Ulu öndərin həyata keçirdiyi məqsədyönlü siyasət hesabına elektrik enerjisi sistemi respublikanın bütün ərazisini əhatə etməklə bərabər, Rusiya Federasiyası, İran İslam Respublikası, Gürcüstan və Naxçıvan Muxtar Respublikası tərəfindən Türkiyə enerji sistemləri ilə sıx əlaqəni təmin etmişdir. Bu, həm də ölkələrimiz arasında qarşılıqlı münasibətlərin daha da inkişafına, regionda sülhün, sabitliyin, təhlükəsizliyin qorunub saxlanmasına şərait yaradan ciddi amillərdən biridir.

Bütün həyatı boyu öz xalqına sədaqətlə xidmət etmiş Heydər Əliyevin ömür yolu bu gün hər bir Azərbaycan vətəndaşı üçün örnəkdir. Çünki Ümummilli lider müasir Azərbaycan tarixində bu xalq üçün parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, müdrik dövlət xadimidir.

***Almaz ƏLİYEVA,***
***Mingəçevir Dövlət Universiteti mühəndislik fakültəsinin dekanı, texnika üzrə fəlsəfə doktoru, dosent***

# Heydər Əliyev dərsləri

**(əvvəli "Xalq qəzeti"nin 2023-cü il 7, 13, 15, 17 may və 24 iyun nömrələrində)**

## "... Çıxıb gedə bilərəm!"

***Ulu öndər onun Naxçıvandan Bakıya gələrək hakimiyyəti zorla ələ almaq istəyi barədə əvvəlki hakimiyyətin – Xalq Cəbhəsi-Müsavat cütlüyü funksionerlərinin ittihamlarını 1993-cü il iyunun 15-də cəsarətlə rədd etmişdi:***

Mən Naxçıvandan bura özüm gəlməmişəm. Məni bura dəvət eləyiblər, məndən dəfələrlə İsa Qəmbər, Pənah Hüseynov və Azərbaycanın prezidenti Əbülfəz Elçibəy xahiş eləyiblər ki, gəlim burda bir vəzifə tutum, bərabər bu məsələlərin həll olunmasında iştirak edim. Neçə gündür ki, mənimlə danışıqlar gedir. Mən bu vəzifələrdən imtina etmişəm. Bu gün də imtina edirəm. Ona görə də mən hiddətlənirəm ki, bəzi adamlar, on gündür... Azərbaycan bərbad vəziyyətdədir, barmaq-barmağa vurmayıblar, Azərbaycandan kənarda gəzirlər, kabinetlərdə cürbəcür işlərlə məşğul olurlar. İndi də başlayıblar işarə verməyə ki, kimsə kreslo tutmaq istəyir. Mən heç bir kreslo tutmaq istəmirəm, heç bir vəzifə tutmaq istəmirəm. 1991-ci ilin fevral ayında bu salonda, bu tribunadan çıxış edərkən demişdim: "Mən Azərbaycana xalqımla bir yerdə olmaq və xalqımın bu ağır günündə ona kömək olmaq üçün respublikaya qayıtmışam." Onda məni qəbul etmədilər. Ondan sonra da dəfələrlə demişəm. Mən heç bir vəzifə tutmaq iddiasında deyiləm. Bu gün də deyirəm: Bu dəqiqə buradan çıxıb gedə bilərəm. Ancaq bəzi adamların heç bir iş görmədən zalda oturub bu ağır vəziyyətdə məsələni mürəkkəbləşdirməsi məni hiddətləndirir. Mən heç kəsə heç bir qarantiya vermirəm, mən özümü peyğəmbər hesab etmirəm. Fəqət bu ağır vəziyyətdən çıxmaq üçün vətəndaş kimi, Ali Sovetin deputatı kimi, Ali Sovetin Sədrinin müavini kimi, əgər etimad göstərsəniz, baxmayaraq ki, mən bunu istəmirəm, Ali Sovetin Sədri kimi fəaliyyət göstərməyə hazıram. Mən bu yola ancaq xalqın ağır vəziyyətdən çıxmasında müəyyən fəaliyyət göstərmək üçün gedirəm, başqa məqsədim yoxdur.

## "Təbiətimdə qisasçılıq hissi yoxdur"

**Həmin dövrdə bəzi dairələrdə söhbətlər gedirdi ki, Heydər Əliyev əgər yenidən Azərbaycanda vəzifəyə gələrsə, kimlərdənsə qisas alacaq. Kimsə vaxtilə onun əleyhinə olub, yaxud, pis münasibət göstərib, ona qarşı münasibəti kəskin olacaq. Həmin şəxslərə Ulu öndərin cavabı belə oldu:**

– Mən sizin qarşınızda tam məsuliyyətlə deyirəm və bütün Azərbaycan xalqına elan edirəm ki, ümumiyyətlə, mənim təbiətimdə qisasçılıq hissi yoxdur. Bunu sadəcə olaraq ayrı-ayrı adamlar süni surətdə yaradıblar və görünür, bir mənə ləkə vurmaq üçün yox, ümumiyyətlə, bizi parçalamaq üçündür. Sizə söz verirəm ki, heç vaxt qisasçılıq hissinə qapılmayacağam. Əgər kimsə, nə vaxtsa mənə qarşı düzgün münasibət bəsləməyibsə, nəsə edibsə, inanın ki, mən onların hamısını çoxdan bağışlamışam. Mən özümü o hisslərin səviyyəsinə heç vaxt salmamışam və salmayacağam. Ona görə yox ki, siz mənə indi etimad göstərdiniz, mən belə bir vəzifəyə gəldim. Yox. Mən sadəcə bir vətəndaş kimi də heç vaxt heç kəslə ədavət aparmaq, qisas almaq, yaxud da ki, kimsə pislik etmək istəməmişəm və istəməyəcəyəm. Ancaq vəzifə çərçivəsində, şübhəsiz ki, hamımız nizam-intizama tabe olmalıyıq, hamımız qanuna tabe olmalıyıq, hamımız qanuna riayət etməliyik, qanunun aliliyini təmin etməliyik və bu yolda, şübhəsiz ki, mən öz əqidəmdən dönməyəcəyəm.

## Onun "Xalq Cəbhəsi" adını daşımaq haqqı yoxdur"

**Təbirlərin birində H.Əliyev "Xalq Cəbhəsi"nin adına layiq olmadığını belə əsaslandırmışdı:**

– Əgər bu Xalq Cəbhəsi, doğrudan da, Xalq Cəbhəsi idisə, nə üçün həmin 1993-cü ildə Surət Hüseynov, başqaları baş qaldırarkən xalqa müraciət edib xalqın gücü ilə Surət Hüseynovu yerində oturda bilmədi? Nə üçün təyyarələr göndərdilər ki, Gəncəni bombardman eləsinlər? Nə üçün tankları, topları, "Qrad" qurğularını Ağdamdan, başqa cəbhə bölgələrindən çıxarıb oraya gətirdilər ki, oranı bombalasınlar? Nə var, nə var, bir Surət Hüseynovu məhv eləsinlər. O da orada qan tökdü. Əgər bu, doğrudan Xalq Cəbhəsi idisə, xalqa müraciət edəydi, bu xalq da qalxaydı, onun qarşısını alaydı. Necə ki, biz oktyabr ayında bunu etdik. Halbuki biz heç adımızı "Xalq Cəbhəsi" qoymamışıq. Amma biz xalqıq, xalq bizik. O, xalq deyil, adını "Xalq Cəbhəsi" qoyub. Onun "Xalq Cəbhəsi" adını daşımaq haqqı yoxdur, mənəvi haqqı yoxdur. Əgər Xalq Cəbhəsi idisə, xalq o hadisələrin qarşısını alaydı və Azərbaycan belə faciələrə gəlib çıxmayaydı.

## "Elə bil ki, bomba partladı"

**"Əsrin müqaviləsi"nin imzalanması dünyada geniş əks-səda doğurmuşdu. Bunun səbəbi və layihənin reallaşması yolunda qarşıya çıxan problemlərin aradan qaldırılmasında Ulu öndər mətin iradə nümayiş etdirmişdi:**

– Bilirsiniz ki, 1994-cü ilin sentyabr ayında Azərbaycan dünyanın ən böyük şirkətləri ilə, 7 ölkənin 11 şirkətinin yaratdığı bir konsorsiumla müqavilə imzaladı. Bu, dünyada bir partlayış oldu. Elə bil ki, bomba partladı. Çünki, bu, böyük müqavilədir və buna dünya "Əsrin müqaviləsi" adı verdi. Buna sevinənlər də oldu, ancaq bundan rahatsız olanlar da tapıldı. Azərbaycana qarşı təzyiqlər, basqılar başladı: "Nə üçün Azərbaycan bunu etdi? Nə üçün Azərbaycan Amerika, İngiltərə, Türkiyə, Norveç və başqa ölkələrin şirkətlərini Xəzər dənizinə gətirdi?"

Bizi qınadılar… Əleyhimizə təbliğat apardılar. Guya, bu müqavilə həyata keçməyəcəkdir, çünki Xəzər dənizinin statusu məlum deyildir. Hətta o müqaviləni imzalayan şirkətlər qorxdular, bizim yanımıza gəldilər ki, bu nədir, deyirlər bu müqavilə işləməyəcəkdir. Rusiya bəyanat verdi ki, Rusiya bu müqaviləni tanımır. Amma Rusiyanın bir şirkəti bu müqavilənin içindədir. Rusiyanın Xarici İşlər Nazirliyi bəyanat verdi ki, Rusiya bu müqaviləni tanımır. Başqa bir xarici Qərb ölkəsinin xarici işlər naziri mənim yanıma gəldi, dedi ki, bəs nə olacaqdır, bunu tanımırlar. Dedim, bunun tanınmamasına görə sən niyə rahatsız olursan? Bizə onların tanıması lazımdırmı? Bizim buna ehtiyacımız yoxdur. Sonra Xəzər dənizinin statusu məsələsi meydana çıxdı: "Xəzər dənizinin statusu müəyyən olunmayıbdır, belə halda bu müqaviləni imzalamaq olmaz". Biz də dedik ki, Xəzər dənizinin statusu hələ 1970-ci ildə Sovetlər Birliyi tərəfindən müəyyən olunubdur. Çünki o vaxt Xəzər dənizi Sovetlər Birliyinə məxsus idi. Xəzər dənizinin cənubunun kiçik bir hissəsi İrana məxsus idi. Qalan hamısı Sovetlər Birliyinə məxsus idi. İndi Sovetlər Birliyi dağılıbdır. Xəzər dənizi ətrafında ölkələr vardır – Rusiya, Azərbaycan, Qazaxıstan, Türkmənistan, İran. Cəmi beş ölkə. Keçmişdə yaranmış ənənəyə görə, Xəzər dənizi sektorlara bölünübdür. Burada yerləşən hər cümhuriyyətin Xəzər dənizində öz sektoru vardır. Biz öz sektorumuzun içindəyik, öz sektorumuzdan kənara çıxmamışıq. Söylədilər ki, bu sektor prinsipi qəbul edilmir. Xəzər dənizi ümumi dəniz olmalıdır – kim harada istəyir, qoy orada iş görsün. Biz isə dedik ki, belə olmaz. Bu sektor prinsipini bizdən başqa heç kəs qəbul etmədi. Ancaq mən sizə deyə bilərəm ki, indi hamı, bütün Xəzər dənizi ölkələri – Rusiya da, Qazaxıstan da, Türkmənistan da, hətta İran da sektor prinsipini qəbul edir.

Yəni, 1994-cü ildə bizim müqavilənin əleyhinə çıxanlar deyirdilər ki, sektor prinsipi qəbul olunmur, status müəyyən deyil və bu işi görmək olmaz. Amma görün onlar nə işlər gördülər. 1994-cü il sentyabr ayının 20-də biz müqavilə imzaladıq. Sentyabr ayının 21-22-də Azərbaycanda böyük bir cinayət törədildi. Azərbaycanda dörd cinayətkar bir ölkənin xüsusi xidmət orqanları tərəfindən həbsxanadan çıxarılıb qaçırıldı. Azərbaycan daxilində bir qarışıqlıq yarandı. Mən Nyu-Yorka, Birləşmiş Millətlər Təşkilatının toplantısına getmişdim. Mən Nyu-Yorkda olanda Azərbaycan Milli Məclisinin başqa yardımçısını və bir albayı terror edib öldürdülər. Mən Nyu-Yorkdan geriyə dönərkən buraya, İstanbula gəldim. Süleyman Dəmirəl məni burada qarşıladı. Azərbaycanda elə bir vəziyyət yaranmışdı ki, Azərbaycanda artıq çevriliş baş verirdi. Güman edirdilər ki, Heydər Əliyev Azərbaycana qayıda bilməyəcəkdir. Ancaq mən buraya, İstanbula gəldim. Burada dostum Süleyman Dəmirəllə görüşdüm və Bakıya getdim.

Ondan bir həftə sonra, oktyabr ayının 3-4-də Azərbaycanda çevrilişə cəhd oldu. Mən nə etməli idim? O vaxt mənim əlimdə o qədər də güc, silah yox idi. O vaxta qədər Azərbaycanın durumu ayrı-ayrı qanunsuz silahlı dəstələrin əlində idi. Mən televiziya vasitəsilə xalqa müraciət etdim. Siz onu eşitdiniz. İki saatın içərisində gecə vaxtı Prezident Sarayının önünə yarım milyon insan toplaşdı. Onlar Azərbaycan dövlətini, Azərbaycanın Prezidentini, cümhur başqanını qorudular…

Çevriliş cəhdini nə üçün edirdilər? Bu, həmin o müqaviləyə zərbə vurmaq üçün edilirdi. Bunu bizi pozmaq, müstəqil Azərbaycan dövlətini dağıtmaq üçün etdilər. Amma biz dözdük, bunun qarşısını aldıq.

**(ardı var)**

***Təqdim etdi:***
***Faiq SADIQOV, Əməkdar jurnalist***

# Ümummilli liderin dövlətçilik təlimi və müasir gənclik

**Şəhər icra hakimiyyətinin dəstəyi, Azərbaycan Milli Elmlər Akademiyasının Gənc Alim və Mütəxəssislər Şurası və Gəncə Bölməsinin təşkilatçılığı ilə Ümummilli liderin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyevin dövlətçilik idealları və müasir gənclik" mövzusunda respublika konfransı keçirilib.**



Akademik İsa Həbibbəyli Ulu öndərin yubileyi münasibətilə AMEA tərəfindən dahi şəxsiyyətin zəngin dövlətçilik irsinə həsr edilmiş çoxsaylı elmi əsərlər nəşr edildiyini bildirib. O, həmçinin Ulu öndərin həyat və fəaliyyətinin öyrənilməsinin elmi-populyar müstəvidən fundamental elmi araşdırmalar səviyyəsinə qaldırılmasını təqdirəlayiq hal kimi dəyərləndirib.

Akademik AMEA tərəfindən ilk dəfə olaraq, "Heydər Əliyev Ensiklopediyası"nın nəşrə hazırlandığını da qeyd edib. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov ölkəmizdə müasir gənclər siyasətinin əsasının ulu öndər tərəfindən qoyulduğunu və bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib.

AMEA-nın Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev ulu öndər Heydər Əliyev irsinin gənclər üçün ən doğru yol, ən yüksək ideal olduğunu bildirib. Konfransda gənc alimlərin və mütəxəssislərin məruzələri də dinlənilib.

**Hamlet QASIMOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 207** **Bakı şəhəri, 25 iyun 2023-cü il**

***Naxçıvan Lift Xidmətinin və Naxçıvan Yaşıllaşdırma Xidmətinin Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın 7.11-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təklifi nəzərə alınaraq, Naxçıvan Lift Xidməti və Naxçıvan Yaşıllaşdırma Xidməti ştat vahidləri və onlara məxsus əmlakla birlikdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilsin.

**2.** Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Şəhər İcra Hakimiyyəti bu Qərardan irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 208** **Bakı şəhəri, 25 iyun 2023-cü il**

***Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyinin Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyinin Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsi barədə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmış təklifi qəbul edilsin.

**2.** Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsi ilə əlaqədar irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etsinlər.

**3.** Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin cari ildə Naxçıvan Dövlət Universitetinin tabeliyində fəaliyyətinin maliyyələşdirilməsi Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyi üzrə nəzərdə tutulmuş vəsait çərçivəsində davam etdirilsin, 2024-cü ildən isə Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üzrə nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

**4.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərarın 3-cü hissəsində qeyd olunan maliyyələşmə məsələlərini növbəti illərin Azərbaycan Respublikasının icmal və dövlət büdcəsinin tərtibi prosesində nəzərə alsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 209** **Bakı şəhəri, 25 iyun 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 avqust tarixli 135 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi barədə məlumatların təqdim olunması Qaydaları"nda dəyişiklik edilməsi barədə***

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 627-VIQD nömrəli Qanununun tətbiqi və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 dekabr tarixli 1902 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 avqust tarixli 135 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 860; 2012, № 12, maddə 1351; 2016, № 7, maddə 1343, № 9, maddə 1585; 2017, № 4, maddələr 620, 643; 2019, № 3, maddə 559, № 8, maddə 1476; 2020, № 3, maddə 348; 2021, № 3, maddə 280, № 10, maddə 1183; 2022, № 8, maddə 1015, № 11, maddə 1339) ilə təsdiq edilmiş "Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi barədə məlumatların təqdim olunması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü hissədə "6-cı və 7-ci hissələri" sözləri "7-ci hissəsi" sözləri ilə əvəz edilsin;

1.2. 6-cı hissə ləğv edilsin.

**2.** Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 210** **Bakı şəhəri, 25 iyun 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 793-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421; 2023, № 2, maddə 315) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın 7.5-ci bəndinin mətni ikinci cümlə hesab edilsin və aşağıdakı məzmunda birinci cümlə əlavə edilsin:

"Əmək pensiyasının və əmək pensiyasına əlavənin artıq ödənilmiş məbləği artıq ödəmənin aşkar olunduğu tarixdən əmək pensiyaçısından son üç il üçün hesablanaraq tutulur.".

**2.** Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 211** **Bakı şəhəri, 25 iyun 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869; 2007, № 1, maddə 45, № 3, maddə 312, № 10, maddə 1021; 2008, № 2, maddə 116; 2009, № 6, maddə 491, № 10, maddə 846, № 12, maddə 1061; 2010, № 3, maddə 264, № 4, maddə 359, № 7, maddə 702, № 12, maddə 1122; 2014, № 3, maddə 321, № 10, maddə 1322; 2015, № 4, maddə 474; 2016, № 2 (II kitab), maddə 366, № 3, maddə 610, № 5, maddə 951, № 8, maddə 1431, № 9, maddə 1555, № 11, maddə 1955; 2017, № 1, maddə 131, № 3, maddə 510, № 8, maddə 1617, № 12 (II kitab), maddə 2504; 2018, № 6, maddə 1377, № 7 (II kitab), maddə 1630, № 8, maddə 1809, № 11, maddə 2428, № 12 (II kitab), maddələr 2735, 2738; 2019, № 1, maddə 157, № 9, maddə 1564; 2021, № 1, maddə 85, № 4, maddə 417, № 9, maddələr 1049, 1054; 2022, № 4, maddələr 375, 408) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 29-cu və 34-cü hissələri ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 212** **Bakı şəhəri, 25 iyun 2023-cü il**

***"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının məbləğlərinin təsdiq edilməsi, "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələr üzrə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" 2008-ci il 23 oktyabr tarixli 252-31 nömrəli və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 470 nömrəli Qərarda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 may tarixli 224-18 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" 2019-cu il 11 aprel tarixli 156-6 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 393 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 dekabr tarixli 470 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 may tarixli 2132 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 dekabr tarixli 470 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2054; 2022, № 2, maddə 165; 2023, № 4, maddə 585) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşdirilən xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının məbləğləri"ndə dəyişiklik edilsin (əlavə olunur, məxfi).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşən xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları ilə əlaqədar tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2023-cü ilin dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirsin.

**3.** Bu Qərar 2023-cü il iyunun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Gədəbəy rayonunun Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün yaradılmış Komissiyanın ilkin hesabatı dinlənilib



**İyunun 25-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun yanında Gədəbəy rayonunun Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün Nazirlər Kabinetinin 2023-cü il 21 iyun tarixli Sərəncamı ilə yaradılmış Komissiyanın ilkin hesabat iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, iclasda Komissiyanın sədri, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Söyüdlü kəndində tullantıxana sahəsində aparılmış monitorinqlərin və mövcud vəziyyətin qiymətləndirilməsi işlərinin ilkin nəticələri barədə Baş nazirə məruzə edib.

Bildirilib ki, ərazidə aidiyyəti qurumlar tərəfindən ətraf mühitə təsirlər qiymətləndirilir, o cümlədən su və torpaq nümunələri götürülərək analizlər aparılır, atmosfer havasının keyfiyyəti yoxlanılır.

Vurğulanıb ki, eyni zamanda, ərazidə fəaliyyət göstərən şirkətin imzalanmış sazişə əsasən öz üzərinə götürdüyü və Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Sənədində əks olunmuş su, torpaq və atmosfer havası üzrə keyfiyyət standartlarına, həmçinin bütün digər ekoloji normalara tam riayət etməsi tələb olunur.

İclasda, aparılmış monitorinqlərin ilkin nəticələri, həmçinin Komissiya qarşısında duran vəzifələr müzakirə edilib.

Baş nazir sakinlərin sağlamlığının və ətraf mühitin qorunması ilə bağlı vətəndaşların müraciətlərinin ən ciddi şəkildə araşdırılması və mövcud vəziyyətin qiymətləndirilməsi işlərinin davam etdirilməsi üçün müvafiq tapşırıqlar verib.

Söyüdlü kəndində aparılan monitorinqlərin və qiymətləndirmənin yekun nəticələri barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

***"Xalq qəzeti"***

# XİN başçıları telefonla danışıblar

**İyunun 25-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə iranlı həmkarı Hüseyn Əmir Abdullahian arasında telefon danışığı olub.**



Tərəflər Azərbaycanla İran arasında münasibətlərin cari vəziyyəti və perspektivləri müzakirə edilib.

İkitərəfli və regional əlaqələr dair bir sıra istiqamətlərdə, o cümlədən iqtisadi və nəqliyyat layihələri ilə bağlı iki ölkənin aidiyyəti qurumları və rəsmiləri arasında baş tutmuş danışıqların və qarşılıqlı təmasların vacibliyi qeyd olunub.

Bununla yanaşı, ikitərəfli gündəlikdə duran həlli zəruri olan məsələlərə dair danışıqların davam etdirilməsinin və onların həllinin əhəmiyyəti vurğulanıb.

Eyni zamanda, bir sıra çoxtərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramov UNESCO-nun İcraiyyə Şurasının sədri və Baş direktorunun müavini ilə görüşüb

**İyunun 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov UNESCO-nun İcraiyyə Şurasının sədri Tamara Rastovac Siamaşvili və qurumun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Qabriela Ramos ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə Azərbaycan və UNESCO arasında mövcud əməkdaşlıq gündəliyində duran aktual məsələlər, Azərbaycanın irəli sürdüyü təşəbbüslər, eləcə də regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın UNESCO-ya üzv olduğu tarixdən etibarən təşkilatın fəaliyyətinə, o cümlədən mədəniyyətlərarası dialoqun inkişafına və təşviqinə mühüm töhfələr verdiyini diqqətə çatdırıb. Bu xüsusda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" çərçivəsində təşkil olunan çoxsaylı beynəlxalq layihələrin əhəmiyyəti vurğulanıb.

Baş direktorun müavini Qabriela Ramos məsul olduğu sosial və humanitar elmlər sahəsində UNESCO tərəfindən həyata keçirilən layihələr və təşəbbüslər, o cümlədən mədəniyyətlərarası dialoq, sosial innovasiyalar, süni zəka və idman fəaliyyəti kimi bir sıra istiqamətlər barədə ətraflı məlumat verib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# XİN: Erməni sakinlərin "hüquq və təhlükəsizliyi" iddiası qəbuledilməzdir

**Ermənistan tərəfinin təxribatından sonra Azərbaycanın həyata keçirdiyi təhlükəsizlik və istintaq tədbirləri ilə əlaqədar Laçın sərhəd buraxılış məntəqəsinin fəaliyyətinin müvəqqəti olaraq məhdudlaşdırılmasının "blokada və etnik təmizləmə" kimi təqdim edilməsi Ermənistanın saxta təbliğatının tərkib hissəsidir.**

Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Ermənistan Xarici İşlər Nazirliyinin 24 iyun tarixli bəyanatına dair şərhində əksini tapıb.



"Ərazilərimizi 30 ilə yaxın müddətdə işğal altında saxlayan, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirən, öhdəliklərinə zidd olaraq erməni silahlı qüvvələrini Azərbaycan ərazilərindən hələ də tam olaraq çıxarmayan, Azərbaycanın sülh prosesi təkliflərinə uzun müddət laqeyd yanaşan və bir sıra əsassız iddiaları ilə hazırda prosesə maneçilik törədən Ermənistanın Azərbaycanı nifrət və düşmənçilikdə təqsirləndirməsini qətiyyətlə pisləyirik.

Ermənistan tərəfinin təxribatından sonra Azərbaycanın həyata keçirdiyi təhlükəsizlik və istintaq tədbirləri ilə əlaqədar Laçın sərhəd buraxılış məntəqəsinin fəaliyyətinin müvəqqəti olaraq məhdudlaşdırılmasının "blokada və etnik təmizləmə" kimi təqdim edilməsi Ermənistanın saxta təbliğatının tərkib hissəsidir.

Göründüyü kimi, Ermənistan tərəfi buraxılış məntəqəsi təsis edildiyi gündən yüzlərlə erməni sakinlərin azərbaycanlı sərhədçilərlə qarşılıqlı anlayış və əməkdaşlıq ruhunda hər iki istiqamətdə keçidini həzm etməyərək, bu kimi təhrikçi addımları təkidlə davam etdirməkdə maraqlıdır.

Eyni qaydada, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərə qarşı "humanitar təhdidlər" olduğu iddialarının heç bir əsası yoxdur. Azərbaycanın zərurət olduğu təqdirdə sakinlərə yardım etmək təkliflərindən özlərini erməni sakinlərin nümayəndələri kimi təqdim edən şəxslər tərəfindən hər vəchlə imtina olunması, erməni tərəfinin bu məsələdən öz dar siyasi məqsədləri üçün istifadə etdiyini göstərir.

Qeyd edilənlərlə yanaşı, erməni sakinlərin "hüquq və təhlükəsizliyi" məsələsindən sui-istifadə cəhdləri qəbuledilməzdir. Azərbaycan tərəfi erməni sakinlərin reinteqrasiyası istiqamətində səy göstərir və Ermənistan tərəfinin müxtəlif bəhanələrlə prosesə müdaxiləsinə, habelə destruktiv şəkildə maneçilik törətməsinə son qoyulması zəruridir", - deyə məlumatda bildirilib.

***"Xalq qəzeti"***

# Bakı Beynəlxalq Astronavtika Konqresinə hazırlaşır

**Xəbər verildiyi kimi, 2023-cü il oktyabr ayının 2-6-da Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi keçiriləcək. Cari ilin əvvəllərindən etibarən ölkəmizdə bu mötəbər beynəlxalq tədbirə hazırlıq işlərinə başlanılıb. Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" 7 fevral 2022-ci il tarixli sərəncam imzalayıb.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yaydığı məlumata görə, "Azərkosmos" və Beynəlxalq Astronavtika Federasiyasının birgə təşkilatçılığı ilə keçiriləcək qlobal kosmik tədbirə hazırlıqlar sürətlə davam edir. Hazırlıq işləri Beynəlxalq Astronavtika Federasiyası tərəfindən də yüksək qiymətləndirilir. Belə ki, qurumun icraçı direktoru Kristian Faytinger Bakının ev sahibliyi edəcəyi konqresin heyrətamiz hadisə olacağını bəyan edib.




Beynəlxalq tədbirə hazırlıq işləri çərçivəsində görülən işlər barədə məlumat verən "Azərkosmos"un sədri Saməddin Əsədov bildirib ki, Azərbaycanda bu ilin ən böyük işgüzar tədbirlərindən biri olacaq Beynəlxalq Astronavtika Konqresi üçün 8 min kvadratmetr sahədə müvəqqəti sərgi pavilyonu təşkil olunacaq. Bu da konqresə sponsorluq edəcək beynəlxalq kosmik şirkətləri və sərgi iştirakçılarını qəbul etməyə əlverişli imkan yaradacaq. Bütövlükdə isə, sərgi pavilyonunda müxtəlif ölkələrin kosmik qurumları və şirkətlərinin stendləri nümayiş olunacaq.

S. Əsədovun sözlərinə görə, Bakı Konqresinə beynəlxalq maraq olduqca yüksəkdir və kosmos sahəsində fəaliyyət göstərən iri şirkətlər tədbirə ciddi hazırlaşırlar. Qeyd edək ki, pavilyonda iştirakla bağlı artıq 50-dən çox təşkilatla müqavilə imzalanıb. Agentlik və şirkətlər arasında ABŞ-ın "Milli Aeronavtika və Kosmos Administrasiyası" (NASA), Yaponiyanın "JAXA" Kosmik Agentliyi, İtaliyanın "Agenzia Speziale Italiana" Kosmik Agentliyi, "AIRBUS" Şirkəti, Kanadanın İnnovasiya Mərkəzi "INO", Fransanın Milli Kosmik Tədqiqatlar Mərkəzi "CNES", Hindistanın Kosmik Agentliyi "ISRO", Türkiyənin "Türkiye Uzay Ajansı" Kosmik Agentliyi və digər beynəlxalq şirkətlər yer alıb. Tədbir futuristik Bakı Konqres Mərkəzindən, görkəmli memar Zaha Hadidin layihələndirdiyi möhtəşəm Heydər Əliyev Mərkəzindən və sərgi pavilyonundan ibarət Bakı Konqres Kompleksində keçiriləcək.

74-cü Beynəlxalq Astronavtika Konqresində kosmos sahəsi üzrə ölkələrin öz fəaliyyətlərini müzakirə etmək, biznes əlaqələri yaratmaq imkanları olacaq. Bu, təkcə Cənubi Qafqazı deyil, həm də Türkiyəni, Mərkəzi Asiya və Yaxın Şərq ölkələrini əhatə etməklə Azərbaycanın və regionun akademik və biznes sahəsi üzrə kosmik sektorun ekspertləri və liderləri ilə əlaqə yaratmaq üçün əla fürsətdir. Belə ki, qlobal kosmik tədbirin bir hissəsi olmaqla iştirakçılar, həmçinin Azərbaycanın qonaqpərvərliyi, zəngin mətbəxi və mədəniyyətini görmək imkanı qazanacaqlar.

Azərkosmos və Beynəlxalq Astronavtika Federasiyasının tərəfdaşlığı ilə keçiriləcək 74-cü konqres çərçivəsində konfranslar, 190-dan çox texniki sessiya və sərgilər təşkil olunacaq. Tədbirdə kosmik agentliklərin, dövlət sektorunun, investorlar və özəl kosmik şirkətlərin nümayəndələri, yerli və beynəlxalq media qurumlarının təmsilçiləri iştirak edəcəklər.

"Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək" mövzusunda beynəlxalq konqres kosmik sənayenin gələcəyini formalaşdıran yeni ideyalar və qabaqcıl həllərlə bağlı fikir mübadiləsi üçün açıq platforma olacaq. Tədbir bütün qonaqlara və iştirakçılara kosmik sənayesinin inkişafının gücləndirilməsi, qlobal tendensiyalar, kosmos innovasiyaları sahəsində tərəfdaşlıq və əməkdaşlıq yollarını müzakirə etmək imkanı verəcək.

Beynəlxalq Astronavtika Konqresi Azərbaycana milli kosmik ekosistemin təşviqi, azərbaycanlı alim və gənc tədqiqatçılar üçün beynəlxalq əlaqələrin yaradılması, 75-dən çox ölkədən 6 min nəfər yüksək ixtisaslı mütəxəssisin, o cümlədən 2500-dən artıq gəncin səfəri, Azərbaycanla bağlı məlumatlılıq səviyyəsinin artırılması və dövlətimizin qlobal müstəvidə artan nüfuzuna dəstək istiqamətində faydalar verəcək. Beynəlxalq ticarət və logistika qovşağı olan Azərbaycan tədbir müddətində həm də kosmik mərkəzə çevriləcək, bu sahəni inkişaf etdirən qlobal auditoriyanın diqqət mərkəzində olacaq.

Kosmik sahədə qlobal tədbirə hazırlığın böyük uğurlarından biri də Bakı Konqresinə təqdim edilən elmi məqalələrin sayındadır. Belə ki, indiyədək konqresə 95 ölkədən 3600-dən çox elmi məqalə təqdim olunub. Bununla belə, "Azərkosmos"un rəhbəri bildirib ki, beynəlxalq kosmik tədbirinə qeydiyyat sürətlə artır və bütün müraciət edənlərin 50 faizindən çoxunu dünyanın müxtəlif yerlərindən olan gənclər təşkil edir. Bakıda keçiriləcək konqresin onların karyerasına müsbət təsir edəcəyinə əmin olduğunu bildirən S. Əsədov hər kəsi qlobal Bakı Konqresinə qoşulmağa dəvət edib. Eyni zamanda, dünya miqyasında ən mötəbər tədbirlərdən sayılan beynəlxalq konqresin Azərbaycanda keçirilməsinin ölkəmizdə kosmik sənayenin inkişafına, beynəlxalq kosmik icma və onu təmsil edən Beynəlxalq Astronavtika Federasiyası ilə əməkdaşlığın genişləndirilməsinə əvəzolunmaz imkanlar yaradacağını nəzərə alaraq Azərbaycan alimlərinin də bu tədbirdə yaxından iştirakı tövsiyə olunur.

Yeri gəlmişkən, Beynəlxalq Astronavtika Konqresi Beynəlxalq Astronavtika Federasiyası, Beynəlxalq Astronavtika Akademiyası və Beynəlxalq Kosmik Hüquq İnstitutunun dəstəyi ilə Beynəlxalq Astronavtika Federasiyası milli cəmiyyətinin üzvlərindən birinin ev sahibliyi etdiyi ənənəvi illik konqresdir. Beynəlxalq Astronavtika Federasiyası isə 1951-ci ildə yaradılmış qeyri-kommersiya, qeyri-hökumət təşkilatıdır.

Bu mötəbər tədbir ilk dəfə 1950-ci il 30 sentyabr-2 oktyabr tarixində Fransanın paytaxtı Paris şəhərində keçirilib. Sözügedən tədbirə ən çox ev sahibliyi edən ölkə Amerika Birləşmiş Ştatları olub. Ötən müddətdə keçirilmiş 73 tədbirin 6-sı məhz bu ölkədə baş tutub. Azərbaycan isə belə mötəbər tədbirə ikinci dəfə ev sahibliyi edəcək. Ən diqqətçəkən məqam isə ondan ibarətdir ki, keçmiş SSRİ-nin yalnız bircə dəfə ev sahibliyi etdiyi Beynəlxalq Astronavtika Konqresi də düz 50 il əvvəl–1973-cü il 7-13 oktyabr tarixində məhz Bakı şəhərində keçirilib.

Yarım əsrdən sonra Azərbaycan paytaxtının yenidən belə bir mötəbər beynəlxalq tədbirə ev sahibliyi edəcəyi isə, həqiqətən də, qürurvericidir. Bu, həm də ölkəmizin dünya kosmik klubunun tam üzvü kimi öz mövqeyini getdikcə möhkəmləndirməsinin əyani təzahürüdür.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

# Azərbaycanda 2050-ci ilədək karbon emissiyasının həcmi 40 faizədək azaldılacaq

**Son illər Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ həllinə, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaradıb. Bunun nəticəsidir ki, ölkədə təmiz ekoloji mühitə nail olunması məqsədilə mövcud təbii resursların dayanıqlı və səmərəli istifadəsi, tullantıların idarə edilməsi ilə bağlı infrastrukturun yaradılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycanda 2023-cü ilin dövlət büdcəsində ətraf mühitin mühafizəsinə 360 milyon manatdan çox vəsait ayrılıb ki, bu da 2022-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 24 faizdən artıqdır.**

Ətraf mühitin və ekoloji tarazlığın qorunmasına həssaslıqla yanaşan Azərbaycan Respublikası qoşulduğu bir sıra beynəlxalq sazişlərin tələblərinə də ciddi şəkildə riayət edir. Bu baxımdan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasını və Paris Sazişini xüsusi qeyd etmək lazımdır. Yeri gəlmişkən, 2016-cı ilin aprelində imzalanmış və həmin il oktyabrın 28-də Milli Məclis tərəfindən ratifikasiya olunmuş Paris Sazişinə əsasən, Azərbaycan Respublikası nəzərdə tutulan milli səviyyədə müəyyən edilmiş töhfələrini Konvensiya Katibliyinə təqdim edib. Ölkəmiz qlobal iqlim dəyişmələrinə təsirlərin yumşaldılması təşəbbüslərinə özünün töhfəsi olaraq baza ili ilə (1990-cı il) müqayisədə 2030-cu ilədək istilik effekti yaradan qaz emissiyalarının 35 faiz azalma səviyyəsində saxlanılmasını hədəf kimi götürüb.

Bununla bağlı mübadiləsinin aparılmasının vacibliyini vurğulayan nazir müavini deyib ki, bu məqsədlə bütün maraqlı tərəflərin iştirakı ilə ictimai müzakirənin keçirilməsi nəzərdə tutulur. V. Kərimov, həmçinin deyib ki, ötən il Qlazqo şəhərində keçirilən iqlim sammitində Azərbaycan 2050-ci ilə qədər istixana effekti yaradan qazların emissiyasının həcmini 40 faizədək azaldılması ilə bağlı şərti hədəf kimi götürüb. Bundan əlavə, ölkəmiz işğaldan azad edilmiş ərazilərdə təmiz sıfır emissiyası zonasının yaradılması ilə bağlı planlarını bəyan edib.

Azərbaycanda təkrar emal müəssisələrinin sayının artırılması, bu sahənin inkişafi ilə təbii sərvətlərin israfının və ekoloji çirklənmənin qarşısının alınması üçün əlavə xammal bazasının da yaradılması nəzərdə tutulur. Bununla bağlı məlumat verən nazir müavini V. Kərimov qeyd edib ki, müasir iqtisadiyyatda təkrar emal mühüm yer tutur. Onun fikrincə, resurslardan səmərəli istifadə və dairəvi iqtisadiyyat siyasəti vasitəsilə təkrar emal təcrübəsini gücləndirməklə təbii ehtiyatların qorunmasına və davamlı istifadəsinə nail olmaq mümkündür.




Hazırda ölkəmizdə atmosferə atılan istixana qazların azaldılması və dekarbonizasiya sahəsində böyük işlər aparılır. Xatırladaq ki, "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda Azərbaycanın təmiz ətraf mühit və "yaşıl artım ölkəsi"nə çevrilməsi ilə bağlı çoxsaylı tədbirlər nəzərdə tutulub. Sənəddə qeyd olunduğu kimi, yaxın illərdə ölkəmizdə təbii resurslardan dayanıqlı və davamlı istifadə təmin olunacaq, ətraf mühitə dost sənayeləşmənin təşviqi məqsədilə tullantıların səmərəli idarə olunması sistemi inkişaf etdiriləcək. Bunun da nəticəsində tullantıların təkrar emalı prosesinin əhatə dairəsi ölkə üzrə 20 faizə, regionlarda isə 10 faizə çatdırılacaq.

Eyni zamanda, qarşıdakı 5 il ərzində ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsini nəzərdə tutan strategiyada tullantıların yaranması, təkrar emalı və zərərsizləşdirilməsi ilə bağlı uçotun təkmilləşdirilməsi, məlumat bazasının və elektron informasiya sisteminin yaradılması, bu sahədə kadr potensialının gücləndirilməsi planlaşdırılır. Sənədə əsasən, növbəti illərdə regionlarda bərk məişət tullantılarının mərkəzləşdirilmiş idarə olunması sistemi yaradılacaq, bu sahənin maddi-texniki bazası gücləndiriləcək, təhlükəli tullantı poliqonlarının infrastrukturu müasirləşdirilərək mərkəzləşdirilmiş zərərsizləşdirmə qurğularının tətbiqinə diqqət artırılacaq. Yeri gəlmişkən, hazırda ölkəmizdə atmosfer havasının çirkləndirilməsinin qarşısının alınması ilə bağlı mütəmadi tədbirlər görülür. Təkcə onu qeyd etmək lazımdır ki, atmosfer havasına atılan tullantıların zərərsizləşdirilməsi məqsədilə ölkənin iri şəhərlərindəki 500-dən çox iri ictimai-iaşə obyektində təmizləyici qurğular quraşdırılıb.

Bakıda keçirilən 5-ci İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq Elmi Konfansı zamanı Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov bildirib ki, ölkəmizdə atmosferə atılan istixana qazlarının azaldılması, karbon kreditləri və karbon ticarəti sisteminin yaradılması və tənzimlənməsi məqsədilə qanun layihəsinə özəl biznes subyektlərinin perspektivindən baxılması zəruridir. Sözügedən kontekstdə fikir

Yeri gəlmişkən, Azərbaycanda tullantıların idarə olunmasında Balaxanı Sənaye Parkı mühüm rol oynayır. Fəaliyyətə başladığı 2017-ci ildən indiyədək "Təmiz Şəhər" ASC-nin Balaxanı Sənaye Parkına 52 milyon manat investisiya qoyulub. Bakıda keçirilən V İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq Elmi Konfransında bu barədə məlumat verən "Təmiz Şəhər" Səhmdar Cəmiyyəti idarə heyətinin sədri Etibar Abbasov bildirib ki, əgər 2017-ci ildə parkın 5 rezidenti var idisə, artıq onların sayı 25-ə çatıb.

Azərbaycanda tullantıların emalı hesabına istehsal olunan məhsullara maraq getdikcə artır. E.Abbasovun dediyinə görə, Balaxanı Sənaye Parkında istehsal olunan məhsulların 10 faizi xarici ölkələrə ixrac edilir. İxrac olunmuş məhsulların çox hissəsi kağızın payına düşür. Bununla belə, hazırda müəssisənin ixrac göstəricilərinin getdikcə yaxşılaşdırılması ilə bağlı mühüm işlər görülür.

"Təmiz Şəhər" ASC-nin işğaldan azad edilmiş ərazilərdə də fəaliyyət göstərdiyini bildirən Etibar Abbasovub deyib ki, hazırda sıfır tullantı zonası hesab edilən həmin ərazilərdə işlər məskunlaşma planına uyğun olaraq həyata keçirilir. Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsi ilə əlaqədar "Təmiz Şəhər" ASC tərəfindən Zəngilan poliqonu ərazisində 3 ədəd müvəqqəti tullantı hücrəsi hazırlanıb və tullantıların zərərsizləşdirilməsi təşkil olunub. Hazırda Ağalı kəndində məişət tullantılarının gündəlik daşınması üçün 8 meydançada 35 konteyner yerləşdirilib. Zəngilan poliqonunda hazırlanmış müvəqqəti tullantı hücrələrində tullantıların zərərsizləşdirilməsi prosesi davam etdirilir. Yeri gəlmişkən, hazırda ASC-nin korporativ strukturunda Şərqi Zəngəzur regional bölməsi yaradılıb. Bu da yerli sakinlər üçün iş əlavə iş imkanı deməkdir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

# Ölkəmizdə yüksək gəlirli ev təsərrüfatlarının sayı artır

**Azərbaycanda gəliri 25 min dollardan yuxarı olan ev təsərrfütları 2027-ci ilə 24,4 faiz artaraq 695 min 269 olacaq. Bu barədə "Fitch Solutions" beynəlxalq reytinq agentliyinin proqnozunda bildirilib.**

Agentlik hesab edir ki, Azərbaycanda 2027-ci ilə kimi gəliri 25 min dollardan çox olan ev təsərrüfatlarının ümumi portfeldə payı 31,7 faizə çatacaq. "Fitch Solutions" bu göstərici ilə Azərbaycanı gəlirləri 25 min dollardan yuxarı olan ev təsərrüfatlarının ən çox artımı gözlənilən Orta və Şərqi Avropa ölkələri (CEE) sırasına daxil edib. Azərbaycan bu artım proqnozu ilə Polşa, Sloveniya, Çexiya, Portuqaliyadan sonra siyahıda beşinci olub.



Agentlik hesab edir ki, CEE bazarlarının iqtisadi genişlənməsi əsasən turizmlə bağlı olacaq. "Regiondakı bazarlar otel qrupları və turizm şirkətləri tərəfindən diqqət mərkəzində olan cəlbedici mənbə bazarlarına çevriləcək. Bu da 2023-2027-ci illərdə sözügedən ölkələrin gəlirlərinin artmasına təsir edəcək",–deyə agentliyin məlumatında bildirilir.

# "Azərkosmos" 42 ölkəyə peyk xidmətləri göstərir

**2023-cü ilin yanvar-may aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 42 ölkəsinə 7,8 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib.**



Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təqdim etdiyi "İxrac icmalı"nda məlumat verilib. Məlumatda bildirilir ki, "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 77 faizini təşkil edib. 2023-cü ilin may ayında isə "Azərkosmos" dünyanın 40 ölkəsinə 1,6 milyon ABŞ dolları dəyərində xidmət ixrac edib.

Qeyd edək ki, 2023-cü ilin yanvar-may ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə 2,2 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 1,7 milyon ABŞ dolları ilə Lüksemburq, 689,8 min ABŞ dolları ilə BƏƏ, 430,8 min ABŞ dolları ilə Almaniya və 363 min ABŞ dolları ilə Pakistan qərarlaşıb.

***"Xalq qəzeti"***



# Qeyri-neft ixracı 22,1 faiz çoxalıb

**Cari ilin yanvar-may ayları ərzində Azərbaycanın ümumi ixracı 16,1 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə 1,5 milyard ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 22,1 faiz artıb.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın iyun sayında bildirilir ki, 5 ay ərzində yeyinti məhsulları üzrə ixrac 334,4 milyon ABŞ dollarına bərabər olub. Hesabat dövründə spirtli və spirtsiz içkilərin ixracı 5,9 dəfə, şəkər ixracı 43,8 faiz, meyvə-tərəvəz ixracı isə 10,4 faiz artıb.

2023-cü ilin yanvar-may ayları ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 16,9 faiz artaraq 349,1 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 55,8 faiz artaraq 92,2 milyon ABŞ dolları təşkil edib.

***"Xalq qəzeti"***

# 5 ayda 32 milyon manat aqrar kredit verilib

**2023-cü ilin yanvar-may aylarında Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 31,7 milyon manat kredit verilib. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, güzəştli kreditlər 2 min 156 fiziki və hüquqi şəxsə verilib.**

Qey edək ki, kənd təsərrüfatı sahəsində çalışan fermerlərin təxminən 80 faizi kiçik və orta ailə–kəndli təsərrüfatlarına aiddir. Onların istifadəsində, ümumilikdə, 230 min hektar torpaq sahəsi var. Bu fermerlərin maliyyəyə çıxışı əsasən dövlət tərəfindən onlara ayrılan subdsidiyalar, güzəştli kreditlər və müxtəlif banklar tərəfindən təqdim olunan kommersiya kreditləri formasındadır.

***"Xalq qəzeti"***

# Laçın sərhəd-buraxılış məntəqəsi xarici diplomatların gözü ilə




**(əvvəli 1-ci səhifədə)**

## Sərhəd-gömrük buraxılış məntəqəsində nə baş verib?

Yenidən qurulan, abadlaşan Laçınla tanış olan 33 ölkənin və 10 xarici təşkilatın, ümumilikdə, 60-a yaxın diplomat və hərbi attaşesindən ibarət heyət əvvəlcə Ermənistanla Azərbaycan arasında Laçın sərhəd-gömrük buraxılış məntəqəsinin yerləşdiyi körpüdə oldu. Onlara Ermənistanın bir sərhədçimizin yaralanması ilə nəticələnən son təxribatları haqqında məlumat verildi. Bu pozuculuq aksiyasına qədər Xankəndidə yaşayan erməni əsilli sakinlərin sərhəd-keçid məntəqəsindən heç bir maneə olmadan istifadə etdikləri bildirildi. Eyni zamanda, hazırda da Beynəlxalq Qırmızı Xaç təşkilatının vasitəçiliyi ilə tibbi evakuasiya təyinatlı keçidə sərbəst şərait yaradıldığı, başqa sözlə, bəzi dairələrin iddia etdiyi kimi, yolun bağlı olmaması vurğulandı. Sadəcə, bu məntəqədə Ermənistanın son təxribatı ilə bağlı müvəqqəti istintaq tədbirlərinin həyata keçirildiyi qeyd edildi.

Ermənistan tərəfinin sərhəd-gömrük buraxılış məntəqəsindəki hazırkı vəziyyətdən böhtan təbliğatı vasitəsi kimi istifadə etməsi də xarici diplomatların diqqətinə çatdırıldı. Muzdlu Avropa siyasətçilərinin isə gəlib körpünün digər hissəsində həqiqəti əks etdirməyən birtərəfli məlumatlar paylaşdıqları, bu vəziyyətdən çirkin kampaniya üçün yararlanmağa çalışdıqları vurğulandı.

Yeri gəlmişkən, diplomatlarla görüşdə məlumat verildi ki, Laçın sərhəd-buraxılış məntəqəsində gündəlik əsasda erməni sakinlərin hər iki istiqamətə şəffaf, təhlükəsiz və nizamlanan keçidi üçün müvafiq şərait yaradılıb. Aprelin 23-dən etibarən yüzlərlə erməni sakinin keçidi təmin olunub. Şübhəsiz ki, bu cür şəraitin – erməni sakinlərlə sərhədçilərimiz arasında normal ünsiyyətin formalaşması revanşistlərin xoşuna gəlməyib və iyunun 15-də qarşı tərəf keçid məntəqəsini atəşə tutub. Nəticədə bu, Laçın sərhəd-buraxılış məntəqəsindən təhlükəsiz keçidə maneə törədib. Sadəcə, düşmənin təxribatçı atəşlərinin hədəfində fəaliyyət nikbin deyil.

Görüşdə Azərbaycan tərəfinin hazırda sərhəd məntəqəsindən təhlükəsiz keçidə mane olan Ermənistanın bu hücumunu araşdırmaq məqsədilə müvafiq tədbirlər gördüyü açıqlandı. Eyni zamanda, Ermənistanın gələcəkdə belə təxribatlarının təkrarlanmayacağına dair Azərbaycan tərəfinə müvafiq zəmanət verməsinin zəruri olduğu qeyd edildi.

## Laçın doğmalarına qovuşur…

Azərbaycandakı diplomatik korpusun üzvləri Laçın şəhərinin 1 Dekabr küçəsində salınan ilk yaşayış məhəlləsində artıq yurd-yuvasına geri dönmüş sakinlərlə söhbət etdilər.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, ötən aydan keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə qayıdışı başlayıb. 31 illik həsrətdən sonra laçınlı ailələrin ilk qrupu mayın 28-də doğma yurdlarına dönüb. Xoşbəxtliyinə qovuşmuş 3 soydaşımızla ayaqüstü söhbət etdik.

**İpək Təhməzova:**

– Laçın işğal ediləndən sonra Pirəkəşkül kəndindəki hərbi şəhərcikdə məskunlaşdıq. Həyat yoldaşım işğaldan əvvəl dünyasını dəyişmişdi. Mən isə dörd uşaqla birlikdə məcburi köçkün həyatı yaşamağa başladım. O vaxtdan ötən müddətdə daim Laçını arzuladıq. Ulu öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıdandan sonra həyat şəraitimiz xeyli yaxşılaşdı. Onun sayəsində güzəşt və imtiyazlardan istifadə etməyə başladıq. Məhz onun sayəsində məcburi köçkünlərin sosial təminatı dəfələrlə artdı, sosial baxımdan biz cəmiyyətdən ayrı düşdüyümüzü hiss etmədik, hüquqlarımızın təmin edilməsi dövlət üçün önəmli məsələ oldu. Amma bütün bu illər ərzində qayıtmaq ümidimizi də itirmədik.

Mən Laçını, evimizi, bu dağları, meşələri, uşaqlığımı daim xatırlamışam. Dəfələrlə yuxudan göz yaşları içində oyanmışam. Bu, mənim üçün çox ağrılı idi, çünki mən təkcə evimdən deyil, həm də doğmalarımın ruhu dolaşan məzarlarından aralı düşmüşəm.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ordumuz növbəti erməni təxribatından sonra əks-hücum hərbi əməliyyatına başladı. Vətən müharibəsində dövlət başçısının daha bir qəsəbənin, kəndin, şəhərin, rayonun işğaldan azad ediləcəyi ilə bağlı hər açıqlaması bizdə Laçını qayıdacağımız ümidini daha da gücləndirdi. Bir ay əvvəl Laçına qayıtmaq təklifi alanda isə hədsiz sevinclə toplaşıb doğma şəhərimizə yola düşəcəyimiz saatı gözlədik. Allaha şükürlər olsun ki, bu an gəlib çatdı. Xoşbəxt adamam ki, yenidən doğulduğum yurda gələ bildim, indi doğma torpağımda rahat ölə bilərəm...

**Azad Nəsibov:**

– Laçından çıxanda 27 yaşım var idi. İndi 58 yaşım var. Laçının bu gününə şahidlik etdiyim üçün özümü çox xoşbəxt sanıram. Şəhər məni səmimi qarşıladı. Mən Laçından utandım, xəcalət çəkdim. Əhd etmişdim ki, şəhərə xeyli qalmış maşından düşüb bura piyada gəlim. Elə də etdim. Sevinc hissləri yaşadım. Sevindim ona görə ki, 31 ildən sonra ata-baba yurduma, doğulduğum od-ocağıma qovuşmuşam. Kədərləndim ona görə ki, uzun illər ev-eşiyimə həsrət qalmışam.

Kimisi gəncliyini, kimisi də uşaqlıq illərini qoyub çıxmışdı Laçından. Burada ilk gecəni yata bilmədim. Səhərə qədər uşaqlıq xatirələrim gözümün önündə canlandı.

**Solmaz Abbasova:**

– Laçın düşmən əsarətində qaldığı illərdə bu yerlərə dönməyi, havasını ciyərlərimə çəkməyi, bulaqların bumbuz suyundan doyunca içməyi həmişə həsrətlə arzulamışam. Bu yurdu, bu ocağı bir də görə biləcəyim günün ümid-inamı ilə ömür sürmüşəm. Ailəmiz ötən illərdə dövlətimizin hərtərəfli qayğısı ilə təmin olunsa da, yurdu bir gün də olsun unutmayıb. Laçınsızlıq ağrısı ilə baş-başa qalıb, bu nisgillə nəfəs-nəfəsə yaşayıb.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə Laçında tikinti, bərpa-quruculuq işləri sürətlə həyata keçirilir. Şəhər canlanır, əvvəlkindən də gözəl görkəm alır. Hər bir laçınlının dağıdılan, xaraba qoyulan evi demək olar ki, təzədən tikilib onların istifadəsinə verilir. Biz bu günü həsrətlə, intizarla gözləyirdik. Başda dövlətimizin başçısı İlham Əliyev olmaqla bu işləri görən hər kəsə minnətdarlığımızı bildiririk. Şəhidlərimizin ruhu qarşısında baş əyirik, qazilərimizə şəfa diləyirik.

Bəli, uzun illərdən sonra Laçına qayıtdıq. Bizi bu torpaqdan, bu od-ocaqdan zorla ayırmışdılar. Allaha şükürlər olsun ki, geri dönüb bu günləri də gördük. Bura mənim ata evimdir, burada yaşamışam, böyümüşəm, uşaqlıq illərim bu evdə keçib. İndi qapımız yenə laçınlılar tərəfindən döyülür, köhnə qonşularımız gəlirlər, söhbətləşirik, keçmişi yad edirik...



## XXI əsrin Laçını yaradılır

Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər nəticəsində imzalanan üçtərəfli Bəyanatın şərtlərinə əsasən, Laçın rayonu 2020-ci il dekabrın 1-də hərbi əməliyyat keçirilmədən, siyasi yolla işğaldan azad edilərək Azərbaycanın yurisdiksiyasına qaytarıldı. Bundan sonra isə əsas diqqət rayonun düşməndən təmizlənən ərazilərinin bərpasına yönəldildi. Azadlığına qovuşan Laçında genişmiqyaslı bərpa və quruculuq işlərinə başlanıldı. Lakin Laçın şəhəri və Zabux və Sus kəndləri Rusiya sülhməramlı qüvvələrinin məsuliyyət zonasında qaldı. Onu da qeyd edək ki, Prezident İlham Əliyevin apardığı danışıqlar nəticəsində yeni yolun çəkilməsindən sonra adları çəkilən yaşayış sahələrinin geri qaytarılacağı da qərara alındı. Yolun razılaşdırılması üçün üç il vaxt müəyyənləşdirilsə də, bu proses ilyarım ərzində başa çatdırıldı və ötən il avqustun əvvəlində artıq Laçında yaşamış ermənilərə və Rusiya sülhməramlı qüvvələrinə bu ərazidən çıxmaları barədə bildiriş göndərildi.

Nəhayət, 2020-ci il avqustun 25-də sonuncu erməni işğalçı Laçını tərk etdi və avqustun 26-da Laçın əsil sahibinə qaytarıldı. Elə həmin vaxtdan etibarən Laçın şəhərində, eləcə də Zabux və Sus kəndlərində də tikinti-abadlıq layihələrinin gerçəkləşdirilməsinə başlanıldı.

Beləliklə, ötən dövr ərzində Laçın şəhərində və rayonun kəndlərində bir sıra strateji infrastruktur obyektləri işə salınıb, yenilərinin təməli qoyulub. Bununla da düşmənin darmadağın etdiyi, xarabalığa çevirdiyi Laçın rayonunda bərpa və quruculuq işlərinin sürəti getdikcə yüksəlib, şəhərdə həyat yenidən qaytarılıb. Azadlığına qovuşan Laçın doğmalarına qovuşub...

Prezident İlham Əliyev mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşü zamanı dövlətimizin başçısı nitqində şəhərin simasının dəyişməsinin iqtisadiyyatımızın dinamik inkişafından xəbər verdiyini, müstəqilliyimizin nə qədər güclü olmasını bir daha göstərdiyini vurğuladı. Ölkə rəhbəri dedi: “Cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub və sakinlərin sərəncamına verilir. İlk 20 ailə artıq dünəndən Laçında yerləşib və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Beləliklə, birinci mərhələdə Laçında 4 minə yaxın, bəlkə də çox insan yaşayacaq”.

Bütün bunlar Laçın şəhərinin Baş planında da öz ifadəsini tapıb. Prezident İlham Əliyevə təqdim olunan həmin layihədə nəzərdə tutulan tədbirlər və görülən işlər barədə məlumat verilib. Bildirildi ki, Baş plan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Bakı Dövlət Layihə İnstitutu tərəfindən beynəlxalq məsləhətçi şəhərsalma qrupu – İsveçrənin “SA Partners” şirkətinin iştirakı ilə hazırlanıb.

Şirkətin həmtəsisçisi və tərəfdaşı Dunya Kovari-Binggeli bildirib ki, Laçının özünəməxsus füsunkar təbiəti və rəngarəng landşaftı şəhərin turizm məkanı kimi inkişaf etdirilməsinə, fəal rekreasiya, idman, açıq hava istifadəsi və sağlam həyat imkanları olan cəlbedici regional mərkəzə çevrilməsinə şərait yaradacaq. Beynəlxalq hava limanının yaxınlığında, beynəlxalq və respublika əhəmiyyətli bir sıra avtomobil yollarının kəsişməsində yerləşdiyi üçün şəhər regiona giriş qapısı funksiyasını daşımaqla çoxşaxəli inkişaf istiqamətlərinə malik olacaq. Laçın şəhərinin mövcud planlaşdırma strukturunun saxlanılması və bərpası, o cümlədən yeni yaşayış ərazilərinin inkişaf etdirilməsi əsas hədəf götürülməklə zonalaşdırılıb. Növbəti 20 il ərzində şəhər ərazisinin genişlənərək 713 hektara, əhali sayının isə 18 min nəfərə çatacağı proqnozlaşdırılıb.

## Ənənəvi məşğulluq dirçəldilir

Laçın şəhəri azad edilən gündən burada bərpa-quruculuq layihələri sürətlə aparılıb. Baş plana əsasən, təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş, təxminən, 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib.

Bununla yanaşı, gələcəkdə çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binalar tikiləcək. Şəhərdə müasir xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Planlaşdırmada tətbiq edilmiş “15 dəqiqəlik şəhər” prinsipi isə yaşayış məhəllələrinin, gündəlik tələbat obyektlərinin yaxın məsafədə olmasını və aşağı sürətli yol infrastrukturunun təşkilini nəzərdə tutaraq sakinlərin və qonaqların şəhər daxilində rahat hərəkətini təmin edəcək.

Əhalinin məşğulluğunun təşkili rayonun tarixi təsərrüfat ənənələrinə əsaslanır. Belə ki, yaxın gələcəkdə burada ekoloji və səmərəli kənd təsərrüfatı, tikinti, yüngül və qida sənayesi, balıqçılıq, tingçilik və digər sosial xidmət sahələrinin inkişafı nəzərdə tutulur.

Xatırladaq ki, ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq yerli ənənələrə, müasir yanaşmalara əsaslanan və Laçın şəhərinin özünəməxsus simasının formalaşdırılmasında istifadə ediləcək memarlıq layihələri həyata keçiriləcək.

Laçın Aqro və Sənaye Parkı Laçının iqtisadi dirçəlişi və əhalinin məşğulluğu baxımından xüsusi əhəmiyyətə malikdir. Kompleks tezliklə nəinki Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının, eləcə də ölkəmizin iqtisadi inkişafına öz töhfəsini verəcək. Laçında iqtisadi inkişafın təmin edilməsi və məşğulluğun artırılması məqsədilə parkda 6 istiqamət - qida sektoru, sənaye, ekoistehsalat, yaradıcılıq və tekstil, tədris, turizm və xidmət üzrə 1200-ə yaxın yerinin yaradılması nəzərdə tutulub.

Aqro və Sənaye Parkında ümumilikdə 46 müəssisənin yaradılması planlaşdırılır. Bu kompleksdə yaradılacaq iş yerlərində 850 nəfər Laçın sakini işlə təmin olunacaq. Onlardan 226 nəfəri artıq işə cəlb edilib. İşçilərin əksəriyyəti Türkiyə və Azərbaycanın peşə məktəblərində təhsil alıblar.

## İnsan nəfəsi bu gün dağa-daşa da can verir

Bu gün Laçın Azərbaycan dövlətinin və xalqının quruculuq əzminin daha bir nümunəsinə çevrilir. Mübaliğəsiz demək olar ki, şəhər əsl tikinti meydançasını xatırladır. Həkəri çayının ətrafında bulvar salınır. Kompleks tikinti işləri zamanı kommunikasiya sahələrinin də paralel olaraq inşası davam edir.

Laçında kommunikasiya layihələri sürətlə icra olunur. Bu istiqamətdə aparılan işlər müasir tələblərə tam cavab verir. Müasir avadanlıqlardan və yeni materiallardan istifadə etməklə reallaşdırılan tədbirlər sakinlərə göstərilən xidmətin daha keyfiyyətli olacağını deməyə əsas verir.

Bəzi fərdi yaşayış evlərinin də yaxın vaxtlarda təhvil veriləcəyi nəzərdə tutulur. Hazırda 600-ə yaxın ev təmir edilir, son tamamlama işləri aparılır.

Laçında evlərlə yanaşı, inzibati binaların, obyektlərin tikintisi də diqqətdə saxlanılır. İşğal zamanı ermənilərin dağıdaraq məhv etdiyi təhsil müəssisələri də yenidən qurulur.

Laçın şəhəri azad edildikdən dərhal sonra təmir-bərpa işlərinə başlanılan ən mühüm obyektlərdən biri də xəstəxanadır. Həmin səhiyyə müəssisəsi ən son müasir tibbi avadanlıqlarla təmin olunub. Hazırda xəstəxananın tibbi personalı burada çalışan işçilərlə bərabər məskunlaşan sakinlərin də tibbi ehtiyaclarını qarşılayır. Eyni zamanda şəhərin əsas mərkəzi xəstəxanasının da tikinti işləri davam edir.

Qəsbkarlıq dövründə ermənilər qədim tikililəri də məhv ediblər. Şəhərin mərkəzində olan bu cür tarixi yerlər bərpa işləri zamanı əvvəlki görkəmi saxlanılmaqla restavrasiya olunur.

Şəhərin mərkəzi küçələrindən biri ulu öndərimiz Heydər Əliyevin adını daşıyır. Layihəyə uyğun olaraq həmin küçədə bərpa prosesi xüsusi həssaslıqla aparılır. Küçənin açıq hava muzeyi kimi saxlanılması nəzərdə tutulur. Buranın təkcə rayon sakinlərinin deyil, həmçinin turistlərin də cəlb ediləcəyi bir məkana çevrilməsi nəzərdə tutulur. Avtomobillərin girişinin tam məhdudlaşdırılacağı həmin küçədə, sakinlərin gəzintisi üçün park, həmçinin amfiteatr, konsert zalı kimi məkanların tikintisi planlaşdırılır.

## Zabux da yenidən qurulur

Laçın rayonuna səfər çərçivəsində xarici diplomatlar 245 ailəlik (birinci mərhələdə 223 ailəlik) Zabux kənd yaşayış məntəqəsində həyata keçirilən tikinti-quruculuq işləri ilə də tanış olublar. Qonaqlara kənddə aparılan işlər barədə ətraflı məlumat verilib. Bildirilib ki, Zabux kəndinin ümumi ərazisi 80,9 hektar, planlaşdırılan ərazisi isə 64,30 hektardır. Zabux çayının mühafizə zonasının 14,68 hektar olması nəzərdə tutulub.

Layihəyə əsasən, ərazidə 53 ədəd ikiotaqlı, 116 ədəd üçotaqlı, 28 ədəd dördotaqlı, 26 ədəd beşotaqlı mənzil tikilib. Həmçinin kənddə kənd inzibati mərkəzinin, 50 yerlik uşaq bağçasının, ümumtəhsil məktəbinin, rekreasiya və məşğulluq zonasının, su anbarının və digər təyinatlı binaların tikintisi aparılır.

## Səfirlərin görüb-götürdükləri

**Kayrat Osmonaliev,**
**Qırğızıstanın Azərbaycandakı səfiri:**

– Bu, mənim Laçına ilk səfərimdir. Buraya gəlib bu şəhəri gözlərimlə görmək fürsətinə görə, Azərbaycan dövlətinə təşəkkürümü bildirmək istəyirəm. Çünki bildiyimiz kimi, Laçın uzun illər işğal altında olub. Burada dinc həyatın artıq bərqərar olduğunu sübut edən dəyişiklikləri görmək çox xoşdur. Laçın xüsusilə də ilin bu fəslində kurort şəhərinə çox bənzəyir. Buradakı tikililər və infrastruktur ən yüksək dünya standartlarına uyğundur. Bu, məni yaxşı mənada təəccübləndirir.

Yeri gəlmişkən, qeyd edim ki, ötən il Qırğızıstan Prezidentinin Azərbaycana və Azərbaycan dövlət başçısının Qırğızıstana səfərləri zamanı müzakirə edilən məsələlərdən biri infrastruktur layihələrinin reallaşdırılmasında ölkəmizin maraqlı olması olması ilə bağlı idi. Çünki bu, həm regionları, həm də ikitərəfli münasibətləri yaxınlaşdırır və inkişaf etdirməyə kömək göstərir. Biz Azərbaycanla həm ikitərəfli əsasla, həm də müxtəlif beynəlxalq platformalarda və Türk dünyası çərçivəsində əməkdaşlıq edirik.

Qarabağ təkrarolunmaz iqlim və şübhəsiz ki, tarixi ilə fərqlənən xüsusi regiondur. Bizim üçün münasibətlərimizi bu şəkildə inkişaf etdirmək çox vacibdir. Zəngəzur dəhlizinin logistik imkanları çox böyük əhəmiyyət kəsb edir. Buna görə də biz regional sabitliyin, təhlükəsizliyin daha da möhkəmləndirilməsinin, logistik potensialın inkişafının tərəfdarıyıq.

**Alim Bayel,**
**Qazaxıstanın ölkəmizdəki səfiri:**

– Biz bu gün xarici səfirlər olaraq Azərbaycanın ən gözəl rayonlarından sayılan Laçına gəlmişik. Burada artıq tikinti-quruculuq və abadlıq işləri görülür. Biz şəhərə – doğma yurdlarına qayıtmış sakinlərlə görüşdük. Rayonun həm təbiəti çox gözəldir, həm də iqtisadi potensialı böyükdür. Ümid edirik ki, bölgəyə tezliklə sülh və inkişaf gələcək. Çünki bu, hər birimiz üçün çox önəmlidir.

Laçın rayonunun sakinlərinin bir hissəsi artıq öz doğma yurdlarına qayıdıblar. Bizim onlarla söhbət etmək imkanımız da oldu. Sevindik ki, onlar yurdlarına qayıdıblar. Laçının gözəl təbiəti var və bu rayon böyük iqtisadi potensiala malikdir.

**Rüstəm Soli,**
**Tacikistanın Azərbaycandakı səfiri:**

– Azərbaycanın işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı yenidənqurma işlərinin aparıldığını müşahidə edirik, Qarabağda çox böyük əhəmiyyətli layihələr həyata keçirilir.



Bu gün yenidən Qarabağda səfərdəyəm. Burada böyük dəyişikliklərin şahidi oluruq. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı bərpa işləri aparılır və onlar uğurla həyata keçirilir. Bu, dinc həyatın getdikcə bərqərar olunduğundan xəbər verir. Laçına qayıdanların yaxşı şəraitdə yaşayacaqları da heç bir şübhə doğurmur.

***

Azərbaycanda akkreditə olunmuş xarici diplomatlar səfərin sonunda Zəngilanın Ağalı kəndində oldular. Burada qonaqlara Ağalıda tətbiq olunan “ağıllı kənd” konsepsiyası haqqında ətraflı məlumat verildi.

Daha sonra diplomatlar ağalı sakinləri ilə gün-güzəranları barədə söhbət etdilər. Hazırda kənddə 420 sakinin yaşadığı bildirilib.

Xarici diplomatlar Qarabağa və Şərqi Zəngəzura qayıdışın ilk uğurlu addımları ilə yerindəcə tanış olmaq imkanını yüksək dəyərləndirdilər, razılıqlarını və məmnunluqlarını ifadə etdilər.

*Vaqif BAYRAMOV,*
*“Xalq qəzeti”*

**Bakı-Zəngilan-Laçın-Bakı**

Akademik Cəlal Əliyev – 95

# Aqrar və biologiya elmlərinin unudulmaz himayədarı

**Azərbaycanın biologiya və aqrar elmlərinin inkişafı və nailiyyətləri ilə yaxından tanış olan hər bir şəxsə məlumdur ki, bütün bunların arxasında əldə etdiyi nəzəri və tətbiqi elmi nəticələri sayəsində dünyanın tanınmış elm korifeyləri ilə bir sırada dayanan görkəmli alim, akademik Cəlal Əliyev şəxsiyyəti durur.**



Azərbaycanda biologiya və aqrar elmlərinə aid olan bütün sahələrin istiqamətləndirilməsində, müvafiq tədqiqatlara müasir elm sahələrinin, o cümlədən, biotexnologiya və informasiya texnologiyalarının cəlb olunmasında və bu günə kimi əldə olunmuş nailiyyətlərdə müstəsna rol dünya şöhrətli alim, elm fədaisi akademik Cəlal Əliyevə məxsus olmuşdur. Bu nəhəng elm patriarxının yaradıcılığı Azərbaycanda aqrar və biologiya elmlərinin inkişaf tarixinin zirvəsidir.

1970-ci illərdən başlayaraq akademik C.Əliyevin bilavasitə rəhbərliyi və yaxından köməyi sayəsində Azərbaycanda həyata keçirilən “yaşıl inqilab” dalğası region ölkələrini də əhatə etmişdir. Hətta “Qaraqılçıq-2”, “Mirbəşir-50”, “Vüqar”, “Şiraslan-23”, “Tərtər”, “Bərəkətli-95”, “Əlincə-84”, “Ruzi-84” və başqa buğda sortları Özbəkistan, Türkmənistan, Gürcüstan və s. respublikalarda tətbiq olunmuş və hər hektardan 60-95 sentner məhsul götürülməsini təmin etmişdir. Bu sahədə akademikin CIMMYT və ICARDA ilə birgə apardığı tədqiqatlar xüsusi diqqətə layiqdir.

Cəlal müəllimin yaratdığı sortların kənd təsərrüfatında tətbiqi onların diversifikasiyasına, əhali, fermerlər və kənd təsərrüfatı müəssisələri tərəfindən becərilən bitkilərin və onların sortlarının qorunmasına və müxtəlifliyinin artırılmasına ən böyük dəstəkdir.

Onun bitki genetik ehtiyatlarının milli və dünya genefondunun səmərəli istifadəsi sahəsində apardığı genişmiqyaslı fundamental tədqiqatları milli genefondun zənginləşdirilməsində, ərzaq təhlükəsizliyinin təmin edilməsi və xalqın rifah halının yüksəldilməsi ilə davamlı inkişafa nail olunmasında, eləcə də bioloji ehtiyatların etibarlı mühafizə edilməsində əvəzsiz rol oynamışdır.

Cəlal Əliyevin seleksiya proqramı da çoxcəhətli və hərtərəfli idi. Bu proqram daim fəaliyyətdə və inkişafda olan, təkrarolunmaz, hissələri bir-birini tamamlayan, dayandırılması və ya zəiflədilməsi mümkün olmayan bir mexanizm, bir sistem xarakteri daşıyırdı.

Lakin 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Qarabağ müharibəsinin və keçid dövrünün yaratdığı problemlər, Sovetlər Birliyinin dağılması nəticəsində elmi əlaqələrin zəifləməsi, akademik Cəlal Əliyevə və yetirmələrinə olan yersiz təzyiqlər biomüxtəlifliyin mühafizəsi və səmərəli istifadəsi ilə bağlı tədqiqatlara da öz mənfi təsirini göstərdi. Uzun illər ərzində yaradılmış maddi-texniki bazanın dağıdılması, əvəzində heç bir yeni avadanlığın alınmaması, material ehtiyatlarından səmərəsiz istifadə həmin dövrdə tədqiqat sistemində tənəzzülün yaranmasına gətirib çıxardı.

Məhz bu mürəkkəb illərdə akademik Cəlal Əliyev hər cür təqib və təzyiqlərə rəğmən, seleksiya proqramını həyata keçirmək üçün alim kollektivini öz ətrafında sıx birləşdirərək ruhdan düşməyə qoymamışdır. Çətinliklərə baxmayaraq, həmin illər milli genefondun istifadəsi ilə aparılan seleksiya işləri nəticəsində yüksək məhsuldar "Qaraqılçıq-2", "Mirbəşir-50", "Tərtər" və "Vüqar" bərk buğda sortları yaradılmış və rayonlaşdırılmışdı.

Ölkənin ağır günündə xalqın tələbi ilə ulu öndər Heydər Əliyev respublika rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycanın dirçəlməsi dövrü başlandı. 1990-cı illərin ikinci yarısında elmə qoyulan tələblər dəyişilməkdə idi. Ulu öndərin tam gücü ilə vüsət almış torpaq islahatları bazar münasibətlərinə keçidi dönməz prosesə çevirdi. Elmin obyekti dəyişdi, eyni zamanda, problemin aşkarlanması və onun həllinə yeni təfəkkürlə yanaşılması tələb olundu.

Cəlal müəllimin məsləhətləri əsasında 2007-2011-ci illərdə həyata keçirilmiş aqrar Tədqiqat Sisteminin modernləşdirilməsi proqramı çərçivəsində kənd təsərrüfatında məhsuldarlığın və məhsulun keyfiyyətinin yaxşılaşdırılması üçün fermerlərin tətbiqi texnologiyalara və yeni sortların toxumlarına çıxış imkanlarını gücləndirmək mümkün oldu. 2007-ci ildən sonra Elmi-Tədqiqat Əkinçilik İnstitutunda yaradılan on yeni sort (6 yumşaq buğda, 1 bərk buğda, 1 arpa, qarğıdalı, 1 mərcimək və 1 yerfındığı sortu) Seleksiya Nailiyyətlərin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyasında rəsmi qeydiyyatdan keçərək rayonlaşdırıldı. Fermerlər tərəfindən əvvəllər geniş sahələrdə əkilən sortlar 2010-cu ildən yeni sortlarla sürətlə əvəzlənməyə başlandı. Bunlara akademik Cəlal Əliyevin rəhbərliyi ilə yaradılmış və qeydiyyatdan keçmiş “Qobustan”, “Tale-38”, “Əzəmətli 95”, “Ruzi 84”, “Aran”, “Qırmızı gül”, “Zirvə-85”, “Qızıl” buğda sortları daxildir. Qeyd edilən sortlar bölgə təcrübə stansiyalarında və bir çox fermer təsərrüfatlarında hər hektardan orta hesabla 5 tondan artıq məhsul verirdi.

“2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair “Dövlət Proqramı”nın əsas hədəf göstəricilərində ölkə üzrə dənli bitkilərin əkin sahələrini 900 min hektara, məhsuldarlığı hektardan 3,2 tona, ümumi istehsalı 2,8 milyon tona çatdırmaq nəzərdə tutulurdu. Bu məqsədlə yeni məhsuldar sortların yaradılması, sınaqdan keçirilməsi və rayonlaşdırılması, həmçinin yeni istehsal texnologiyalarının tətbiqinə xüsusi önəm verilirdi. Akademik Cəlal Əliyevin rəhbərliyi ilə xarici ölkələrin alimləri, FAO-nun və İCARDA-nın dəstəyi ilə ilk dəfə olaraq ölkədə bir ildə 2 dəfə məhsul alınması texnologiyası tətbiq edilmiş, minlərlə fermer bu texnologiyalar barədə məlumatlandırılmışdı.

Yarım əsrdən çox bir müddətdə akademik bitkilərin genetik müxtəlifliyinin keşiyində olmuşdur. Cəlal Əliyevin təşəbbüsü ilə Bioloji Müxtəlifliyə dair Beynəlxalq Konvensiya Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 2000-ci ildə ratifikasiya olunmuşdur.

1995-ci ildə akademik C.Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə respublikanın müstəqillikdən sonrakı vəziyyəti əks etdirmək üçün bitki genetik ehtiyatlarının ətraflı təhlili əsasında I ölkə məruzəsi hazırlanmış, FAO-ya təqdim edilərək beynəlxalq ekspertlər tərəfindən təhlillərin dərinliyi və irəli sürülən müddəaların istifadəsi baxımından çox yüksək qiymətləndirilmişdir. Onun Milli Proqramın hazırlanmasında və ölkədə BGE üzrə strateji xəttin müəyyənləşdirilməsində göstərdiyi iradə və elmi uzaqgörənlik sonrakı on il ərzində öz bəhrəsini vermiş, genetik ehtiyatların toplanması, artırılması və saxlanılması sahəsində böyük işlər görülmüşdür. Bütün bu işlər beynəlxalq ekspertlər tərəfindən yüksək qiymətləndirilmiş və Azərbaycan FAO-ya qəbul olunmuşdur.

Genetik ehtiyatlarla bağlı kompleks tədbirlərin reallaşdırılmasını təmin etmək məqsədilə ümummilli lider Heydər Əliyev 21 dekabr 2001-ci il 848 saylı Sərəncamla Dövlət Komissiyası yaratmışdır. Akademik Cəlal Əliyevin rəhbərliyi ilə 2004-cü ildə Biomüxtəlifliyə dair I ölkə məruzəsi, Bioloji Müxtəlifliyin Mühafizəsi və Səmərəli İstifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı hazırlanmış, 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti, Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmişdir.

Təbiətcə böyük islahatçı, novator alim və təşkilatçı olan Cəlal müəllim genetik ehtiyatlarla bağlı hərtərəfli elmi fəaliyyətləri və koordinasiya işlərini gücləndirməyi, Azərbaycanda ilk dəfə olaraq genetik bank yaratmağı, genetik ehtiyatların toplanması, inventarlaşdırılması, mühafizəsi və səmərəli istifadəsinin elmi əsaslarının hazırlanmasını və tətbiqini həyata keçirməyi qarşıya bir məqsəd kimi qoymuşdu. Məhz akademik Cəlal Əliyevin təşəbbüsü və uzaqgörənliyi sayəsində 2003-cü ildə AMEA Genetika və Seleksiya İnstitutunun bazasında bu məqsədlərin həyata keçirilməsində həlledici rol oynaya biləcək bir mərkəz – Genetik Ehtiyatlar İnstitutu və daha sonralar onun strukturunda Milli Genbank yaradılmışdır.

Əlamətdar haldır ki, Cəlal müəllimin neçə illərdən bəri uğrunda çalışdığı və istiqamətverici tövsiyələri nəzərə alınmaqla hazırlanmış “Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında” Qanun 2011-ci ildə Milli Məclis tərəfindən qəbul edilmişdir.

Cəlal müəllimin çox böyük önəm verdiyi ən vacib məsələlərdən biri yüksək ixtisaslı kadrların hazırlanması idi. Multidissiplinar istiqamətdə innovativ tədqiqatların aparılması məqsədilə 70-ci illərdən başlayaraq müxtəlif ixtisaslar: biologiya, kimya, fizika, riyaziyyat, aqronomiya və b. üzrə ali məktəb məzunlarından ibarət elmi kollektivin hazırlanmasına başlanmışdır.

Cəlal Əliyevin elmi və ictimai xidmətləri qədirbilən Azərbaycan xalqı və dövləti tərəfindən də yüksək qiymətləndirilmişdir. Elmin inkişafında böyük xidmətlərinə görə o, Azərbaycanın Əməkdar elm xadimi adını almış, iki dəfə Qırmızı Əmək Bayrağı ordeni (1972, 1986), Azərbaycan Respublikasının ali mükafatı – “İstiqlal” ordeni (2003), Gürcüstan Respublikasının “Şərəf” ordeni (2003), Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu (2008) və Azərbaycan Respublikasının “Şərəf” ordeni (2013) ilə təltif olunmuşdur.

Görkəmli ictimai xadim dörd çağırış (1995, 2000, 2005, 2010) Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir.

Akademik Cəlal Əliyev Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının (1995), Ukrayna Aqrar Elmləri Akademiyasının, Belarus Respublikası Aqrar Elmləri Akademiyasının (1996) xarici üzvü; Bitkilərin Molekulyar Biologiyası Beynəlxalq Cəmiyyətinin (1994); Fotosintez Tədqiqatları üzrə Beynəlxalq Cəmiyyətin (1995), Yaponiya Bitki Fizioloqları Cəmiyyətinin (1997), Hüceyrə stresi üzrə Beynəlxalq Cəmiyyətin (1998) üzvü idi. Cəlal Əliyev Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin üzvü; UNESCO yanında bioetika, elm və texnologiyanın etikası üzrə Milli Komitənin rəhbəri (1999); Yeni Bitki Sortlarının Qorunması üzrə Beynəlxalq Cəmiyyətin (UPOV) səlahiyyətli nümayəndəsi (2004); Azərbaycan Biokimyaçılar və Molekulyar Bioloqlar Cəmiyyətinin sədri (1999); Biologiya Elminin Yeni Sahələrinin İnkişafı Fondunun (BEYSİF) prezidenti (1994) idi.

Akademik Cəlal Əliyev biologiya və aqrar elmləri sahəsində elə başlanğıclara imza atmışdır ki, onların davamlı olduğu göz qabağındadır. Görkəmli alim və müəllim tərəfindən qoyulmuş bu irs bizim üçün ən böyük töhfədir və indi də inamla davam etdirilir.

***Zeynal ƏKPƏROV,***
***AR ETN Genetik Ehtiyatlar İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü, professor, Əməkdar elm xadimi***

# Göyçayda “Aqroturizm və sosial sahibkarlıq” festivalı



**Göyçayda “GöyçayFest” adlı “Aqroturizm və Sosial sahibkarlıq” festivalı keçirilib.**

Təqdimatı Dövlət Məşğulluq Agentliyi və Gənclər Fondununun dəstəyi ilə “Göyçay İnkişaf Mərkəzi” Gənclər İctimai Birliyi “Region gənclərinin məşğulluğu üçün aqroturizmin təşviqi” layihəsi çərçivəsində gerçəkləşdirib.

Festivalda Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev və yerli təşkilatların rəhbərləri, Dövlət Məşğulluq Agentliyi idarə heyətinin sədrinin müavini Cəmaləddin Quliyev, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı rəhbərinin müavini Bariz Mehdiyev, Kənd Təsərrüfatı Nazirliyinin, Avropa İttifaqının Azərbaycan Nümayəndəliyinin əməkdaşları, “Education Hub”ın proqram meneceri Gülnarə İsmayılova, “Göyçay İnkişaf Mərkəzi” İctimai Birliyinin sədri Əzizağa Atakişiyev və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Kənd Təsərrüfatı Nazirliyi Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Göyçay Dayaq Məntəqəsində təşkil olunmuş festivalda kənd təsərrüfatı, ictimai iaşə və aqroturizm istiqamətində maraqlı subyektlərin sərgiləri təşkil edilib, aqroturizm istiqamətində fəaliyyət göstərən sahibkarların məhsulları nümayişə çıxarılıb.

Festivalın keçirilməsində məqsəd rayonda aqroturizmin və sosial sahibkarlığın inkişafına dəstək olmaq, yerli sahibkarların aqroturizmə marağını artırmaq, əhalinin məşğulluq imkanlarını genişləndirmək, gənclər üçün əlavə gəlir gətirən turizm növlərini inkişaf etdirməkdir.

***İlqar HƏSƏNOV, “Xalq qəzeti”nin bölgə müxbiri***

# BSU-da semestr imtahanları izlənilib

**Dünən Bakı Slavyan Universitetində Elm və Təhsil Nazirliyi yanında İctimai Şura, qeyri-hökumət təşkilatları və media nümayəndələrinin iştirakı ilə tədris ilinin yaz semestrinin imtahan sessiyasını izləmək məqsədilə mediatur keçirilib.**



BSU-nun rektoru Anar Nağıyev bakalavriat və magistratura səviyyələri üzrə imtahanlarda 3 min 868 tələbənin iştirak etməsi barədə qonaqlara məlumat verib. O bildirib ki, bu il ilk dəfə olaraq əsas binada keçirilən imtahanlar mərkəzləşdirilmiş qaydada təşkil edilib.

Rektor yeni tədris ilində universitetdə balkanistika ixtisasının açılacağını, bu istiqamətdə tədrisi həyata keçirmək üçün müvafiq işlər görüldüyünü vurğulayıb. Bu ixtisasın balkanşünaslıq istiqamətində yeni mütəxəssislərin hazırlanmasına, eyni zamanda, gələcəkdə həmin məzunların tədris prosesinə cəlb olunmasına imkan yaradacağını bildirib. Bu il bakalavriat səviyyəsinə “politologiya”, “tarix müəllimliyi”, “tərcümə” (rus dili-türk dili), “filologiya” (türk dili və ədəbiyyatı) ixtisaslarına, magistratura səviyyəsinə isə “menecment” (təhsil sahəsi üzrə) ixtisasına qəbul aparılır. Nəticədə, BSU-nun tələbə kontingentinin sayı 1500 nəfərə çatacaq.

Anar Nağıyev iyunun 1-dən başlayan və əyani formada təşkil olunan sessiyada bu günədək 1357 imtahanın keçirildiyini vurğulayıb. O, imtahanların müvafiq qaydalara uyğun təşkil edildiyini, şəffaf və ədalətli keçirilməsinin təmin olunduğunu bildirib. Ali məktəb rəhbəri mediatur iştirakçılarının suallarını da cavablandırıb. Sonra mediatur iştirakçıları ilk imtahanların gedişini izləyiblər.

Qeyd edək ki, BSU-da cari tədris ilinin yaz imtahan sessiyasının təşkilinə, gedişinə nəzarəti həyata keçirmək, yarana biləcək münaqişə və şikayətlərin yerində operativ həllini təmin etmək məqsədilə universitet rəhbərliyinin, valideyn şuralarının, tələbə-gənclər təşkilatlarının, mətbuat xidmətinin nümayəndələrindən ibarət “İmtahan qərargahı” yaradılıb. İmtahan sessiyasının keçirilməsi üçün əlaqədar struktur bölmələrə müvafiq tapşırıqlar verilib.

İyulun 6-dək davam edəcək sessiyada, ümumilikdə, 1416 imtahanın keçirilməsi nəzərdə tutulur.

**“Xalq qəzeti”**

# Sertifikatlaşdırma imtahanının nəticələri müəllimlərə göndərilib

**Dövlət ümumi təhsil müəssisələrində çalışan təhsilverənlərin sertifikatlaşdırılması prosesinin test imtahanı mərhələsinin nəticələri müəllimlərin şəxsi kabinetlərinə göndərilib.**

Bu barədə Təhsil İnstitutunun nəzdindəki İnsan Resursları Mərkəzindən məlumat verilib.

Müəllimlər portal.edu.az platformasında yerləşən “Sertifikatlaşdırma” bölməsinə daxil olmaqla test imtahanı nəticələri ilə tanış ola bilərlər.

Sertifikatlaşdırma prosesinin apellyasiya müraciətləri elektron qaydada həyata keçiriləcək. Təhsilverənlər qanunvericiliyin tələblərinə müvafiq olaraq 1 ay müddətində şəxsi kabinetləri vasitəsilə apellyasiya müraciəti edə bilərlər.

**“Xalq qəzeti”**

# Türkiyə ordusunun ilk azərbaycanlı generalı

## *O, həm də Cümhuriyyət dönəmində Şuşanı müdafiə etmişdi*



**1918-ci il mayın 28-də Müsəlman Şərqində ilk demokratik və yeganə parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və İstiqlal Bəyannaməsinin elan edilməsi xalqımızın böyük tarixi nailiyyəti idi. Azərbaycan xalqı özünün çoxəsirlik tarixində müstəqil dövlətini yaratdı, ictimai-siyasi quruluşun müvafiq modelini qurdu.Yenicə yaradılmış dövlətin qarşısında duran başlıca vəzifələrdən biri də ölkənin müstəqilliyini və ərazi bütövlüyünü qorumaq, daxili düşməni zərərsizləşdirmək və xarici müdaxilələrin qarşısını almaqdan ötrü silahlı qüvvələrin yaradılması idi. Milli Ordunun yaradılması vəzifəsi həyati zərurətdən irəli gəlirdi və yenicə yaradılmış dövlətin qarşısında dayanan təxirəsalınmaz vəzifələrdən biri sayılırdı.**

Müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, iqtisadi, mədəni və ən əsası isə ordu quruculuğu sahəsində əhəmiyyətli addımlar atdı. Milli Şuranın 28 may 1918-ci il tarixli qərarına əsasən, F.X.Xoyskinin sədrliyi ilə yaradılmış birinci müvəqqəti hökumətin tərkibində təsis edilmiş hərbiyyə naziri vəzifəsinə Xosrov Paşa bəy Sultanov təyin edildi.

1918-ci il iyulun əvvəllərində Azərbaycan korpusunun hissələri iki Türkiyə diviziyasının – 5-ci Qafqaz və 15-ci Çanaqqala diviziyalarının hissələri ilə birgə Nuru paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun tərkibinə daxil edildi. Başda general-leytenant Nuru paşa olmaqla, Qafqaz İslam Ordusunun qərargahı Gəncə şəhərində yerləşdirildi. Qeyd edək ki, ölkəmizdə Silahlı Qüvvələrin yaradılması son dərəcə ağır hərbi-siyasi şəraitdə aparılırdı. Belə ki, 1918-ci ilin yayında Azərbaycanda siyası vəziyyət ölkədə ikihakimiyyətliliyin mövcudluğu ilə xarakterizə edilirdi. Azərbaycanın şərq hissəsi (Bakı quberniyası) Bakı Soveti və onun icraiyyə orqanı olan Bakı XKS-yə, qərb hissəsi isə (Yelizavetpol quberniyası) Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə tabe idi.

1918-ci il iyunun 4-də Osmanlı İmperatorluğu hökuməti ilə Azərbaycan Demokratik Respublikası arasında dostluq müqaviləsi imzalandı. Həmin müqaviləyə əsasən Türkiyə tərəfindən Azərbaycana lazımi hərbi yardım göstərildi. Azərbaycan – Türkiyə qoşun hissələrinin birgə səyi nəticəsində, əsasən, ermənilərdən ibarət olan qırmızı ordunun I Qafqaz korpusunun Gəncəyə doğru hücumunun qarşısı alındı. Nazirlər Şurası 1918-ci il iyunun 19-da Azərbaycan ərazisində hərbi vəziyyətin tətbiq olunması barədə qərar qəbul etdi. Hökumətin 1918-ci il iyunun 23-də qəbul etdiyi qərarla ölkədə hərbi dövrün qanunları tətbiq olundu.

1918-ci il iyunun 26-da Müsəlman korpusunun adının dəyişdirilərək Əlahiddə Azərbaycan korpusu adlandırılması və ilk nizami hərbi hissənin yaradılması ordu quruculuğu sahəsində ən mühüm addım idi. Məhz bu qərar demokratik hökumətin öz ordusunu yaratmasına hüquqi əsas verdi. Bunun ardınca ölkədə hərbi mükəlləfiyyət – orduya çağırış haqqında fərman imzalandı. 1918-ci il dekabrın 25-də general Səməd bəy Mehmandarov hərbi nazir, Əliağa Şıxlinski isə onun müavini təyin edildilər. Qısa müddətdə ordu quruculuğu sahəsində böyük uğurlar qazanıldı və bacarıqlı milli hərbi kadrlar yetişdirildi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordunun tərkibində özünü çox istedadlı və bacarıqlı hərbçi kimi göstərmiş və sonralar Türkiyə ordusunda xidmət edərək general-mayor rütbəsinə yüksəlmiş milli hərbi kadrlarımızdan biri də Gəncədə “el atası” kimi çağırılan Ələkbər bəy Rəfibəylinin kiçik qardaşı Məşədi bəyin oğlu, Cümhuriyyət dövründə Gəncənin xalq qubernatoru seçilmiş Xudadat bəy Rəfibəylinin əmisi oğlu Səməd bəy Rəfibəyli olmuşdur.

Azərbaycan milli istiqlal hərəkatı tarixində görkəmli yeri olan tanınmış hərbi xadim Səməd bəy Məşədi bəy oğlu Rəfibəyovun həyat və fəaliyyəti haqqında məqalə hazırlanarkən Azərbaycan Respublikasının Dövlət və Dövlət Tarix arxivlərində, həmçinin Milli Arxiv İdarəsinin Elmi-Məlumat Kitabxanasında qayğı ilə qorunub saxlanılan arxiv materiallarından və digər mənbələrdən istifadə edilmişdir.

Səməd bəy Rəfibəyov 1892-ci ildə Gəncə şəhərinin Balabağman qəsəbəsində anadan olmuşdur. Hərbi təhsilini 1916-cı ildə Tiflisdə kadet korpusunda almışdır. Hərbi kadet məktəbini müvəfəqqiyyətlə bitirdikdən sonra Səməd bəy 1916-cı il yanvarın 1-də kiçik zabit kimi xidmət keçməsi üçün 7-ci Qafqaz sərhəd piyada polkuna göndərilmişdir. Səməd bəy 1916-cı il iyulun 1-dən 1917-ci il dekabrın 6-dək həmin polkda rotaya komandanlıq etmiş və özünü istedadlı zabit kimi göstərə bilmişdir.

Səməd bəyin gənc zabit kimi hərb sahəsindəki bacarığı nəzərə alınaraq 1918-ci ilin yanvarında yeni formalaşdırılan Müsəlman (Azərbaycan) korpusunda xidmətə qəbul edilir və burada I piyada diviziyasının I atıcı Bakı polkunda rota komandiri təyin olunur. Şücaətli hərbçi Bakıda gedən bolşevik-daşnak dəstələrinə qarşı vuruşmada fəal iştirak etmişdir. Bu xidmətlərinə görə ona 1918-ci il iyulun 2-də poruçik rütbəsi verilir, eyni zamanda, tələb olunan nizami senzi qazandığı üçün o, elə həmin gün ştabs-kapitan rütbəsinə keçirilir.

Müsəlman korpusu ləğv edilib buraxıldıqdan sonra o, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda döyüşmüş görkəmli türk sərkərdəsi Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun sıralarına daxil olmuşdur. İstedadlı və peşəkar zabit Səməd bəy Nuru paşanın təqdimatı ilə müvəqqəti olaraq Azərbaycanın Dəmir Yolları komissarı təyin edilir. 1919-cu il fevralın 3-də ştabs-kapitan Səməd bəy Rəfibəyov Ağdamda yerləşən I piyada diviziyasının ştabının böyük adyutantı vəzifəsinin icrasına başlayır. Qarabağda erməni daşnaklarına qarşı döyüşlərdə fəal iştirak edir. Səməd bəyin hərbi nailiyyətləri nəzərə alınaraq o, qısa müddətdən sonra Cavanşir piyada polkunun 3-cü batalyonuna komandir təyin olunur. Ştabs-kapitan Rəfibəyovun I Cavanşir piyada polkunun komandiri, polkovnik-leytenant İ.İsrafilova təqdim etdiyi raportda qeyd olunur: ”Mənim xidmətim barədə qısa qeyddən sonra sizi məlumatlandırıram ki, mən kapitan rütbəsinə uyğun vəzifədə xidmət edirəm, ona görə də mənə kapitan rütbəsinin verilməsi haqqında sizin xahişinizi rica edirəm”.

Polkun komandiri İ.İsrafilov S.Rəfibəyovun ön mövqelərdə hərbi sıralarda rotaya komandirliyinin on iki aylıq senzini qazandığı üçün raportu dəstəkləmişdi. Azərbaycan Respublikası Hökumətinin hərbçilərin rütbələri haqqında 25 iyun 1919-cu il tarixli 28 nömrəli əmrinə uyğun olaraq I Cavanşir piyada polku üzrə Səməd bəy Rəfibəyov xidmətdə fərqləndiyinə görə ştabs-kapitan rütbəsindən kapitan rütbəsinə keçirilmişdir. 1919-cu il avqustun 26-da hərbi nazir, artilleriya generalı Səməd bəy Mehmandarov hökumətin yuxarıda qeyd edilən əmrinin ardınca yeni təyinat üzrə digər əmr imzalamışdır. Həmin əmrdə qeyd edilirdi: “I Cavanşir piyada polkunun kapitanı S. Rəfibəyov yeni yaradılan Lənkəran ehtiyat batalyonuna komandan təyin edilir. Adıçəkilən ober-zabit dərhal ehtiyat batalyonunun yaradılmasına başlasın və batalyonu yaratdıqdan sonra məruzə etsin.” Həmin əmrdə, həmçinin qeyd edilirdi ki, batalyon bütün məsələlərdə 2-ci piyada diviziyasının rəisinə tabedir.

Sənədlər təsdiq edir ki, Lənkəran ehtiyat batalyonunun yaradılması üzrə işlər Səməd bəy Rəfibəyov tərəfindən müvəffəqiyyətlə yerinə yetirilmişdir. Azərbaycan Xalq Cümhuriyyətin hərbi nazirinin müavini, artilleriya generalı Əliağa Şıxlinski qeyd edirdi ki, “Vətəni və gənc ordusu qarşısındakı borcunu anlayaraq kapitan Rəfibəyov özünün bütün bilik və bacarığını, enerjisini batalyonun yaradılması işinə sərf etmişdir. Onun gördüyü işlərin nəticələri də çox parlaq olmuşdur. Batalyon qısa müddətdə təşkil edilərək tam hazırlıqlı hərbi hissə səviyyəsinə yüksəldilmişdir”.

Ordu quruculuğundakı parlaq xidmətləri nəzərə alınaraq Cümhuriyyət hökumətinin hərbi naziri Səməd bəy Mehmandarov 1 dekabr 1919-cu il tarixli əmri ilə təcrübəli və bacarıqlı zabit Səməd bəy Rəfibəyovu müvəqqəti olaraq Lənkəran ehtiyat batalyonunun bazasında yeni yaradılmış 7-ci Şirvan piyada polkunun komandanı təyin etmişdir. 1920-ci ilin əvvəllərində Qarabağda vəziyyət yenidən gərginləşəndə hərbi nazir 25 yanvar 1920-ci il tarixli 54 nömrəli əmri ilə vaxtından əvvəl polkovnik-leytenant hərbi rütbəsi verilməklə Səməd bəy Rəfibəyovu 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına komandir təyin edir.

Müvəqqəti olaraq hərbi nazir vəzifəsini icra edən artilleriya generalı Ə.Şıxlinskinin əmrində qeyd edilirdi: ”Polkovnik-leytenant Səməd bəy Rəfibəyova xidmət adından vicdanlı və fədakar xidmətinə görə səmimi minnətdarlığımı bildirirəm, inanıram ki, yeni xidmət yerində ona edilən etimada tam layiq olduğunu göstərərək Cavanşir polkunu lazımi zirvəyə çatdıracaqdır.”

Böyük hərbi təcrübəyə malik general öz ümidlərində yanılmadı. Polkovnik-leytenant S.Rəfibəyovun rəhbərliyi ilə Cavanşir piyada polku Azərbaycan Milli Ordusunun mükəmməl hərbi vahidinə çevrilərək ölkənin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə yaxından iştirak etdi və döyüş əzmi ilə seçildi.

Hərbi nazir, artilleriya generalı Səməd bəy Mehmandarov S. Rəfibəyovun təyin olunması əmrində onun Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək bunları qeyd etmişdir: "Mənim 26 avqust 1919-cu il tarixli 373 nömrəli əmrim ilə kapitan, indi polkovnik-leytenant S.Rəfibəyov yeni yaradılan Lənkəran ehtiyat taborunun komandiri təyin edilib. Ölkə və gənc ordumuzun qarşısında məsuliyyətini dərk edən Rəfibəyov bütün enerjisini və biliyini Lənkəran taborunun formalaşmasına yönəldərək qısa müddət ərzində yüksək nəticələr əldə etməklə döyüş qabiliyyətli bir hərbi hissəni formalaşdırır. Təcrübəli və savadlı bir zabit kimi daha sonra mənim 1 dekabr 1919-cu il tarixli 551 №-li əmrim ilə yeni yaradılan 7-ci Şirvan piyada alayının komandiri vəzifəsinin icraçısı təyin edilir. Onun işgüzarlığını və şəxsi heyətə qayğısını nəzərə alaraq, mən xüsusi təqdimatımla S.Rəfibəyova vaxtından əvvəl "podpolkovnik" hərbi rütbəsi verilməsi üçün hökumət qarşısında vəsatətlə çıxış etdim və hökumətin 25 yanvar 1920-ci il tarixli əmri ilə ona podpolkovnik hərbi rütbəsi verildi. Əmri elan etməklə səmimi - qəlbdən podpolkovnik (polkovnik-leytenant-red.) S.Rəfibəyova vicdanlı və səmimi xidmətinə görə təşəkkür elan edirəm və əminəm ki, yeni xidmət yerində də ona verilən etimadı doğruldaraq qısa müddət ərzində hərbi hissənin döyüş qabiliyyətini lazımi səviyyəyə qaldıracaqdır.”

Diviziya komandirlərinin, eləcə də hərbi nazirin müavini, general Əliağa Şıxlinskinin raportlarında da Səməd bəy Rəfibəyov savadlı və yorulmaz komandir kimi xarakterizə edilib. Alay, briqada və diviziya komandiri vəzifələrinə zabitlər şəxsən hərbi nazir tərəfindən seçilərək təyin edilirdi. Seçim zamanı onların hərbi biliyi, təcrübəsi, şəxsi keyfiyyətləri, xalqına və dövlətinə sadiqliyi əsas meyar kimi götürülürdü. Səməd bəy Rəfibəyovda bu keyfiyyətlər olmasaydı, şübhəsiz ki, hərbi nazir onu Qarabağ kimi mürəkkəb bölgədə alay komandiri vəzifəsinə və bir ildə iki dəfə yeni hərbi rütbəyə təqdim etməzdi. Bu etimadı polkovnik-leytenant Səməd bəy Rəfibəyov öz gərəkli və gərgin əmək tələb edən xidməti ilə qazanmışdı.

Polkovnik-leytenant Səməd bəy Rəfibəyov 1920-ci ilin mart və aprel aylarında Azərbaycanın Qarabağ quberniyasında ermənilərin qaldırdıqları üsyanın yatırılmasında fəal iştirak etmişdir. Azərbaycan Ordusunun əməliyyat komandanı olan general Həbib bəy Səlimovun hərbi nazirə ünvanladığı raportda Səməd bəyin Xankəndidə, Əskəranda və Keşişkənd əməliyyatlarında milli hökumətimizin əleyhinə qiyam qaldırmış erməni daşnaklara qarşı döyüşlərdə qəhrəmanlıq göstərənlərdən biri olduğu qeyd edilmişdir.

General Həbib bəy Səlimovun 1920-ci il aprelin 23-də Şuşadan göndərdiyi məlumatda, həmçinin Zəngəzur qəzasının Dığ kəndi istiqamətində S. Rəfibəyovun dəstəsi tərəfindən Əskəran çayı üzərindən keçən körpünün dağıdıldığı qeyd edilirdi. Şuşa və Xankəndi ətrafında dislokasiya olunan S. Rəfibəyovun rəhbərlik etdiyi hərbi hissə Qarabağ ərazisindəki erməni işğalçı qüvvələrinə qarşı əzmlə döyüşmüş, vətənimizin ərazi bütövlüyü və suvernliyi uğrunda gedən döyüşlərin fəal iştirakçısı olmuşdur.

1920-ci ilin aprelində Azərbaycanda bolşevik hakimiyyətinin qurulması ilə barışmayan Səməd bəy həmin ilin may – iyun aylarında rus bolşevikləri ilə erməni daşnaklarının birləşmiş qüvvələrinə qarşı Gəncə üsyanında qeyri-bərabər döyüşlərdə peşəkar zabit kimi vuruşmuşdu. Gəncə və Qarabağdakı Cümhuriyyət ordusunun üsyanı yatırıldıqdan sonra polkovnik-leytenant Səməd bəy Rəfibəyov qardaşı Eyyub bəylə və hərbi hissənin sağ qalan heyəti ilə birlikdə Türkiyəyə keçmişdir. O, qardaşı Eyyub bəylə Türkiyəyə getdikdən sonra, digər qardaşları İlyas bəy və Cəlil bəy 1938-ci ildə repressiya qurbanı olurlar. Onların ailələri isə Sibirə və Qazaxıstana uzun müddətə sürgünə göndərilir. Bacıları Firəngiz xanım isə üç oğlu və üç qızı ilə Qırğızıstana sürgün edilir.

Səməd bəy 1920-ci il iyulun 1-dən Şərq cəbhəsində Türkiyə ordusunun tərkibində həqiqi hərbi xidmətə başlamışdır. Həmin dövrdə qəhrəman türk zabitləri işğalçı qüvvələrə qarşı istiqlaliyyət mübarizəsi aparırdılar. İstiqlaliyyət müharibəsində Şərq cəbhəsinin Azərbaycan süvari alayının komandanı təyin edilən Səməd bəy Rəfibəyov ermənilərə qarşı aparılan Qars və Sarıqamış əməliyyatlarında fəal iştirak etmiş və həmin vəzifədə 1921-ci ilin martına kimi xidmət göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra taleyin hökmü ilə Türkiyəyə gedən Səməd bəy Rəfibəyov bu ölkənin hərbi qüvvələrinin sıralarında uzun və şərəfli yol keçmişdir. Səməd bəy Rəfibəyovun Türkiyə ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi xidmət dəftərçəsində 1 iyul 1918-ci il (01 temmuz 1336-cı il) göstərilir. Böyük ehtimalla bu, Nuru paşanın komandanlığı altındakı Qafqaz İslam Ordusunda həqiqi hərbi xidmətə daxil olma tarixidir.

Səməd bəy Rəfibəyov "Ermənistan hərəkatı" və "İraq cəbhəsi" adlanan döyüş əməliyyatlarında da fəal iştirak edib. O, 1921-ci ilin martından 1922-ci ilin noyabrına kimi Şərq cəbhəsi qərargahında tərcümə şöbəsinin rəisi olub. 1922-ci ilin noyabrından 1924-cü ilin noyabrına kimi 6-cı süvari diviziyasının 15-ci süvari alayı komandirinin müavini işləyib. 1924-cü ilin noyabrından 1928-ci ilə kimi isə həmin diviziyanın qərargahında əlaqələndirici zabit vəzifəsində xidmət edib. 1928-1930-cu illərdə hərbi məktəbdə təkmilləşdirmə kurslarında təhsil alıb. Təhsilini bitirdikdən sonra 13-cü süvari alayında süvari bölük komandiri vəzifəsinə təyin olunub. Həmin alayda 1932-ci ilədək xidmət etdikdən sonra 5-ci süvari alayına keçirilib. 1935-ci ildə 5-ci süvari alayının qərargahında xidmətdə olarkən alay komandiri vəzifəsini icra edib. 1938-ci ildə 41-ci süvari alayı komandirinin müavini vəzifəsinə təyin olunub və 1940-cı ilədək həmin vəzifədə çalışıb. 1940-cı ilin əvvəllərində 3-cü ordunun kəşfiyyat şöbəsinin rəisi, 15 avqust 1942-ci ildə isə 45-ci süvari alayının komandiri vəzifəsinə təyin edilib. 28 avqust 1948-ci ildə daha yuxarı vəzifəyə 2-ci süvari briqadasının komandiri vəzifəsinə irəli çəkilib. Bəzi mənbələrdə onun qardaş ölkə ordusunda xidmətə qəbul edilərkən polkovnik hərbi rütbəsində olduğu bildirilsə də, xidmət dəftərçəsindən görünür ki, ona yalnız 1942-ci il avqustun 30-da Türkiyə ordusunda polkovnik (albay) hərbi rütbəsi verilmişdir.

Səməd bəy Rəfibəyov Türkiyə Cümhuriyyətində soyadı barədə qanun qəbul olunanda Əbdülsəməd bəy Sayqın adını götürmüşdür. Onun Türkiyə Silahlı Qüvvələrindəki xidmət dəftərçəsində, eyni zamanda, Əbdülsəməd bəy Sayqın Rəfibəyzadə də qeyd edilmişdir. Əbdülsəməd bəy Sayqın (Səməd bəy Rəfibəyov) 30 avqustun 1948-ci ildə süvari briqadasının komandiri olarkən general-mayor hərbi rütbəsinə layiq görülmüşdür. 1952-ci il avqustun 2-də general-mayor Əbdülsəməd bəy Sayqın Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunlarının İnspeksiya qrupunun üzvü olur və həmin vəzifədən ehtiyata buraxılır.

General-mayor Əbdülsəməd bəy Sayqın qardaş Türkiyə ordusunda həqiqi hərbi xidmətdə olarkən İstiqlal savaşında fəal iştirak edərək "Hərb" və "İstiqlal" medalları ilə təltif olunub. Əbdülsəməd bəy Sayqın hərbi xidmətdə və ehtiyatda olarkən qardaş Türkiyədə Azərbaycan siyasi mühacirləri ilə daim sıx əlaqədə olmuş və Azərbaycanın yenidən müstəqilliyə qovuşması üçün mübarizə aparmışdır. Xalqımızın bu istedadlı oğlu qardaş Türkiyə ordusunda general-mayor hərbi rütbəsinə layiq görülən ilk azərbaycanlı zabitdir. Əbdülsəməd bəy Sayqın 1980-ci il yanvarın 19-da ömrünün 88-ci ilində İstanbul şəhərində vəfat etmişdir. Generalın həm Cümhuriyyət ordusunda, həm də Türkiyə ordusundakı xidmətləri, onun əqidə bütövlüyü, dürüstlüyü, cəsarəti, zabit əyilməzliyi, Azərbaycan xalqı qarşısında xidmətləri gələcək nəsillərin də xatirələrində yaşamalı və hər bir müasir Azərbaycan zabitinə sədaqət nümunəsi sayılmalıdır.

Azərbaycan xalqının görkəmli oğlu, istedadlı hərbi sərkərdə general Səməd bəy Rəfibəyovun həyat və fəaliyyəti Azərbaycan Silahlı Qüvvələrinin gənc zabitləri və qulluqçuları üçün hərbi borcun yerinə yetirilməsində nümunə ola bilər.

***Həsən HƏSƏNOV,***
***Azərbaycan Respublikası Milli Arxiv İdarəsi rəisinin müavini,***

***Rafiq SƏFƏROV,***
***Milli Arxiv İdarəsi sənədlərin nəşri və istifadəsi şöbəsinin baş məsləhətçisi***

# Hüquqşünas tələbələr buraxılış işlərini müdafiə ediblər



**Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin sədrliyi ilə qurumun inzibati binasında 19-23 iyun tarixlərində Bakı Dövlət Universitetinin hüquq fakültəsinin hüquqşünaslıq ixtisası tələbələrinin buraxılış işlərinin müdafiəsi keçirilmişdir.**

Təqdim edilmiş buraxılış işlərinin əksəriyyəti yüksək qiymətləndirilmiş və tələbələrin müdafiəsi müvəffəqiyyətlə başa çatmışdır. Müdafiə prosesində Hüquq fakültəsinin Yekun Dövlət Attestasiya Komissiyasının sədri, Baş prokuror, hüquq üzrə fəlsəfə doktoru Kamran Əliyevlə yanaşı, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, komissiyanın sədr müavini Hüquq fakültəsinin dekanı, hüquq üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyev, kafedra müdirləri və Hüquq klinikasının rəhbəri iştirak ediblər. Buraxılış işlərini müdafiə etmiş tələbələri təbrik edir, onlara uğurlar arzulayırıq!

*Q.QASIMOV, “Xalq qəzeti”*

# Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin Forumu

**Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (AMOR) fəxri sədri Leyla Əliyevanın təşəbbüsü ilə iyunun 22-24-də Tümen şəhərində AMOR-un Ural-Sibir Regionlararası Forumu keçirilib.**

Birlikdən bildiriblər ki, AMOR-un yeddinci regionlararası forumu olan bu tədbirdə təşkilatın 12 nümayəndəliyi iştirak edib.

Tədbirin fəxri qonaqları Tümen vilayətinin Millətlərlə İş üzrə Komitəsinin şöbə müdiri Vildan Yakupov, İdman və Gənclər Siyasəti Departamentinin nümayəndəsi Marina Şestakova, Tümen Regional Dumasının deputatı Larisa Tsupikova olublar.

Forumda Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Rusiya Federasiyasında AMOR tərəfindən keçirilən tədbirlər haqqında məlumat verilib. İştirakçılar arasında müzakirələr zamanı Rusiya Federasiyasında Azərbaycan gəncliyinin hərtərəfli inkişafına yönəlmiş və yaxın gələcəkdə həyata keçiriləcək layihələrin ümumi hədəflərindən, planlardan söz açılıb. Tədbirdə regional bölmələrin nümayəndələri könüllülük, ekologiya və sağlam həyat tərzi sahələrində planlaşdırılan layihələri müzakirə edib, cari və qarşıda duran tədbirlər haqqında məlumat və fikir mübadiləsi aparıblar.



Sonra regional bölmələrin inkişaf perspektivləri müzakirə olunub və qarşıda duran hədəflər müəyyən edilib.

Həmçinin iyunun 24-də forum çərçivəsində “Xalqlar Dostluğu” parkında təşkilatın ənənəvi ağacəkmə aksiyası baş tutub. Aksiyada AMOR-un nümayəndələri, Tümen Şəhər Administrasiyasının İdman və Gənclər Siyasəti Departamentinin müdiri və Tümen Şəhər Administrasiyasının Millətlərarası Əlaqələr Komitəsinin nümayəndəsi iştirak ediblər.

Forumun rəsmi hissəsinin sonunda iştirakçılar “Svoboda” teatrında görkəmli geoloq Fərman Salmanovun həyatından bəhs edən “İzlənilməz optimist” tamaşasına baxıblar.

# “Gedirəm, gəlməsəm, yada sal məni”

*“Biz general Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin qisasını aldıq”*

**Vətən müharibəsində Azərbaycanın mərd oğulları qəhrəmanlıq dastanı yazdılar. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlardan biri də Xüsusi Təyinatlı Qüvvələrin zabiti, baş leytenant İbrahim Abdullayevdir. O, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsində iştirak etmiş, Murovdağ yüksəkliyi, Füzuli və Cəbrayıl rayonları istiqamətindəki döyüşlərdə fədakarlıq göstərmişdir.**





İbrahim Abdullayev Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə, işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını və hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı, igidlik və mərdlik nümayiş etdirdiyinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən “Qarabağ” ordeni, “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

Bu qısa döyüş bioqrafiyası cəmi bir neçə cümlədə ifadə olunan gənc zabit həyatda 26 il yaşadı. Anasının onunla bağlı arzuları yarımçıq qalsa da, özü hərbçi arzusuna çatdı, Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda döyüşdü.

**Anası, dostları ilə bir masa arxasında İbrahimin xatirə işığına toplaşmışıq. Nərgiz xanım oğlunu anıb kövrəlir:**

– Nə danışım, bilmirəm. Bütün uşaqlar kimi İbrahimin də adi dəcəlliyi, şıltaqlığı olub. 160 saylı məktəbi bitirib. Hərbçi olmağı qət edəndən sonra dedi ki, ali təhsil almalı, sonra zabitlər hazırlayan kurs keçməlidir. O, Xarkov Politexnik İnstitutunun iqtisadiyyat fakültəsini bitirdi. Vətənə dönüb Ağcabədidə həqiqi hərbi xidmət keçdi...

**Dostu Fərhad Abdullayev söhbətin davamını gətirir:**



– Xəbər tutduq ki, İbrahim hərbi xidmət keçməyə Azərbaycana gəlir. Sonra elə oldu ki, o, Ağcabədidə dostumun xidmət etdiyi hərbi hissəyə düşdü. Əlaqəmiz çoxaldı. Gələndən sonra özünü hərbi işə həsr edəcəyini bildirəndə, zarafatla dedim ki, boyuna görə götürməzlər. O, bəstəboy idi. Dediyindən dönmədi və istədiyi kimi də oldu...

İbrahimin o biri dostları da ondan yana-yana, lakin fəxrlə danışırlar.

**Rəşid Rəhimli:**

– Həqiqətən də, İbrahimi boyuna görə Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzinin (TTM) Zabitlər hazırlayan kursuna götürmürdülər. Bütün normativləri vermişdi. Tənbəllik eləmədən Müdafiə Nazirliyinə gedir ki, general Hikmət Mirzəyevlə görüşsün. Görüşə bilməyib orada gözləyir. Maşından düşəndə tərəddüd etmədən generala yaxınlaşır ki, bəs bütün normativləri vermişəm, boyuma görə saxlayıblar, götürmürlər. Amma mənim ən böyük arzum hərbçi olmaqdır.

**Orxan Qocayev:**

– Doğrudur. Orada general soruşub ki, problem yalnız boydadır? İbrahim cəsarətlə bütün kurs və təlimlərdən keçdiyini deyib. Bir gün sonra eşitdik ki, dostumuzun sənədlərini göndəriblər TTM-ə. Kursu bitirəndən sonra Daşkəsənə “N” saylı hərbi hissəyə xidmətə getdi. Gec-gec görüşürdük, çünki məzuniyyətə tez-tez gəlmirdi. Arada telefonla əlaqə saxlayırdıq. Hələ də elə bilirik, hərbi hissədədir. Son dəfə 2020-ci ilin sentyabrın 19-da bizə sürpriz edib bir dostumuzun ad gününə gəlmişdi.



**Fərhad Abdullayev:**

– Yedik, içdik, xatirələr danışdıq. Gedəndə telefonda Mübariz Tağıyevin “Gedirəm, gəlməsəm, yada sal məni” mahnısını açdı. Dinlədik və danladıq ki, bu nə sözdür belə ki, gəlməsəm... Biz nə biləydik ki, 1 həftə sonra müharibə başlayacaq, bu da bizim İbrahimlə son görüşümüz olacaq.

**Şəhid zabitin əsgəri Nicat Həbibov isə deyir:**



– Komandirimiz İbrahim Abdullayev çox tələbkar idi. Öyrətdiyi hər qaydaya dəqiqliyi ilə nəzarət edirdi. Təlimlərdə, məşqlərdə əziyyət çəkirdik. Deyirdi ki, dözməlisən, sabah lazım olacaq. Biz əsgərləri o təlimləri, taktikaları mükəmməl öyrəndiyimizə görə sağ qaldıq. Ruhu şad olsun.

2020-ci ilin sentyabrında Kəlbəcərə daxil olduq. Müharibə başlayandan 4 gün sonra isə Cəbrayıl istiqamətinə – Füzuliyə göndərildik. Orada ön xəttin yarılmasında iştirak etdik. Sonra Cəbrayıda gedən ağır döyüşlərdə iştirak etdik. Ermənilərin tank taboru ilə qızğın döyüş gedirdi. Onların mövqeləri çox yaxşı idi, bizi rahat izləyirdilər, atəş də ara vermirdi. Leytenant Abdullayev atılan mərmi qəlpəsindən şəhid oldu.

**Nərgiz xanım arada söhbətə qoşulur:**

– Sentyabrın axırına qədər içim-içimi yeyirdi. İbrahimdən xəbər yox idi. Nə gecəm vardı, nə gündüzüm. Nəhayət, ayın 30-da birinci və sonuncu dəfə zəng etdi. Dedi ki, ana, biz mühasirədə idik. Vertolyotla bizi çıxardılar. Qorxma, mənim işim döyüşməkdir. Hər şey ola bilər, amma sonu yaxşı olacaq. Əsas odur ki, biz artıq general Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin qisasını almışıq.

**Fərhad Abdullayev:**

– Oktyabrın 5-i idi. Uşaqlarla danışırdıq ki, İbrahimdən xəbər tutan varmı? Elə həmin gün axşam dostlardan biri zəng etdi ki, bəs xəbərin varmı, deyirlər, İbrahim şəhid olub. İnanmadım. Dedi ki, sabah nəşini gətirəcəklər. O gecə səhərə kimi gözümü yuma bilmədim. Səhər durub getdim həyətlərinə. Bir neçə nəfər vardı. Dedim, yəqin, bunlar da xəbəri eşidiblər. Getdikcə gələnlərin sayı artdı. “Bəlkə, xəbər düz deyil”,– deyə içimdə bir ümid vardı.



**Rəşid Rəhimli:**

– Heç kəsin ürəyi gəlmirdi ki, qalxıb evə anasına nəsə desin. Ya görsün ki, ananın xəbəri varmı? Nərgiz xanım evdə tək idi. Uşaqlarla qalxdıq. Qapını açanda üzümüzün ifadəsindən, halımızdan gördü ki, nə vəziyyətdəyik...

**Ana:**

– Mən ona kömək edə bilmədim. İndiyə qədər də inanmıram ki, o məni necə tək qoya bildi. Həmişə məndən nigaran idi ki, mənə nəsə olar... Amma baxın, mən hələ yaşayıram... Bütün dostları indiyə qədər mənimlədir və onun II Fəxri xiyabandakı məzarının başına dolanırlar. Mən isə onu gözləyirəm, ömrümün sonunadək gözləyəcəm. Bu yaxınlarda balamın sinif yoldaşları gəlmişdilər. Çoxlu xatirələr danışdılar. Oğlumun ruhunu, mənim də könlümü şad etdilər. Sən demə, 5-ci sinifdə oxuyanda Xocalı faciəsindən dərs keçilən zaman qızlar ağlayanda İbrahim onları sakitləşdirib deyibmiş: “Ağlamayın, böyüyüb zabit olacağam və bu torpaqları azad edəcəyik”. Oğlum həyatı bahasına verdiyi sözə əməl etdi.

Sonda xatırladaq ki, “Şəhid ailələrinin və ya müharibə əlillərinin həyat hekayəsi” layihəsi çərçivəsində baş leytenant İbrahim Abdullayevə həsr olunmuş film çəkilib.

Ruhun şad olsun, qısa, amma şərəfli ömür yaşayan Azərbaycan zabiti!

**Zərifə BƏŞİRQIZI,**
**“Xalq qəzeti”**

**“Ölməyə yox, düşməni öldürməyə, torpağımızı almağa gedirəm. Amma qayıtmaya da bilərəm. Bax, Tünzalə, sən zabit yoldaşısan. Həmişə mənə dost, yoldaş olmusan. Bu, müharibədir, hər an hər şey ola bilər, hazır ol. Sənin kimi mərd, güclü qadın qoyub gedirəm, gözüm arxada qalmır. Üç övladımı sənə tapşırıram, göz bəbəyin kimi qoru”.**

# Suqovuşanda əbədiyyətə qovuşan igid



Soltanın son dəfə dediyi bu sözləri xatırladıqca, Tünzalə xanımın göz yaşları selə dönür.

– O gün axşama qədər həyəcandan bir yerdə dura bilmədim”, – deyir. – Acığı tutsa da, tutsun, zəng eləyəcəm, – dedim özözümə. Səsini eşitmək, sağ-salamat olduğunu bilmək istəyirdim. Telefonu açan kimi xəttin o başından gələn top-tüfəng səsini eşitdim, içim titrədi. Çox danışa bilmədik, amma salamat olması sakitləşdirdi məni.

...Polkovnik-leytenant Soltan Akif oğlu Məmmədov 1981-ci ildə Yevlax rayonunun Səmədabad kəndində anadan olub. 1997-ci ildə Cəmşid Naxçıvanski adına hərbi məktəbə daxil olub. 1999-cu ildə həmin məktəbi bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul edilib, oranı motoatıcı ixtisası üzrə bitirib. Leytenant hərbi rütbəsi alaraq xidmətini davam etdirmək üçün Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində dinləyici kursuna yazılıb. 2004-cü ildə “N” saylı hərbi hissədə motoatıcı taqım komandiri, sonra tabor komandirinin müavini təyin olunub.

Hərb sənətinə sevgi, qüsursuz xidmət Soltanı pillə-pillə ucaldıb. 2013-cü ilin iyununda Naxçıvan Muxtar Respublikasında “N” saylı hərbi hissəyə tabor komandirinin maddi-texniki təminat üzrə müavini göndərilib. Naxçıvanda və Tərtərdə tabor komandiri vəzifəsinə qədər yüksəlib. Qısa və şərəfli ömrünün hər gününü səngərlərdə, Vətənə xidmətdə keçirib. Çünki düşmən tapdağı altında inləyən Vətəni vardı. Şəhid olmamışdan əvvəl də yaralanıbmış. Ayağından aldığı qəlpə yarasına baxmayaraq, döyüş mövqeyini, şəxsi heyəti tərk etməmişdi. Yaralarının sarğısını elə səngərdəcə, döyüş gedə-gedə özü dəyişirmiş.

Şəhid olmasından bir gün öncə humanitar atəşkəsə yarımca saat qalıbmış. Müavininə deyib ki, şəxsi heyəti dərəyə apar. Özü və bir neçə əsgər orada qalıb. Düşmən tərəfdən həmin mövqe durmadan atəşə tutulub. Oktyabrın 10-da ürəyindən aldığı qəlpə yarasından şəhid olub.

Böyük qızı Ləman özünü təmkinli aparır. Kiçik qızı Sümayə hələ də atasının şəhid olduğunu bilmir. Hər soruşanda deyirlər ki, Türkiyədə hərbi təhsil alır. Oğlu Əli əvvəllər deyirmiş ki, polis olacağam. Ancaq indi qərara gəlib ki, hərbçi olsun. Çiynində general rütbəsi daşısın.

...Soltanın üçrəngli bayrağa bükülmüş tabutunu kənd camaatı evlərinə qədər çiyinlərində gətirdi. Ailə isə göz yaşları içərisində şəhidini qarşıladı. Qızı Ləman və həyat yoldaşı Tünzalə Soltanı hərbi formada qarşıladılar. Ləmanın “Ata, şəhadətin mübarək!” hayqırtısı hələ də qulaqlarımdan getmir. Tünzalə xanımın “Mən səninlə fəxr edirəm, şəhidim!” deməsi isə həmişəlik xatirimə hopub.

Onu düşündükcə Qarqar çayı gəlir gözümün önünə. Soltanın ömrü axar sular kimi keçib gedib. Millətimizin Soltan kimi igid oğlanlarının qanı ilə sağalıb Vətən dərdimiz. Övladları qürurla Şuşada, Suqovuşanda, Talışda gəzəcək, atalarının və minlərcə şəhidimizin əziz ruhunu hörmətlə anacaqlar.

Vaxtilə oxuduğu Səmədabad kənd tam orta məktəbi onun adını daşıyır. Ailəsi Bakının Xocasən kəndində yüksək səviyyədə təmir olunmuş 3 otaqlı mənzillə təmin edilib. Öz şəhid izini torpağa salan Soltan Akif oğlu Məmmədov ölümündən sonra “Azərbaycan bayrağı” ordeni, “Vətən uğrunda”, “Suqovuşanın azad olunmasına görə” və “Laçının azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.

**Əminə YUSİFQIZI,**
**Əməkdar jurnalist**

# Qazinin poetik duyğuları

**Gəncəli Vətən oğlu Sərxan Yolçuyev İkinci Qarabağ müharibəsi başlanan zaman könüllü olaraq cəbhəyə getmiş, savaşa qatılmışdır. Murovdağ uğrunda gedən döyüşlərdə ağır yaralanmışdır. Sərxan ara-sıra qələmə sarılaraq, Azərbaycan əsgərinin qəhrəmanlığından, Vətənin müqəddəsliyindən duyğulu şeirlər yazır. Oxuculara təqdim etdiyimiz “Vətən” şeirinin yazı tərzindən göründüyü kimi, arzu-istək dolu misralar elə səngərdəcə yaranıb.**

**VƏTƏN**

*Bir arada görmək üçün fəda edərdim canımı,*
*Cənubu, Qərbi olmaqla – bütöv Azərbaycanımı.*
*Qarabağın gülşəninə qoy çiləsinlər qanımı.*
*Təki qanım dəyən yerlər çiçək açsın, çəmən olsun,*
*Təki Vətən yarımçıq yox, Bütövlüklə Vətən olsun!*

*Sənə qurban olsun, Vətən, canımız da, varımız da,*
*Otuz ildir səbr edərək, duz saxladıq yaramızda.*
*Mən razıyam, gəl, bölüşək iki şeyi aramızda,*
*Sənə düşən ZƏFƏR olsun, mənə düşən kəfən olsun,*
*Təki Vətən yarımçıq yox, Bütövlüklə Vətən olsun!*

*Arzum budur, Qarabağda saray tikdirsin Millətim,*
*Həyatində azadlığın gülün əkdirsin Millətim.*
*İstəyirəm, Qarabağda şəkil çəkdirsin Millətim.*
*İstəmirəm bu Vətənin həsrətini çəkən olsun!*
*Təki Vətən yarımçıq yox, Bütövlüklə Vətən olsun!*



**Sərxan YOLÇUYEV**

# Şəfəqli kəndinin şəhid oğulları



**Şəfəqli Yardımlı rayonunun kəndlərindən biridir. Kəndin iki minə qədər əhalisi var. Yeddi şəhid övladı ilə qürur duyan kənddəki məktəb onlardan birinin – Səyyar Şəbiyevin adını daşıyır. Burada tez-tez vətənpərvərlik tədbirləri keçirilir və şagirdlərə elin, obanın igid oğullarının hünər dastanı öyrədilir.**

Səyyar Şəbiyev 1974-cü ildə anadan olub. Evdə qardaşların ən kiçiyi, ailənin ən sevimlisi idi. Məktəbdə də nümunəvi davranışı, yaxşı oxumağı ilə müəllimlərinin sevimlisi, sinif yoldaşlarının yaxın dostu olub. Arzusu həkim olmaq idi, kənddə feldşer işləyən atası Aslan kişinin ağ xalatını geyinməkdən zövq alardı. Boş vaxtlarında isə gitara çalmağı sevərdi Səyyar. Əsgəri xidmətinə Qusarda başlayan igid tezliklə cəbhə xəttinə göndərilib. Döyüş yolu Tərtər, Ağdərə, Cəbrayıl, Füzuli, Xocavənd (bunlar onun öz bloknotunda qeyd olunub) kecib. Sonra o, Qubadlı və Laçın uğrunda gedən döyüşlərdə iştirak edib. 1992-ci il oktyabrın 2-də o yerlərin, elə Yardımlını çox xatırladan ərazisində – Qızartı dağında şəhid olub. Təsadüfə baxın: Şəfəqli kəndinin igid oğlu və onun Qızartı dağında şəhadəti...

... Şəhid məzarlarına baxırıq. Səyyarın bibisi oğlu – müəllim, yazar, tərcüməçi və rəssam-heykəltəraş Zahir Məlikli Sarı Aşığın bir cinaslı bayatısını dilə gətirir:

**Mən aşıq oda para,**
**Ay doğdu, o da para...**
**Varmı bir odu sönmüş,**
**Odumdan od apara?**

Səyyar doğma kəndlərinin ilk, rayonun isə 6-cı şəhididir. Onun sinif yoldaşı Sarvan Məmmədov, Murovdağda itkin düşən Kamal Musayev, Arzu Muradov, Şəfəqli doğumlu, sonradan Qaradağ rayonunda, Lökbatanda yaşamış şəhid Milli Qəhrəman Cəmil Niftəliyev, həmçinin itkin qəbri sonradan Füzuli rayonunda tapılmış Sahib Əsgərov da Birinci Qarabağ müharibəsinin şəhidləridir. Onların hünər yolunu Qızıldaşda yaşamış Zəka Abışov İkinci Qarabağ müharibəsində eyni ləyaqətlə davam etdirib. Bir kəndin yeddi şəhidi dağların baş tacına dönüb.

... Cəmilin 7 yaşı olanda ailələri Lökbatan qəsəbəsinə köçüb və o da orada məktəbə gedib. Tez-tez dağlar diyarına gələr, zirvələrə boylanar, sonra da birnəfəsə dağların başına qalxardı. Elə 1986-cı ildə Sovet Ordusu sıralarına çağrılıb Əfqanıstandakı məhdud kontingentin tərkibində snayperçi kimi qulluq etdiyi dövrdə, o yerlərin dağlıq ərazilərində heç bir çətinlik çəkmədən hərəkət edə bilib, quştək səkə-səkə yerini dəyişib, döyüş tapşırıqlarını bacarıqla yerinə yetirib. Birinci Qarabağ müharibəsi başlananda peşəkar hərbçi kimi yenidən silaha sarılan Cəmil bütün əməliyyatlarda rəşadət göstərib.1992-ci il mart ayının 29-da Ağdamın Şelli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub. Beləcə, dağlar oğlu öz ölümü ilə Vətən dağlarını bir boy ucaldıb. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Cəmil Səmədxan oğlu Niftəliyevə ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilib. Vaxtilə oxuduğu 233 saylı orta məktəb və çalışdığı Yanğından Mühafizə İdarəsinin yanğınsöndürən gəmisi onun adını daşıyır.

Müharibədən salamat qayıtmış Yalçın Məmmədovun döyüş yoldaşları haqqında dedikləri: "Mən Yardımlının Kürəkçi kəndindənəm. 1992-ci il iyunun 27-də səhər çağı rayon hərbi komissarlığından əsgəri xidmətə yola düşdük. Döyüşlərə 8 eloğlu birlikdə Ağdərədə başladıq – mən, Şəfəqlidən Səyyar, Rəfail və Əli, Telavar kəndindən Cavad, Peştəsərdən Elşad, Gavrandan Füzuli, bir də Dağüzü kəndindən Səyyad. Biz piyada qoşunlarının tərkibində idik. Səyyarın nəşini özüm maşına qoyub rayona yola salmışam. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz qayıtdıq, onlarsa əbədiyyət səfərinə çıxdılar.

Bir kəndin yeddi şəhidi... Hər birinin igidliyi medallara layiq görülüb. Kənddə kimi dindirsən, onların haqqında ürəklə danışar. Xatirə lövhəsinin lal daşları belə şəhidlərin qəhrəmanlıq hekayəsini səssiz nəql eləyir...

Ötən ayın 27-də Şəfəqli kəndindəki şəhid Səyyar Şabiyev adına tam orta məktəbdə Müstəqillik Günü ilə əlaqədar maraqlı bir tədbir keçirildi. Tədbirə rayon icra hakimiyyətinin nümayəndələri, Milli Məclisin deputatı Musa Qasımlı, “Cənub” döyüş növləri idman klubunun direktoru, Əməkdar məşqçi Samir Həsənov, şair İqbal Nəhmət, şəhid ailələrinin üzvləri, ziyalılar da qatılmışdılar. Öncə Vətən fədailərinin məzarları ziyarət edildi, ruhlarına dualar oxundu. Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlandı. Şagirdlərin ifasında vətənpərvərlik ruhunda mahnı və şeirlər səsləndi. Hər kəs tədbirdə tükənməz qürur hissi ilə iştirak etdi.

O gün şəhid qardaşlarımız Səyyarın, Arzunun, Sarvanın, Kamalın, Cəmilin, Sahibin və Zəkanın ruhlarının şad olan günü idi deyə, sanki Şəfəqli kəndi daha nurlu, daha şəfəqli görünürdü.

**Ə.NƏCƏFXANLI,**
**“Xalq qəzeti”**




## “İrəvan” Qərbi Azərbaycana Qayıdışa futbol meydanında qoşuldu



**Dünya futbol qızdırması içərisindədir. Bəşəriyyətin yarısı nəfəsini dərərək matçları seyr edir. Bu da təsadüfi deyil. Axı rəqabət ruhu təbiətimizə xasdır, futbol həm azarkeşlər, həm də oyunçuların özləri üçün emosiyaları və şövqü oyatmaq üçün əla vasitədir. Azərbaycanda da futbol sevilir, milli və klub səviyyəsində komandalarımız dəstəklənir. Son zamanlar isə futbol klublarının əhatə dairəsi getdikcə genişlənir və hazırda bir çox bölgəmizi təmsil edən komandalar yaradılır. Növbəti xoş xəbər də Azərbaycanın qədim şəhəri olan İrəvanın adını daşıyan klubun təsis edilməsi oldu. İyunun 25-də media nümayəndələrini bir araya toplayan “İrəvan” Futbol Klubunun rəhbərliyi yeni yaradılan komandanın məşqçilər korpusunu və futbolçularını ictimaiyyətə təqdim etməklə yanaşı, qədim Azərbaycan şəhərinin adını daşıyan komandanın qarşısında dayanan vəzifələrdən danışdılar.**

İrəvan FK-nın mətbuat katibi Mübariz Süleymanlı klub haqqında məlumat verdi. Klubun idarə heyətinin sədri və klubun 1-ci vitse-prezidenti Zülfüqar Kazımov təsis olunan “İrəvan” Futbol Klubunun Azərbaycanın qədim şəhəri İrəvanın adını daşımasının böyük şərəf, həm də böyük məsuliyyət olduğunu bildirdi. Z.Kazımov, həmçinin qeyd etdi ki, “İrəvan” komandası 1-ci divizonda mübarizəyə başlayacaq, ancaq sonrakı mərhələdə əsas hədəf Premyer Liqaya vəsiqə qazanmaq olacaq. Klubun idarə heyətinin sədri xüsusilə vurğuladı ki, “İrəvan” futbol klubu tək idman demək deyil. Bu komanda həm də mənəvi və siyasi məsələdir. Komandanın böyük azarkeş ordusuna malik olacağına əminliyini vurğulayan Z.Kazımov Azərbaycanın idman siyasətinə hərtərəfli dəstək verdiyi üçün Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya klub üzvləri adından təşəkkür etdi.

İdarə heyətinin üzvləri Canbaxış Hüseynov, Alı Alıyev, Həsən Həsənov, Namiq Ramazanov çıxışlarında ölkədə idmanın inkişafından, futbola böyük marağın olmasından və ölkə rəhbərliyinin bu sahəyə yüksək diqqət ayırmasından danışdılar. Belə bir inam ifadə olundu ki, “İrəvan” FK üzərinə düşən vəzifələrindən öhdəsindən layiqincə gələcək.

Klubun prezidenti Zahid Niyazəliyev komandanın planları barədə qısa məlumat verdi. O, “İrəvan” FK-nın mübarizə aparacağı liqada böyük uğurlara imza atacağına ümidvar olduğunu bildirdi. “İrəvan” FK-nın idman direktoru Vüqar Nuruşov komandanın hədəflərindən danışdı və azarkeşləri sevindirmək üçün bütün futbol oyunlarında yüksək nəticələr əldə etmək üçün mübarizə aparacaqlarını vurğuladı.

Sonra klubun mətbuat katibi Mübariz Süleymanlı komandanın baş məşqçisi Elbrus Məmmədovu və onun köməkçiləri - Adil Məmmədovu və Vidadi Hüseyovu jurnalistlərə təqdim etdi.

Xatırladaq ki, 2023/2024-cü illər mövsümündə I Divizion 10 komandanın iştirakı ilə keçiriləcək və “İrəvan” FK bu komandalar arasındadır. Reqlamentə görə, I Divizionda 1-ci yeri tutan komanda növbəti mövsüm Premyer Liqaya vəsiqə qazanacaq. Bu şərəfli və məsuliyyətli yolda “İrəvan” komandasına uğurlar arzulayırıq!

*Səbuhi MƏMMƏDOV,*
*“Xalq qəzeti”*

### Milli Kitabxana – 100

# Xalqımızın ən zəngin elm, bilik məbədgahı

**Düz bir əsr əvvəl –1923-cü ildə yaradılmış Azərbaycan Milli Kitabxanası ilk dəfə qapılarını oxucuların üzünə açanda cəmi 5 min nüsxə kitab fondu vardı. Bu gün isə 4 milyon yarımdan çox fondu olan möhtəşəm bir elm, bilik məbədgahına çevrilib.**



Prezident İlham Əliyevin “Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd edilməsi haqqında” 24 iyun 2023-cü il tarixli sərəncamında qeyd edilir ki, milli kitabxanamız yarandığı vaxtdan etibarən şərəfli bir yol keçmiş, qarşıya qoyulan vəzifələrin öhdəsindən həmişə layiqincə gələrək ötən müddət ərzində cəmiyyətin intellektual potensialının artırılmasında baza kimi mühüm rol oynamış, ədəbiyyat sayı milyonları keçən fondlarını müntəzəm surətdə milli və dünya əhəmiyyətli nəşrlərlə, nadir kitablar, yeni-yeni çap məhsulları və qiymətli məlumat daşıyıcıları ilə zənginləşdirməklə xalqımızın mədəniyyət xəzinəsinə çevrilmişdir. Bu gün özünəməxsus memarlıq üslubuna malik olan əzəmətli binada yerləşən Milli Kitabxana fəaliyyət dairəsini daim genişləndirərək milli-mənəvi sərvətlərin etibarlı şəkildə qorunmasına xidmət göstərir, onun gələcək nəsillərə çatdırılmasını layiqincə təmin edir. İşini qabaqcıl texnologiyaların tətbiqi ilə dövrün tələbləri səviyyəsində təkmilləşdirən Milli Kitabxana hazırda dünya kitabxanaları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrini uğurla inkişaf etdirməkdədir.

***Yubiley ərəfəsində Milli Kitabxananın ditrektoru – tarix elmləri doktoru, professor, Əməkdar mədəniyyət işçisi Kərim Tahirovla görüşüb söhbət etdik.***

– İlk növbədə verilən sərəncama görə möhtərəm Prezidentimizə kollektivimiz və çox minli oxucularımız adından təşəkkür edirəm. Bizim alim, ziyalı, tələbə, şagird və adi kitabsevərlərdən ibarət geniş oxucu auditoriyamız var. Hətta kiçik yaşlı uşaqlar da kitabxanamızın oxucularıdır. Dövlət başçısının verdiyi sərəncam bizi kitabxananın keçdiyi bir əsrlik yola boylanıb baxmağa sövq edir. Qürur doğuran uğurlarımız çoxdur. Təbii ki, cənab Prezidentin verdiyi sərəncamdan ruhlanaraq, daha böyük nailiyyətlər əldə etməyə çalışacağıq. Bu sərəncam Azərbaycan Prezidentinin, dövlətimizin mədəniyyətə, mənəviyyata, ədəbiyyata, kitaba və kitabxanaya verdiyi dəyərin daha bir təcəssümüdür.

***– Kərim müəllim, təqvimə nəzər salsaq, Azərbaycan Milli Kitabxanası ilk dəfə qapılarını oxucuların üzünə 1923-cü il may ayının 23-də açıb. Bir ay öncə biz də “Xalq qəzeti” olaraq bununla əlaqədar kitabxanadan geniş bir reportaj hazırlayıb verdik. Amma, deyəsən, rəsmi yubiley tədbirləri bir qədər gec keçiriləcək...***

– Doğrudur. Bildiyimiz kimi, bizim kitabxananın yubileyi ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə eyni vaxta düşür. Bu il ölkəmizdə “Heydər Əliyev İli” elan edilib və bununla bağlı, xüsusilə də may ayında çoxsaylı tədbirlər keçirilib və indi də davam edir. Odur ki, Milli Kitabxananın yubiley tədbirlərini bir qədər sonraya – sentyabr ayına çəkdik. Elə buradaca qeyd etməyi özümə borc bilirəm ki, Ulu öndər bizim indiki kitabxanamızın bünövrəsini qoyub yüksəlişini təmin edib. Bu yaxınlarda Heydər Əliyev Mərkəzində mənim böyük qədirbilənliklə yazdığım “Heydər Əliyev və Milli Kitabxana” kitabımın təqdimatını keçirdik. Fəxrlə vurğulamaq istəyirəm ki, Ulu öndər qısa bir zamanda – 3 il ərzində 4 dəfə kitabxanamıza gəlib və hər dəfəsi də kitabxanamız üçün dönüş nöqtəsi olub.

Ulu öndərin arzularını, əməllərini uğurla davam etdirən Prezident İlham Əliyev də Milli Kitabxanaya daim diqqət göstərir. Bugünkü fəaliyyətimiz, oxucular üçün yaradılan şərait göz qabağındadır. Yaxşı xatırlayırıq ki, kitabxananın 90 illik yubileyində dünya kitabxanalarından 50-dən artıq adam qonaq gəlmişdi və cənab Prezident onları qəbul etdi. Orada Rusiya Milli Kitabxanasının direktoruna söz veriləndə o dedi ki, cənab prezident, mən ulu öndər Heydər Əliyevi çox yaxşı tanıyırdım. Onun mədəniyyətə, ədəbiyyata gözəl münasibət bəslədiyini də çox yaxşı bilirdim. Bu gün Milli Kitabxanaya dövlətin yüksək münasibətini gördüm və çəkinmədən deyirəm ki, bu diqqət, qayğı sizə genlə, qanla keçib. Kitabxana bu ideal səviyyəyə şəxsən Sizin diqqətinizin, qayğınızın sayəsində gəlib çatıb. Prezidentimiz qonağa təşəkkür etdi. Demək istədiyim budur ki, kitabxanamızın fəaliyyəti ölkə rəhbərinin diqqətində, nəzarətindədir və biz də bu etimadı layiqincə doğrultmağa çalışırıq.

***– Yüz il əvvələ ötəri bir ekskurs etsəniz, yaxşı olar.***

– Yüz il bundan öncə Milli Kitabxana indiki Xaqani bağında 4 otaqlı mənzildə yaradılıb. Zalın olmaması səbəbindən bir neçə il oxuculara xidmət etməyib. İlk dövrlər Respublika Dövlət Kitabxanası kimi fəaliyyət göstərib, yəni kütləvi kitabxana olmayıb. Tədricən inkişaf edərək gəlib bu yerə çatıb. Məbədgah 1923-cü ildə açılsa da, 3 il öncədən komissiya yaradılıb və bütün dost ölkələrinə gedib kitabxana üçün kitab toplayıblar. Deməli, hələ o vaxt bunun dövlət kitabxanası olacağını nəzərə alıb bu addımı atıblar. Orada imperator fondu var idi, onun kitabları bizə verilib. Çox qiymətli, nadir kitablar idi.

***– Kərim müəllim, biz tələbə olan vaxtlar – 80-ci illərin əvvəllərində Milli Kitabxanaya üzv yazılmışdıq və sevə-sevə bura gəlir, lazımi ədəbiyyatı taparaq imtahanlara hazırlaşırdıq. O vaxtlar növbəyə durur və içəri keçəcəyimiz anı xeyli gözləyirdik. Yəni, bir oxucu bumu vardı. Bəs, indi necədir?***

– İndi də kitabxanamız kifayət sayda olan oxucularının olması ilə fəxr edir. Bir neçə gün öncə xaricdən yüksək səviyyəli bir qonaq gəlmişdi. O kitabxanamızın zallarına baxıb məəttəl qaldı. Təəccüblə soruşdu ki, yəni bu gün kitabxanaya bu qədər oxucu gəlir? Zallarımızda yer olmur. Biz kataloqların arasında onlara əlavə oxu yerləri düzəldirik. Halbuki, 13 zalımız var. Oxucuların kitaba marağı böyükdür, özü də onların əksəriyyətinin gənclərdən ibarət olması fərəh doğurur. Təbii ki, elmi zallarımızda alimlər, tədqiqatçılar, aspirantlar əyləşirlər. Bu gün gəncləri kitabxanaya cəlb edən 2 əsas amil var: yaxşı şərait və zəngin kitab fondu. Köhnə ədəbiyyatlarla yanaşı, yeni ədəbiyyatlar da olmalıdır və fondumuz daim zənginləşir. Ulu öndər deyərdi ki, kitabxana elə bir yerdir ki, onun fondu gərək daim təkmilləşsin, yenilənsin. Çünki zaman yenilənir. Zamanla ayaqlaşmaq lazımdır. Yəqin, bunu bacarırıq ki, hər gün Milli Kitabxananın 1000-1500 oxucusu olur. Ümumilikdə isə daimi oxucularımızın sayı 230 mini keçib. Kitabxanamızın fondu 4 milyon 648 min kitabdan ibarətdir. Hər il 30 min yeni kitab alırıq. Əksəriyyəti Azərbaycan dilində çap olunub. Bütün bunlar oxuculara stimul verir.

***– Kitabxananızın beynəlxalq əlaqələri genişdirmi? Öyrəndiyimizə görə, 47 ölkənin əsas kitabxanaları ilə əməkdaşlıq memorandumu imzalamısınız.***

– Bəli. Daim bu yöndə çalışırıq. Hörmətli Prezidentimiz Heydər Əliyev sarayındakı bir çıxışında dedi ki, mən istəyirəm hər bir Azərbaycan vətəndaşı, hər bir təşkilat xaricdə ölkəmizi təbliğ etsin. Azərbaycanın uğurlarını dünyaya çatdırmaq vəzifəmizdir. Milli Kitabxana Azərbaycanın nailiyyətlərini dünyaya çatdırmaq baxımından bir pəncərədir. Bizim əsas vəzifəmiz bu uğurları əməkdaşlıq yolu ilə dünyaya çatdırmaqdır. Bundan ötrü kitabdan yaxşı vasitə yoxdur. Bir yaxşı söz var, deyilir ki, haraya kitab gəlir, mədəniyyət gəlir, orada silahlar susur. İnsanın təkamülü hər zaman kitaba ehtiyac duyub. Ona görə də kitab həmişə öndə getməlidir. Milli Kitabxananın əsas missiyalarından biri ölkəmizi dünyada tanıtmaq, Azərbaycanın cari uğurlarını, iqtisadiyyatını, tarixini, bütün spektirlərini dünyada təbliğ etməkdir. Bu istiqamətdə Milli Kitabxana çox ciddi fəaliyyət göstərir.

Dediyiniz kimi, biz 47 ölkənin Milli Kitabxanası ilə ikitərəfli əməkdaşlığa dair memorandum imzalamışıq. Onlarla bütün spektrlər üzrə əlaqələrimiz var, qarşılıqlı fəaliyyət göstəririk. Amma dünyanın 80-dən çox ölkəsinin Milli Kitabxanası, universitet kitabxanaları ilə kitab mübadiləsi edirik. Bu gün kitab 10 manatdırsa, həmin kitabın uzaq xarici ölkəyə göndərilməsi 25-50 manata başa gəlir. Cənab Prezident missiyamızı nəzərə alıb bu işə diqqət edir. Bizə vəsait ayrılır ki, kitabları xaricə göndərə bilək, bizi xaricdə oxusunlar, tanısınlar. Azərbaycan hazırda dünyaya səs salıb, sözünü ən mötəbər yerlərdə deyən ölkədir. Bu da xarici ölkə vətəndaşında bizə maraq oyadır. Bunun üçün o, ilk növbədə yaşadığı ölkənin Milli Kitabxanasına gedir. Əgər Azərbaycana dair orada kitab yoxdursa, informasiya resursu yoxdursa, əlbəttə, ölkəmizə marağı azala bilər. Biz bunu nəzərə alaraq, hər il dünya ölkələrinin Milli kitabxanalarına Azərbaycanın tarixinə, ictimai-siyasi həyatına, mədəniyyətinə, bir sözlə, hər sahəsinə dair kitablar göndəririk. Kitablarımız xaricdə oxunur. Eyni zamanda onlar da bunun müqabilində bizim kitabxanaya kitablar göndərirlər. Bu beynəlxalq kitab mübadiləsidir.

Digər istiqamət Azərbaycanın beynəlxalq təşkilatlarda təmsil olunmasıdır. Mən bu günlərdə Parisdə idim. Orada Avropa Milli Kitabxanası deyilən bir təşkilat var. Qitənin 44 ölkəsinin Milli Kitabxanası orada birləşir. Onların illik toplantısında iştirak etdim. Biz 2005-ci ildən bu təşkilatın üzvüyük. Hər il bir ölkədə tədbir keçirilir. 2013-cü ildə bizim Milli Kitabxananın 90 illik yubileyi zamanı bizdə keçdi... Beynəlxalq Kitabxana Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının üzv ölkələrinin Milli Kitabxana direktorları şurasının üzvüyük. Sentyabr ayında həmin təşkilatın da tədbiri, illik iclası Bakıda, bizim kitabxanada keçiriləcək. 2003-cü ildə yaradılmış Avrasiya Kitabxanalar Assambleyasına MDB ölkələri daxildir. Həmin təşkilatın da üzvüyük və onun da iclası bizdə keçiriləcək. Çalışacağıq ki, qarşıdakı tədbirlərimiz təkcə yubiley xarakterli olmasın.

***– Söhbətin axarı gəlib yubiley tədbirlərinə çıxdı. Bu barədə bir qədər ətraflı məlumat verərdiniz.***

– Prezident İlham Əliyev imzaladığı sərəncamla göstəriş verib ki, Mədəniyyət Nazirliyi əlaqədar təşkilatlarla birgə tədbirlər planı hazırlasın. Yubiley ərəfəsində nəzərdə tutulan ən böyük tədbirimiz “Milli Kitabxanalar xalqların mənəvi yaddaşının qoruyucusudur” mövzusunda beynəlxalq elmi-konfrans olacaq. Keçmiş Sovetlər Birliyinin bütün rəhbər biblioqrafları, eyni zamanda dünya kitabxanalarından onlarla qonağımız olacaq. Onlar ayrı-ayrı məruzələrlə çıxış edəcəklər. Konfrans bir neçə seksiyada keçəcək. Çalışacağıq ki, beynəlxalq elmi-konfrans yubileyin ən yaddaqalan tədbiri olsun...

***– Maraqlı söhbətə görə təşəkkür edirik və fürsətdən istifadə edərək sizi, fədakar kollektivinizi yubiley münasibətilə elə bu başdan təbrik edirik.***

– Minnətdaram ki, sərəncamdan dərhal sonra məni söhbətə dəvət etdiniz. İstərdim ki, bütün evlərdə balaca kitabxanalar olsun. Kitabı övladlarımıza nümunə göstərməliyik, sevdirməliyik.

*Müsahibəni hazırladı:*
*Əli NƏCƏFXANLI, “Xalq qəzeti”*




## Ukraynaya hərbi dəstək ABŞ-ın müdafiə gücünü zəifləder

**ABŞ Müdafiə Nazirliyinin Qabaqcıl Araşdırma Layihələri Agentliyi (DARPA) yeni inqilabi hərbi texnologiyalar hazırlayan mütəxəssislər işə götürmək niyyətindədir. Bu, gələcəkdə ABŞ-ın hərbi üstünlüyünə dəstək məqsədi daşıyır.**

Agentliyin Taktiki Texnologiyalar Bölməsinin qabaqcıl texnologiyaların inkişaf etdirilməsində maraqlı olduğu bildirilir. Aparılan tədqiqatlar ordunun ən qabaqcıl texnologiyalara əsaslanan silahlarla təmin olunmasına, hərbi əməliyyatların uğurla həyata keçirilməsinə xidmət edəcək. Söhbət havada, quruda, dənizdə və kosmosda hərbi əməliyyatlardan gedir.

Artıq Pentaqon mütəxəssislərlə 1 milyon dollara yaxın məbləğdə ilkin müqavilələr bağlamağa hazırdır. Qurumdan bildirilib ki, ABŞ-ın rəqibləri Vaşinqtonun cəbbəxanasındakı silahlara malikdirlər. Ölkənin yeni texnologiyalara ehtiyacı yaranıb.

Amerika Birləşmiş Ştatları müasir hava hücumundan müdafiə sistemlərinə (ADS) qarşı mübarizə vasitələrinin yaradılması təkliflərinə müsbət yanaşır. Bu ölkə daha çox havada qalan və dağıdıcı gücü olan yeni nəsil dronlar yaradılmasına maraq göstərir.

Bu günlərdə "American Greatness" nəşri qeyd edib ki, Ukraynanın silah tədarükü üçün müraciətlərinin daim artması ABŞ-ın müdafiə



qabiliyyətinə və qlobal təsirinə ciddi zərbə vurur. Əgər Ukrayna ABŞ-ın müdafiə sistemi ilə manipulyasiyanı dayandırmasa, amerikalılar "bu dolaşıq Ukrayna düyününü" kəsməli olacaqlar.

Bundan əvvəl, mayın 7-də ABŞ Hərbi Hava Qüvvələrinin veteranı və keçmiş F-16 pilotu Con Venabl qeyd etmişdi ki, ABŞ istehsalı olan F-16 qırıcıları Rusiyanın hava hücumundan müdafiə sistemlərindən üstün deyil. Bütün bunlara görə, ABŞ döyüş meydanında uğur qazana bilən ən qabaqcıl texnologiya əsasında istehsal olunmuş silahlara üstünlük verməlidir.

***Pünhan ƏFƏNDİYEV, "Xalq qəzeti"***

**"AZƏRRABİTƏİNŞAAT" ASC səhmdarlarının nəzərinə!**

9 avqust 2023-cü il saat 15.00-da "AZƏRRABİTƏİNŞAAT" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı, Nəsimi rayonu, akademik Həsən Əliyev küçəsi 10/61 nömrəli ünvanda yerləşən inzibati binada keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. "AZƏRRABİTƏİNŞAAT" ASC-nin 2022-ci ilin yekunları üzrə maliyyə fəaliyyətinin müzakirəsi və təsdiq edilməsi.
2. "AZƏRRABİTƏİNŞAAT" ASC-nin icra orqanının formalaşdırılması.
3. "AZƏRRABİTƏİNŞAAT" ASC-nin müşahidə şurasının üzvlərinin seçilməsi.
4. "AZƏRRABİTƏİNŞAAT" ASC-nin təftiş komissiyasının üzvlərinin seçilməsi.

"AZƏRRABİTƏİNŞAAT" ASC səhmdarlarının ümumi yığıncağının gündəliyinin materialları ilə tanış olmaq və əldə etmək üçün Bakı şəhəri, Nəsimi rayonu, akademik Həsən Əliyev küçəsi 10/61 nömrəli ünvana müraciət etmək lazımdır.

Telefon - 0503345050.

***İdarə heyəti***

Təmizlik yoxdursa...

## Bakı şəhərinin müşkülə çevrilmiş problemi

**Paytaxt Bakı ildən-ilə gözəlləşir. Göz oxşayan göydələnlər sıralanır, yeni parklar salınır, şəhərin mərkəzi küçələri abadlaşdırılır. Görülən işlərdə müasirliyin və tarixiliyin vəhdəti gözlənilir. Təbii ki, bütün bunlar dövlətimizin ayırdığı böyük vəsait hesabına gerçəkləşdirilir.**

Bu yeniliklərlə yanaşı, paytaxtımızın təmizlik məsələsində problem hələ də qalmaqdadır. Mərkəzi küçələrdə vəziyyət nisbətən qənaətbəxş olsa da, şəhərin ətraf hissələrində baxımsızlıq hökm sürür.

Bəzən zibil yeşikləri olduğu halda, insanlar tullantıları oraya yox, ətrafa atırlar. Beləliklə, siqaret kötükləri, kağız və plastik tulantılar iyrənc bir mənzərə yaradır. Belə halların qarşısını ala bilmək üçün qanunvericilikdə 50 ma-



nat cərimə nəzərdə tutulub. Lakin burada ictimai nəzarət, qınaq əsas rol oynamalıdır. Çöl-bayırda təmizliyə riayət şəxsi davranış məsələsi olmalıdır.

Problemin digər tərəfi də odur ki, şəhəri çirkləndirənlər heç də həmişə sakinlər olmurlar. Bəzən aidiyyəti qurumların laqeydliyi də çirklənmənin artmasına yol açır. Piyada yollarında zibil yeşiklərinin az olması, bəzən də heç qoyulmaması səbəbindən insanlar tullantıları hara gəldi, atırlar. Bəzi küçələrdə zibil yeşikləri arasında olan məsafə 1 kilometrə çatır. "Moskva" prospektində "20 Yanvar" metrostansiyasının yaxınlığında zibil yeşikləri yoxdur. Sanki natəmizlik bu küçənin adına yazılıb.

Digər bir problem isə zibil yeşiklərinin vaxtında boşaldılmamasıdır. Şəhərdə aşıb-daşan zibil qutularına tez-tez rast gəlmək olar. Yaşayış binalarının yaxınlığında yaradılmış zibilxanalarda vəziyyət daha acınacaqlıdır.

Bu problemlərin fonunda paytaxtda mənzərə təzad yaradır: gözəlləşən Bakı və natəmizlikdə eybəcərləşən Bakı. Şübhəsiz, aidiyyəti qurumlar öhdələrinə düşən işləri yerinə yetirsələr, bu problem tezliklə həlini tapar. Yaxşı deyiblər ki, təmizlik olmayan yerdə gözəllik və sağlamlıq zərbə altına düşür.

***Rüfət MƏHƏRRƏMOV***




# İnsan kapitalı cəmiyyəti zənginləşdirən sərvətdir

**Bakıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə İnsan Resursları Zirvəsi keçirilib. Agentliyin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli müzakirələrin əsas mövzusu olmuş insan resurslarından səmərəli istifadə ilə bağlı suallarımızı cavablandırıb.**

**– Mustafa müəllim, "İnsan Resursları Zirvəsi" adlı ümumrespublika müzakirəsinin keçirilməsində məqsəd nə idi?**

– Dövlət Məşğulluq Agentliyi rəsmi insan resursları qurumu olduğuna görə belə bir toplantının keçirilməsinə bir az fərqli formatda yanaşdı. Biz il ərzində karyera inkişaf forumu keçiririk, digər korporativ məsuliyyət tədbirləri təşkil edirik. Amma bunların arasında ən önəmlisi insan kapitalına kompleks yanaşmanı hədəfləyən bu zirvənin gerçəkləşməsi oldu. Düşünürük ki, bu format ənənəvi xarakter alacaq. Bu mühüm tədbirdə cəmiyyətə, dövlətə və fərdlərə verəcəyimiz mesaj məhz istənilən strukturun inkişafında, hər bir qurumun fəaliyyətində insan kapitalının önəmini qabarıq nəzərə çatdırmaqdır. İnanıram ki, bu mesajı verə bildik.

Bir məsələni qeyd edim ki, hər tədbirdə hansısa problemin həllini axıradək tapmaq mümkün olmaya bilər. Əsas odur ki, cəmiyyətin diqqətini onun həllinə cəlb edə, ən



azından, bu istiqamətdə insanlarımızı düşündürə bilək.

**– Zirvə həm də kifayət qədər fərqli formatda təşkil olunmuşdu...**

– Doğrudur, "İnsan Resursları Zirvəsi" gözlədiyimizdən də artıq maraqla qarşılandı. Tədbirin təşkili kifayət qədər məsuliyyətli, ağır bir proses idi. Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin iştirakı həyata keçirildi. Xüsusilə birinci, ikinci və üçüncü panellərdə səmərəli müzakirə aparıldı.

Dövlət orqanları nümayəndələrinin iştirakı və proseslərə yanaşması çox fərqli oldu. Ona görə də zirvə adi tədbirlərdən seçildi. İstəyirdik ki, yeni yanaşma ortaya qoyaq. Adətən, dövlət orqanlarında müzakirələrin formatları bir qədər fərqli olur. Çalışdıq ki, burada daha çox interaktivliyi təmin edək, polemikaya üstünlük verək. Düşünürəm ki, dövlət tədbirlərinin təşkili məsələsində yeni formatın başlanğıcını qoya bildik.

**– Qeyd etdiyiniz fərqli formatın perspektivini necə görürsünüz?**

– Birinci növbədə, onu deməliyəm ki, tədbirdən hər kəs müxtəlif düşüncələrə ayrıldı. Təşkilati məsələlərə, eləcə də insanlarla ünsiyyət məsələsinə fərqli yanaşmalar oldu. İnanıram ki, növbəti dövrdə bu yanaşmalar nəyisə dəyişəcək. O ki qaldı, dövlət qurumları rəhbərlərinin performansına, görüşlərdən sonra ictimai ekspertlərin bəzilərinin fikirləri mənim üçün də maraqlı oldu. Belə ki, onlar bir məsələnin üzərində xüsusi dayanaraq bildirdilər ki, bu gün ölkəmizdə məmurluq keyfiyyətcə dəyişir, yeni məzmun daşımağa başlayır. Fikirlərlə razıyam. Son bir neçə ildə məmurların siması səmimiyyətə doğru, interaktivliyə istiqamət alaraq dəyişir, daha çox ictimai ünsiyyət forması alır. Bu, indiki dövrdə çox vacib və önəmlidir.

Məlum olduğu kimi, Prezident İlham Əliyev mövcud istiqamətdə xüsusi yanaşma sərgiləyir. Ölkə rəhbərinin tövsiyə və tapşırıqlarına uyğun olaraq, bütün dövlət orqanlarının əməkdaşları vətəndaşlarla daha açıq, əlçatan, polemika müstəvisində münasibətlər qurmalıdırlar. Bu format dəyişikliyi son nəticədə dövlətimizə, idarəçiliyə də çox mühüm töhfə verəcək.

**– Ümumiyyətlə, insan resursları ilə işin düzgün qurulması üçün vacib olan nələrdir?**

– Hesab edirəm ki, insan resursları mütəxəssisinin, qurumunun birinci vəzifəsi bu işin vacibliyini hər kəsə çatdırmaqdır. Xüsusilə, fəaliyyət göstərdiyi qurumların rəhbər heyətinə. Bu, çox önəmlidir. Əgər insan resursları əməkdaşları buna nail olsalar, qurum rəhbərləri insan kapitalının rolunu doğru-düzgün anlasalar, qurumlarımızın, təşkilatlarımızın işi daha uğurlu alınır.

İnsan resurslarının ənənəvi fəaliyyəti çox önəmlidir. Qurumda fəaliyyət göstərən əməkdaşların vahid dəyər ətrafında toplaşmaları, eyni korporativ mədəniyyətə söykənmələri, onların qurum daxilində məmnun, xoşbəxt olmaları, əsasən, insan resursları departamentinin işini düzgün, səmərəli qurmasından çox asılıdır. Əməkdaşların məhz vahid ideya ətrafında birləşmələri son nəticədə həmin qurumların, təşkilatların uğuru deməkdir.

***Anar TURAN, "Xalq qəzeti"***




*6-cı Beynəlxalq Musiqi Festivalı*

# Milli Konservatoriyada “Muğam hekayətləri”

**Dünən “Muğam aləmi” 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində növbəti konsert proqramı Azərbaycan Milli Konservatoriyasında təşkil olunub.**



“Muğam hekayətləri” layihəsi adlandırılan konsertdə Azərbaycanın tanınmış xanəndəsi Xalq artisti Teyyub Aslanov və caz pianoçu Nicat Aslanov çıxış ediblər. Təqdimatda ifaçıları tarda Əliağa Sədiyev, kontrabasda Ruslan Hüseynov, zərb alətlərində Tofiq Cabbarov və Həsən Bilalov müşayiət ediblər. Proqramda dinləyicilərə Azərbaycan muğamlarının modern caz musiqisi ilə sintezi təqdim olunub. Musiqi nömrələri böyük maraqlq qarşılanıb.

Konsertdən əvvəl media üçün açıqlama verən tanınmış xanəndə Teyyub Aslanov festival barədə öz təəssüratlarını bölüşüb:

– Çox qürurvericidir ki, artıq neçə illərdir belə gözəl layihələr həyata keçirilir. Bütün təşkilatçılara, başda Heydər Əliyev Fondu olmaqla, həmçinin Mədəniyyət Nazirliyinə bu təşəbbüsə görə təşəkkürümüzü bildiririk. Festival çərçivəsində yüksək səviyyədə muğam müsabiqəsi də keçirildi. Bu gün isə burada muğamla cazın möhtəşəm sintezini təqdim edirik.

“Qədim Musiqi Alətləri” Dövlət Ansamblının solisti, xanəndə, Xalq artisti Teyyub Aslanov 1995-ci ildən bəri Azərbaycan muğam üçlüyü və müxtəlif ansamblların tərkibində bir çox xarici konsert və festivallarda iştirak edib. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, muğam sənəti kafedrasının müdiridir. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının fortepiano fakültəsinin məzunu Nicat Aslanov isə istedadlı caz ifaçısıdır. O, cazın müxtəlif janrlarında maraqlı kompozisiyalar təqdim edir. İfaçının ilk konserti 2012-ci ildə Bakı Caz Mərkəzində olub. İstedadlı cazmen bir çox yerli, eləcə də xarici konsert və festivallarda uğurla çıxış edib.

Xatırladaq ki, iyunun 18-dən başlayan “Muğam aləmi” 6-cı Beynəlxalq Musiqi Festivalı Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının dəstəyi ilə keçirilir.

**“Xalq qəzeti”**

---

**Baxış bucağı**

# “Vaqner” qiyamı”: 1917-ci ilin fevralı, yoxsa oktyabrı?

*Yaxud “Putinin aşpazı”nın “qazan qarışdırmasının” səbəbləri*

**(əvvəli 1-ci səhifədə)**

1917-ci il hadisələrinə ümumi nəzər salsaq, görərik ki, o vaxt Rusiya burjuaziyası savaşdan bezmişdi və istəmirdi ki, özünün maddi resurslarını ona xərcləsin. Nəticədə bu kəsim ayağa qalxdı və üç yüz illik Romanovlar sülaləsini devirdi. Suallar yaranır: “Vaqner” o zamankı burjuaziyasının rolunda çıxış edirdi? Digər tərəfdən, bəlkə Putin inqilab dövrünü yada salarkən, bu qruplaşmanın rəhbəri Yevgeni Priqojinin dövlət çevrilişinə cəhd təsiri bağışlayan əməlini nəzərdə tutmurdu? Axı Priqojin Ukraynada müharibə edirdi, alınmaz qala sayılan Baxmutu ələ keçirmişdi. Ölkənin ictimai rəyi onu və dəstəsini qəhrəman sayırdı. Yoxsa, qəhrəman obrazı “Vaqner” rəhbərini hakimiyyətə həvəsləndirmişdi?

Y.Priqojin özlüyündə maraqlı fiqurdur. O da maraqlıdır ki, ruslar ona “Putinin aşpazı” deyirlər. “Aşpaz” 1961-ci ildə anadan olub. Özü də Sankt-Peterbuqda. O şəhərdə ki, Rusiya liderinin siyasi karyerası baxımından çıxış nöqtəsi sayılır... “Konkord” şirkətlər qrupunun rəhbəri və sahibi olan Priqojin Ukrayna ilə münaqişəyə qədər Rusiya Prezidentinin dostlarından hesab olunurdu. Onun restoranları və iaşə obyektləri isə Putinin xaricdən gəlmiş yüksək səviyyəli qonaqları üçün şam yeməklərinə evsahibliyi edirdi. Elə “Putinin aşpazı” deyimi də bundan qaynaqlanır.

Əlqərəz, Priqojin 1981-ci ildə 12 il müddətinə azadlıqdan məhrum edilmiş, 1990-cı illərdə həbsdən azad edildikdən sonra isə doğulduğu şəhərdə restoran açmışdı. Tədricən sahibkar kimi uğurlar qazanmağa başlamış bu şəxsin 2019-cu ildəki sərvəti 14,6 milyard rubl olmuşdu. Bundan əvvəl isə yəni, 2016-cı ildə Sankt-Peterburqun 30 ən nüfuzlu adamı siyahısına daxil edilmişdi. Priqojinin “Vaqner”inə gəlincə, hərbi birləşmə indiyədək dünyanın müxtəlif bölgələrindəki münaqişələrə qatılıb. Qrup 2022-ci ildə başlanmış Rusiya-Ukrayna müharibəsinin hücum əməliyyatına cəlb olunub, Donbas uğrunda döyüşlərdə aktivliyi ilə seçilib. Priqojin özü isə 2016-cı ildən ABŞ-ın, 2020-ci ildən Avropa İttifaqının və Böyük Britaniyanın, 2022-ci ildən isə Avstraliyanın, Kanadanın, Yeni Zelandiyanın və Yaponiyanın sanksiyaları altındadır.

Söhbət iyunun 24-dəki qiyam elementli hadisədən gedirsə, bildirməliyik ki, Priqojin ondan əvvəl də Ukrayna müharibəsi kontekstində gündəmə gəlmişdi. Özü də Rusiyanın Müdafiə naziri Sergey Şoyqunu və Baş Qərargah rəisi Valeri Gerasimovu ağır təhqir etməklə. Təsəvvür edin, hansısa özəl şirkətin rəhbəri ölkənin hərbi elitası sayılan şəxslər haqqında ağzına gələni danışır. Mümkündürmü? Amma Priqojin bunu özünə rəva bilirdi. Xüsusən, onun dəstəsi Baxmutu ələ keçirəndən sonra.

Elə o zaman da Priqojinin fikirlərində dövlət idarəçiliyinə saymazyana münasibət kimi təmayül var idi. O, sanki dövlət içində dövlət, ordu içində ordu idi. Ancaq, “Vaqner” liderinə güldən ağır söz deyilmirdi. Əksinə, işlətdiyi hər söyüşdən sonra “hörməti” bir qədər də artırdı. O, sadələrin düşüncələrində qorxmaz rus “boqatır”ı kimi möhkəmlənirdi. Nəzərə alaq ki, rus kişisi ruhunun, “mujikliyin” məhsulu olaraq meydana çıxan “boqatır” bütün oyunları pozandır və ölkəni düşdüyü çətinlikdən çıxarandır. Beləcə, rus insanı Priqojinin söyüş gəzdirən dilinə, hiddət dolu sifətinə heyranlıq duymağa başladı. Diqqət yetirək, “Vaqner”in sahibi tez-tez sosial mediada görünür, sanki onun kultu yaradılırdı. Bu kult Ukrayna ilə müharibəni leqal Rusiya maraqları baxımından sadə dildə izah edir, savaşı ilahi qanunauyğunluq kimi göstərirdi.

Priqojin və “Vaqner” rus ictimai fikrinə hakim kəsilmiş “Velikaya Rossiya” düşüncəsinin əməldəki təsdiqi kimi meydana çıxmış obrazlardır. Bu obrazlar xarici düşmənlərə, Rusiyanı dağıtmaq istəyən qüvvələrə (belə qələmə verilir – red.) münasibətdə barışmazdır, amansızdır. Deməli, daxildəki düşmənlərə, naxələflərə qarşı da çıxılması lazımdır ki, bu iki obrazın, qəhrəmanlıq əfsanələrindəki kimi, fövqəladə missiyasında məntiqi qanunauyğunluq yaransın.



Bəli, xarici yadellilərə qarşı barışmaz mövqe tutan “Vaqner” öz missiyasını geniş götürməli, daxili düşmənlərə qarşı da cəbhə açmalı idi. İyunun 24-də bütün dünya məhz bu cəbhəni gördü. Sual yaranır: kimdir və ya kimlərdir daxili düşmənlər? Mövzu ətrafında söz açmazdan əvvəl bildirək ki, daxili düşmənlər olmasa, V.Putin ilk baxışdan “Vaqner” qiyamı kimi görünən hadisə ilə əlaqədar xalqa müraciətində tarixə – 1917-ci ilə üz tutmazdı.

Bəli, Putinin nəzərində Ukrayna müharibəsi Rusiyanın məhvini arzulayan qüvvələrə qarşı müqəddəs savaşdır. Kreml lideri dəfələrlə çıxışlarında bunu bildirib və müxtəlif arqumentlərlə fikrini əsaslandırıb. Qərbin Rusiyanın sərhədlərinə doğru irəliləməsindən tutmuş, bir çox digər məqamları vurğulayaraq, geniş izah da verib. Rusiya lideri öz baxış bucağı nöqteyi-nəzərindən haqlıdır. Hətta o qədər haqlıdır ki, Putinin bu mövzudakı fikirlərini mütəmadi dinləyən şəxsdə Qərbin hərbə-zorbalığı, bütün mütərəqqi oyun qaydalarını pozmaq mahiyyəti barədə yetkin təsəvvür formalaşa bilər. Elə təəssürat yaranar ki, Rusiya hərbi birləşmələrinin suveren Ukrayna ərazisində görünmələri haqqın və ədalətin təntənəsidir. Putin inandırmağı bacaran, auditoriyaya psixoloji təsir gücünə malik dövlət adamıdır.

Amma görünür, ölkə daxilində Rusiya liderinə inanmaq istəməyənlər də var. Keçmiş “çekist” isə bundan xəbərdardır. Diqqət yetirək, hazırda, demək olar ki, bütün dünya Ukrayna cəbhəsində Rusiyaya qarşı birləşib. Ancaq görünən budur ki, bu birləşmə gözlənilən nəticəni vermir. Hərçənd, Ukrayna hərbi kampaniyasının Rusiyanı zəiflətmədiyini söyləmək mümkünsüzdür. Ona qarşı döyüşənlərin də böyük enerji tükədib taqətdən düşməyə doğru getdikləri də faktdır və dəfələrlə də etiraf edilib.

Belədə ikincilərin “b” planına keçmələri zərurəti meydana çıxır. Nəzərə alaq ki, Qərb liderləri dəfələrlə Putinin hakimiyyətinin devrilməsini müharibənin başa çatması baxımından həlledici faktor adlandırıblar. Düşünülə bilərdi ki, “Vaqner” qiyamı” həmin “b” planıdır. Amma ilk baxışdan. Hadisələr, tədricən onu göstərdi ki, “Vaqner”in fəaliyyəti qiyama qarşı qiyamdır. Məhz bu anlamda Putinin xalqa müraciətində 1917-ci ilin Fevral burjua inqilabından söz açması məntiqidir.

Bəli, Rusiya lideri müraciətində xalqı, vətəni qorumaq barədə pafos saçan fikirlərini elə-belə dilə gətirmədi. Əlbəttə, o, Rostovu ələ keçirdiyi, Moskvaya doğru yürüşə başladığı deyilən “Vaqner”i qəhrəman kimi təqdim edə bilməzdi. Hər bir halda, qanuni hakimiyyətə qarşı qəsd ritorikasını işə salmalı idi və saldı da. Cavabı aydınlaşmağa başlayan əvvəlki sualımıza gəlirik: Rusiyadakı mövcud hakimiyyətə qarşı çıxmaq istəyənlər, “burjuylar” kimlərdir? Kimlərdir 1917-ci ilin fevralını təkrarlamaq istəyənlər?

Əlbəttə, bunu müəyyənləşdirmək, konkret adlar çəkmək çətindir. Əslində, buna heç ehtiyac da yoxdur. Priqojinin dediklərinə diqqət yetirmək kifayətdir. O, nədən danışır? Korrupsiyadan, rüşvətdən və sair xoşagəlməz hallardan. Belə qənaətə gəlmək olar ki, buna yol verənlər Rusiyanın Ukrayna cəbhəsində uğur qazanmasına maneçilik törədənlərdir. Onlar qəsdən rus əsgərlərini qırğına verir, ölkənin məğlubiyyəti reallığını doğururlar. Priqojin isə Şoyqu və Gerasimovun timsalında belələrini təhqir edir, alçaldırdı.

Nəhayət, kuliminasiya anı yetişir. Əsəblərinə hakim kəsilə bilməyən Priqojin “vaqner”çilərə havadan raket zərbələrinin endirildiyini bildirib, bunu gerçəkləşdirənləri cəzalandırmaq üçün üzü Moskvaya yürüşə başlayır. Deməli, tipik rus təfəkkürü işə düşür. Yəni, hərbə-zorbalıq. Ümumiyyətlə, müasir Rusiya idarəçiliyi üçün xarakterik bir xüsusiyyətin mövcud müstəvidə də gündəmə gəldiyini görə bilirik.

Məlumdur ki, bir çox hallarda Moskvanın nəzərdə tutduğunu hakimiyyətə yaxınlığı ilə seçilən ayrı-ayrı şəxslər tam çılpaqlığı ilə dilə gətirirlər. Bu mənada koronavirus səbəbindən ölümü ilə tarixə qovuşmuş Rusiya liberal demokratlarının lideri Vladimir Jirinovskinin əsasını qoyduğu “miras” var. Jirinovski fikirlərində, bir növ, basıb-kəsirdi, Rusiya dövlətinin əzmi qarşısında, necə deyərlər, sərhədlər tanımırdı. Sakit okean hövzəsindən girib Atlantik okeandan çıxırdı. Ona avantürist kimi yanaşılsa da, əslində, Rusiya hakimiyyətinin fəaliyyət tərzinə diqqət yetirəndə görmək olurdu ki, mahiyyət etibarilə Jirinovskinin söylədikləri doğrudur. İndi Priqojin də təxminən həmin siyasi metodologiyanın məhsulu kimi meydana atılmışdı. Sadəcə baş liberalistin fərqli olaraq, onun əlində güc də var idi. Belə demək mümkünsə, gücün və çənənin vəhdəti...

Diqqət yetirək. Priqojinin gücünə qarşı müqavimət, demək olar, olmadı. Belə qənaətə gəlmək mümkündür ki, “b” planını gerçəkləşdirmək istəyənlər çaşbaş duruma düşdülər. Kreml administrasiyası isə əksinə, hazırlıqlı göründü. Yaradılan fon üsyana qarşı mübarizənin reallığını aşıladı. Məsələn, Moskva ətrafında səngərlər qazıldı. Priqojin isə saatda 70 kilometr sürətə malik hərbi texnikası ilə Rostovdan Moskvaya təxminən min kilometrə qədər olan yolu tez bir zamanda qət edərək, şəhərin ətraflarına yetişməyə müvəffəq oldu (?). Üsyançı kimi qələmə verilən şəxs yolda nə müqavimət gördü, nə də mübarizə. Düşünək görək, belə şey mümkündürmü? Hər halda “Vaqner” silahlıları da insanlardır. Onlara da güllə dəyəndə, həyatlarını itirə bilirlər. Güllə səsləri isə eşidilmədi. Yalnız fon...

...Əvəzində Priqojin bildirirdi ki, ona qoşulanlar var. Əsil məsələ də elə bundadır. Mövcud anlamda “Vaqner” qiyamı” indiqator rolunu oynadı desək, yanılmarıq. Putinin xalqa müraciətindəki sərt məntiqə, bağışlamaz ritorikaya rəğmən, Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov dünən bildirdi ki, nə Priqojinə, nə də onun dəstəsindəkilərə cinayət işi açılacaq. Çünki vətən qarşısında əvvəlki xidmətləri nəzərə alınır. Belə şey olurmu? Düşünək görək, Putin hakimiyyəti özünə qarşı hədsizliyə biganə yanaşan təbiətdədirmi? Əsla! Deməli, əsas məsələ Priqojinə kimlərin qoşulmasıdır. Bəli, məhz onlar bağışlanmayacaq.

Deməli, qənaətə gəlmək mümkündür ki, 25 min hərbçilik “Vaqner” Özəl Hərbi Şirkətinin qiyamı kimi dünyanın ictimai rəyində yer tutan fəaliyyət, əslində, daxildəki anti-Putin ab-havasını müəyyənləşdirmək üçün bir test oldu. Necə deyərlər sadiqlər və xainlər müəyyənləşdi. Eyni zamanda, bu testin Rusiya liderinə daha qətiyyətli davranmaq üçün şərait yaradacağı aşkardır. Bir qədər əvvəl də bildirdik ki, Priqojin çıxışlarında hədəfləri müəyyənləşdirirdi. O, Şoyqunun və Gerasimovun adlarını çəkirdi. Yəni, söyüşlərini onlara ünvanlayırdı. Ancaq bu iki şəxs, müəyyən mənada, ümumiləşdirilmiş obrazlardır. Belə nəticəyə gəlmək olar ki, hədəf Ukrayna müharibəsi üçün resurslarını gizlədənlər, ümumən, ölkənin uğur qazanmasına maneçilik törədənlər, övladlarını hərbidən gizlədənlər, başqa sözlə desək, pullarını yastıqlarının altında saxlayıb, xımır-xımır yeməyə üstünlük verənlərdir. Deməli, iyunun 24-də Rusiyada baş verənlər, 1917-ci ilin fevralındakı yox, oktyabrındakı inqilabdır. “Vaqner”in teleqram kanalı bolşevizmin “İskra” qəzetinə bənzər bir şeydir. Priqojin isə nəşrin baş redaktorudur.

Bəli, Priqojinin hədəfi yuxarıda sadaladığımız kateqoriyaya daxil olanlardır. Elələri ki, “Vaqner”in şefinin fikrincə, Rusiyanın pulunu qazanıblar, varlanıblar, ancaq ölkənin çətin məqamında əllərini daşın altına qoymaq istəmirlər. “Rus ayısı” Priqojin bildirdikləri, həmçinin, belələrinin, yəni “burjuaziyanın” başının ağrıyacağının kifayət qədər məzmunlu anonsudur. Nəzərə alsaq ki, o, köhnə dostu Prezident Aleksandr Lukaşenko ilə danışıqlardan sonra Belarusa yollanıb, deməli, missiyası artıq başa çatıb.

“Vaqner” rəhbərinin təhqir obyektlərini, Ukraynadakı müharibəni Rusiya üçün cəhənnəmə çevirənləri, rus əsgərlərinin, belə demək mümkünsə, ət maşınından keçməsinə şərait yaradanları cəzalandırmaq növbəsi isə Putinindir. Deməli, Kreml rəhbərinin, elə günü sabahdan ölkənin Birinci dünya müharibəsindəki kimi, Ukrayna ilə, daha doğrusu, Qərblə savaşdan da çıxmasını istəyən Rusiya siyasi elitasındakı şərti burjuaziyanı cəzalandırmağa keçəcəyini, sərt tədbirlərə əl atacağını proqnozlaşdırmaq mümkündür.

***Ə.CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***




Yaddaşlarda yaşayanlar

# Dedim: "Bizim Yaşarımız ölməz!"

## Dedi: "Bəs mən kimin Yaşarıyam ki, ölürəm?"

**Onu ötən əsrin 70-ci illərindən – oxuduğum İncəsənət İnstitutundan tanıyırdım. Sonra – 1981-ci ildə İsi Məlikzadənin "Qatarda" adlı əsəri əsasında Ramiz Həsənoğlunun ekranlaşdırdığı televiziya tamaşasındakı Dadaşov və elə həmin il lentə alınmış "Səni axtarıram" (Aslan Qəhrəmanovun bu əsərini Tariyel Vəliyev ekranlaşdırmışdı) teleserialındakı Elçin obrazlarına görə, hamı kimi, mən də onu sevməyə başladım.**



Mədəniyyət saraylarında və çalışdığım təhsil müəssisində dəfələrlə görüşsək də, ən çox təmaslarımız mənim Azərbaycan radiosunda işlədiyim illərdə oldu. Onun radio ilə əməkdaşlığı televiziya ilə əməkdaşlığından heç də az deyildi. Üstəlik, kimin hansı verilişə çağırılmasından asılı olmayaraq, bütün dəvətləri qəbul edirdi. İstənilən lentin hazırlanması zamanı bir neçə yaddaqalan məqamlara "müəlliflik" edirdi. Həmkarlarının dediyinin təkrarı olmasın, həyatda da səhnədəki kimi şux idi. Elə bu xatirə də məhz həmin şuxluqla, yumor hisslərinin zənginliyi ilə bağlıdır.

... 2012-ci ilin yazında görkəmli bəstəkarımız Tofiq Bakıxanov qəflətən xəstələnmiş, təcili yardım maşını ilə Mərkəzi Gömrük Xəstəxanasına aparılmışdı. Səhər tezdən qarmon ifaçısı Zakir Mirzəyev zəng eləmişdi ki, mən Tofiq müəllimin yanına gedirəm,



sən də gəlirsənmi? Razılaşıb getmişdik və Tofiq müəllimin yanında 10-15 dəqiqə qalandan sonra bizə demişdilər ki, xəstəni görmək üçün başqa adamlar da gəlir, siz çıxın.

Biz palatadan çıxanda Zakir müəllimə dedim ki, Yaşar Nuriyev də burada müalicə olunurdu, indi Türkiyəyə aparıblar. Tibb bacısı astaca dedi ki, onun yanına gələn olmasın deyə həkimlər belə söz çıxarıblar. Yaşar müəllim indi də burada, bu mərtəbədə müalicə olunur. Zakir Mirzəyev "qır-saqqız oldu" və tibb bacısı bizi ora aparmağa söz verməsə də, istiqamət verdi.

... Biz palataya daxil olanda Yaşar müəllimin xanımı ona duru yemək verirdi. Orada bildim ki, Zakir müəllimlə dayıoğlu, bibioğlu kimi qohumluqları var. Sənətkar gözümə çox üzgün göründü. Bu təəssüratımı gizlətmək üçün "Maşallah, Yaşar müəllim, xeyli yaxşılaşmısınız!" – dedim və dərhal əlavə etdim ki, bir yanınızı qaşıyın, göz dəyməsin. Sənətkar zarafatından qalmayıb yanında əyləşmiş xanımına tərəf çevrilib öz yanını göstərdi:

– Qaşı!

Xanım utansa da, xəstənin könlünə dəyməyərək Yaşar müəllimin yanını qaşıdı. Biz güləndə Yaşar müəllim əlavə etdi:

– O biri tərəfi də.

Amma gülüş dəqiqələri çox çəkmədi. Sənətkar asta səslə dedi:

– Zakir, ölürəm.

Mən müdaxilə etdim:

– Bizim Yaşarımız ölməz, Yaşar müəllim.

– Bəs mən kimin Yaşarıyam ki, ölürəm? – deyə yenə zarafat etməyə çalışdı.

Əvvəlcədən Zakir müəllimin təklifi ilə razılaşmışdıq ki, Tofiq Bakıxanovun da xəstələndiyini ona deməyək və özümüzü elə göstərək ki, guya birbaşa onun yanına gəlmişik. Amma...

Biz sağollaşanda Yaşar Nuriyevdən eşitdiyim sual məni çaşdırdı:

– İndi Bakıxanov orada necədir? Həkimlər nə deyirlər?

Yaxşıdır, deyə, sağollaşdıq və bir neçə gündən sonra onu, həqiqətən, yenidən Türkiyəyə apardılar.

Aradan xeyli keçəndən sonra sevimli aktyorumuzu mənim qrup yoldaşım Təranə Balayevanın qızının toyunda gördüm və kaş o gündə görməyəydim. Dostları ilə yenə də şənlənmişdilər…

Həmin il noyabrın 22-də isə dostlarından və hamıdan birdəfəlik ayrıldı. O, həqiqətən, ssenarisiz də təbəssüm yaratmağın ustası idi, səhnə və gülüş üçün doğulmuşdu. Allah rəhmət eləsin!

***İ.QAÇAYEV,
"Xalq qəzeti"***

Replika

# Bakı vaxtı ilə...

## Şəhər saatlarının isə hərəsinin öz "vaxt"ı var

**Küçə saatları həm vaxtı göstərir, həm də meqapolis atributu, şəhər memarlığının tərkib hissəsi sayılır. Dünyada nadir dizaynları ilə heyrət doğuran, dəqiq işləyən "qocaman" saatlar məşhurdur. Hindistanda XVIII əsrdən qalma, mərmər və daşdan düzəldilmə "Samrat" günəş saatları, Yaponiyada fəvvarə–su xronometrləri kimi.**

Almaniyanın Berlin şəhərində isə eyni bir vaxtda dünyanın bütün saat qurşaqlarındakı zamanı göstərən nadir saatlar lövhəsi var. Məkkədə 400 metr ucalıqda ən böyük saatlar quraşdırılıb: əqrəblərin uzunluğu 17, 22 metrdir. Londondakı Vestminster sarayının üzərindəki "Biq-Ben" qülləsinin (hazırda Elizabet qülləsi adlanır) saatları 165 ildir ki, dayanmadan zamanı ölçür. Bir məsələ də var ki, Londonda artıq zərb-məsələ dönmüş deyimə görə, orada yalnız küçə saatları düz işləyir. Bu baxımdan Moskva Kremlinin saatları SSRİ xalqlarını düz 70 il "aldadıb".

Bizim paytaxtımızda da küçə, qüllə, divar, fasad, yer saatları çoxdur. XIX əsrdən üzübəri quraşdırılmış qədim və müasir, kvadratşəkilli və dəyirmi, iri və balaca saatlar... Bakı bu baxımdan Avropanın bəzi şəhərləri ilə rəqabət apara bilər. Hesabla, paytaxt saatlarının hamısı daim saz olmalı, istidən soyuğa, quraqlıqdan rütubətə qədər istənilən havada, necə deyərlər, saat kimi düz işləməlidir. Bəs Bakı siferblat qalereyasında düz-əməlli işləyən saat varmı?

Sözsüz ki, var. Bakı Şəhər İcra Hakimiyyəti Aparatı binasının, Heydər Əliyev prospektindəki binanın qüllə saatlarını buna misal çəkmək olar. Bakı bulvarındakı elektron saat qülləsi isə (əvvəlki təyinatına görə – "Paraşüt qülləsi") gündüzlər fəaliyyətsiz görünsə də, axşamlar işıq saçaraq həm vaxtı, həm də havanın temperaturunu və küləyin sürətini göstərir. Alt işıqlandırma sistemi bu siferblatları gecə Bakısının "nur abidələri"nə çevirir. Amma, belə hallarda deyildiyi kimi, bir-iki güllə bahar olmaz. İçərişəhərin Qala divarında, qonşuluqdakı Filarmoniya bağında, UNEC binasında, Zabitlər bağında, Bakı Beynəlxalq Avtovağzalında və digər ünvanlarda neçə-neçə "veteran" və "gənc" saat olsa da, hərəsi vaxtı bir cür göstərir.

Müşahidələrimizə görə, Bakıda tam doğru-dürüst çalışan saatlar çox azdır. Deyəcəksiniz ki, hamının qol saatı və mobil telefonu var, o saatlara kimsə baxmır. Onda cümləni belə interpretasiya edək: deyəsən, o saatlara nə vaxtı bilmək üçün, nə də təmir məqsədilə kimsə baxmır.

Elə bizim "Xalq qəzeti"nin yerləşdiyi nadir arxitekturalı binanın ilk tinindəcə (Bülbül və "28 May" küçələrinin tini) yerləşən saat adamı aldadır. "28 May" boyunca üzüaşağı gedəndə daha bir neçə belə "yalançı" saata rast gəlirik. Cəfər Cabbarlının abidəsinin yanında qərarlaşmış qədim binanın üzərindəki saat bir az "insaf"lıdır – cəmi 5-10 dəqiqə geri qalır. Amma o saata inanıb dəmiryol vağzalına, qatara və ya cədvəl üzrə işləyən avtobuslara minməyə arın-arxayın addımlarla gedənlər yolda qalar.

Oradan geri qayıdıb, Nizami və Səməd Vurğun küçələrinin kəsişməsindəki yaraşıqlı binanın başında qərar tutmuş saatlara baxınca da təəssüf hissi keçirdik. Burada nə bu, nə də digər küçəyə baxan saatların heç biri işləmir. Yeri gəlmişkən, nə vaxtsa Nizami küçəsinin mərkəzində fənəri xatırladan qədim saat vardı, görünür, çox "yaşlı" olduğu üçün "istirahət"ə göndərilib.

Görəsən, Bakıda bütün küçə saatlarının eyni bir vaxtı göstərməsinə nəzarət edən hər hansı bir qurum varmı? Bu saatların bəzisinin "donması", bəzisinin zaman yürüşündə dayanıb "nəfəs dərməsi", hər halda, şəhərin gözəlliyi ilə bağlı təəssürata kölgə salır.

Sual yaranır: bu saatlara ehtiyac yox idisə, niyə quraşdırılıb? Yox, əgər yerlərində qalırsa, niyə onlara baxan, nəzarət edən yoxdur? Bunu kim edəcək? Bakı şəhər İcra Hakimiyyəti, yoxsa saatların vurulduğu binaların sahibləri və ya yaradılmasına ciddi tələbat duyulan hansısa bir xidmət qurumu?

***Əli ƏLİYEV, "Xalq qəzeti"***



SON SƏHİFƏ
Xalq qəzeti
Xalqın qəzeti!
№ 135 (30251) 26 iyun 2023-cü il, bazar ertəsi
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## “Böyük dəbilqə” turnirində 1 medal

**Azərbaycanın cüdo komandası Monqolustanın paytaxtı Ulan-Batorda təşkil olunan “Böyük dəbilqə” turnirində 1 medal qazanıb.**



Yeganə medalı yığmamızın aktivinə Yaşar Nəcəfov (66 kq) yazdırıb. Cüdoçumuz yarışda üçüncü yeri tutub.

## Komandamız “Berlin-2023”də uğurla çıxış edib

**Almaniyanın Berlin şəhərində Ümumdünya Xüsusi Yay Olimpiya Oyunlarında komandamız uğurla çıxış edərək 6 qızıl, 5 gümüş və 13 bürünc medal qazanıb.**



Turnirin son günündə üzgüçülük yığmamızın üzvü Aidə Rzayeva arxası üstə 25 metr məsafəyə üzmədə bütün rəqiblərini geridə qoyaraq qızıl medala layiq görülüb.

Atletika üzrə yığmamızın üzvü Bəhruz Bənnayev 100 metr məsafəyə qaçışda qalib olub.

Daha bir qızıl medalı yığmamıza oğlanlardan ibarət UNİFİED SPORTS (birləşmiş idman) voleybol komandamız qazandırıb. Finalda Çex Respublikasının yığma komandasına qalib gələn millimiz qızıl medal alıb.

## “Krakov-2023”: Mübarizə davam edir



**İyunun 25-də 34 medal dəsti sahibini tapıb.**

Avropa Oyunlarının altıncı günündə tamaşaçılar 17 növdə mübarizəyə şahid olublar. Azərbaycan idmançıları boks, taekvondo, qılıncoynatma, muay-tay və atıcılıqda qüvvələrini sınayıblar.

Muay-tay üzrə təmsilçimiz Aysun Dərvişova (57 kq) və Emiliya Rzayeva (63,5 kq) və Xəyal Əliyev (67 kq) yarımfinala vəsiqə qazanmaqla özləri üçün ən azı bürünc medalı təmin ediblər.

Yarımfinal görüşləri iyunun 26-da keçiriləcək.

Xatırladaq ki, iyulun 2-dək davam edəcək III Avropa Oyunlarında 48 ölkədən 7 minə yaxın idmançı mübarizə aparır. Azərbaycan “Krakov-2023”də 13 növ üzrə 86 idmançı ilə təmsil olunur.

*Leyla SABİRQIZI, “Xalq qəzeti”*

Texnologiya yenilikləri



## Dünyanın ən böyük “iPhone” modeli

**Vaxtaşırı hobbi məqsədləri və ya fərqlənmək üçün məşhur cihazların nəhəng versiyalarının hazırlanmasının şahidi oluruq. Bu dəfə isə dünyanın ən böyük “iPhone” modeli yaradılıb. Müxtəlif elektron cihazlardan istifadə edilərək düzəldilmiş “iPhone” Nyu -York küçələrində nümayiş etdirilib.**

Metyu Bem adlı fenomenin hazırladığı nəhəng “iPhone” modeli tam işlək vəziyyətdədir və uzunluğu 2 metrə yaxındır. Nəhəng sensor ekrana sahib telefon android əməliyyat sistemi ilə işləyir və bütün funksiyaları yerinə yetirə bilir. Onunla selfi çəkmək, qeydiyyatdan keçmək, internetdə oynamaq, videolara baxmaq, araşdırma aparmaq və hətta “Apple Pay” ilə ödəniş etmək mümkündür.

Qeyd edək ki, bu telefondan reklam məqsədləri üçün istifadə olunacaq.

*Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”*

## “Ağıllı” yuxu qulaqcıqları

**Hər insan keyfiyyətli yuxuya ehtiyac duyur. Texnologiyanın inkişafı ilə bir çox problem öz həllini tapıb. Bu dəfə isə “Philips” şirkəti bir ilkə imza ataraq, yuxu problemini aradan qaldıracağını iddia edir. Dünyanın ilk “ağıllı” yuxu qulaqcıqları satışa çıxarılır.**




Fərqli biometrik yuxu sensorlarına malik qulaqcıq, istifadəçinin yuxuya getmə müddətini hesablayır və səsin ötürülməsini buna uyğun tənzimləyir. Səsi azaltmaq və gücləndirmək mümkün olan qulaqcıq, həm də fon səs-küyünü minimuma endirir.

Səsin səviyyəsi xüsusi proqram vasitəsilə və ya fiziki düymələrlə təmin edilir. Qulaqcıqdan oxumaq, yatmaq, söhbət etmək kimi fəaliyyətlər üçün də istifadə oluna bilər. İstifadəçiyə yuxu vərdişlərinə görə fərqli tövsiyələr verən qulaqcıq yuxu zamanı heç bir narahatlıq yaratmamaq üçün hazırlanıb.

Qeyd edək ki, tamamilə ziyansız olduğu iddia edilən qulaqcıq oktyabr ayında satışa çıxarılacaq.

*Ə. MƏHƏMMƏDLİ, “Xalq qəzeti”*

## Mədəniyyət xəbərləri

**“Heydər Əliyev İli” və Silahlı Qüvvələr Günü ilə bağlı Türkiyənin BZT Akademiyasının Azərbaycan Təmsilçiliyi və Turan Akademinin təşkilatçılığı ilə qəhrəman şəhidlərimizin övladları ilə “Azərbaycanın qəhrəman övladları” adlı layihə təşkil olunub.**



Layihə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı tərəfindən həyata keçirilib. Bu çərçivədə uşaqlar Hərbi Qənimətlər Parkı və Şəhidlər xiyabanını ziyarət ediblər və Gənc Tamaşaçılar Teatrında təşkil olunan əyləncəli proqramı izləyərək, müxtəlif səpkili oyunların iştirakçısına çevriliblər.

***

**Ölkəmizdə İkinci Bakı Beynəlxalq Piano Festivalı keçirilir.**



İlk dəfə belə bir festival bizdə keçən il təşkil edilib. Hazırkı festivalda 11 ölkədən tanınmış musiqiçilər iştirak edirlər. Konsert proqramlarına caz, flamenko, tanqo, klassik və s. musiqilərin ifası daxildir. Festivalın özəlliyi odur ki, bu dəfə film nümayişləri də nəzərdə tutulur. Bu filmlər sırasında Xalq artisti Oqtay Mirqasımovun “Bu, həqiqətin səsidir. Qara Qarayev” adlı ekran əsəri də var.

***

**Gənc rəssam Nəzrin Abbasovanın “Hisslərin ağuşunda” adlı fərdi sərgisi olub.**



“Q Galery” qalereyasında keçirilən tədbirdə Nəzrin müxtəlif əsərlərini təqdim edib. Sərgidə təqdim olunan rəsmlərdə rənglərin təbii qarışığından yaranan duyğu çələngində mövzuya xidmət edən əsas ideya boy göstərir. Rəssamın fantaziyası tamaşaçıları unudulmaz emosional səyahətə aparır.

*Ə. DOSTƏLİ, “Xalq qəzeti”*

Sağlamlıq guşəsi

## Ağarma, ay saçım...

**Bir çox insanın saçı 50 yaşlarında ağarır, bəziləri isə artıq 20 yaşında bu problemlə üzləşir. Elm adamları araşdırmalara əsaslanıb bununla bağlı açıqlama veriblər.**



Birincisi, saçların ağarması sağlamlıq problemlərinə – ayrı-ayrı orqanların və ya bəzi daxili sistemlərin disfunksiyasına görə yarana bilər. Saçların erkən ağarmasının bir səbəbi həzm orqanlarının xroniki xəstəlikləridir. Avitaminoz, ürək-damar xəstəlikləri, anemiya, sinir funksiyalarının pozulması, xroniki stress, yetkinlik dövründə keçirilən ciddi viral və böyrək xəstəlikləri saçların tez ağarmasına səbəb olur.

Gənc xanımlar daha çox əziyyət çəkir, ağarmış saçlarını rəngləyirlər. Bu, düzgün deyil. Öncə daxili problemlər həll edilməlidir ki, gələcəkdə ağır fəsadlar yaranmasın.

Saçların ağarmasının bir səbəbi də qidalanma və pis vərdişlər ola bilər. Az proteinli pəhrizlər, vitamin və elementlərin defisiti, təmiz havada gəzməmək saçlara mənfi təsir göstərir.

Bunlarla yanaşı, yuxu amili də önəmlidir. Yuxu rejimi gənc yaşda pozulursa, 30 yaşda saçlar ağarmağa başlayır.

*Zərifə HÜSEYNLİ, “Xalq qəzeti”*

## Hündür göydələnlər



**Sinqapurdakı “Avenue South Residence” göydələn layihəsi keçən həftə “ADPP” memarlıq studiyası tərəfindən təqdim edilib.**

Layihə çərçivəsində 56 mərtəbəli binaların ucaldılması nəzərdə tutulur. Binalarda müasir yığma texnologiyaları tətbiq edilib.

Məlumata görə, kompleksdə 988 mənzil, bir neçə ticarət obyekti, uşaq bağçası, restoran və kafe olacaq. Həmçinin 19 və 36-cı mərtəbələrdə 16 “səma terrası” və daha bir neçə böyük ümumi terraslar yerləşəcək.

*S.RZAYEVA, “Xalq qəzeti”*

Proqnoz

## Dağlıq ərazilərə yağış yağacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən **iyunun 26-da Bakıda və Abşeron yarımadasında** yağmursuz keçəcək. Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 17-22°, gündüz 27-32° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 754 mm civə sütununa enəcək, nisbi rütubət 55-65 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 22-23° isti,Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 16-21°, gündüz 30-35°, dağlarda gecə 9-14°, gündüz 15-20° isti olacaq.

*Q. QASIMOV, “Xalq qəzeti”*




**✓ Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən Kərimov Elnur Qəzənfər oğlunun adına verilmiş AR seriyalı, 051050 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

### ALLAH RƏHMƏT ELƏSİN

Bakı Dövlət Universitetinin filologiya fakültəsinin 1984-cü il məzunları Əsli Mansurovaya bacısı

**XALİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5171
SİFARİŞ 1561
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00